Köynək; ٢. Baş örtüyü; ٣. Qara xeybəri çadırı; ۴. Bir top ip; ۵. Astarı Misir kətanı, daxili .١ isə xurma lifi və qoyun yunundan olan iki dəst döşək; ۶. Astarı Taif dabağı, içi isə quru bitkilərdən olan dörd balış; ٧. Bir ədəd (yundan toxunmuş) pərdə; ٨. Bir ədəd həsir; ٩. Əl dəyirmanı; ١٠. Bir ədəd su tuluğu; ١١. Bir ədəd su dolçası; ١٢. Bir ədəd aftafa; ١٣. Bir ədəd su və qida maddələri saxlamaq üçün yaşıl rəngli saxsı qab; ١۴. Bir neçə saxsı .səhəng; ١۵. Bir ədəd mis ləyən; ١۶. Bir ədəd böyük kasa

Bütün bunları hazırladıqdan sonra Allahın rəsulunun (s) yanına gətirdilər. O Həzrət (s) əşyalara

(baxıb buyurdu: "Allah (bu evliliyi) Əhli-beytə (ə) mübarək etsin".(١)

## GƏLİNİ ÖTÜRDÜKDƏ TƏKBİR DEMƏK

GƏLİNİ ÖTÜRDÜKDƏ TƏKBİR(٢) DEMƏK

Allahın rəsulu toy axşamı (s) öz ağ və qara qatırlarını hazırladı. Üstünə bir dəsmal salaraq Fatiməyə "Min"-deyə buyurdu. Salmana da öz növbəsində yəhəri tutmağı əmr etdi. Özü isə arxadan gələrək, qatırların getməsi üçün səslənirdi. Yolda möhkəm bir eniş səsi eşitdi. Baxdıqda, Cəbrayıl və Mikayılın hər birisinin yetmiş min mələklə öz ali məkanlarından yerə endiklərini gördü. Onladan nə üçün yerə endiklərini soruşduqda belə dedilər: Fatiməni Əlinin evinə aparmağa gəlmişik. Sonra isə təbrik etdilər. Mələklərin "Təkbir" sədaları ucaldı. O zamandan sonra gəlini yola salarkən "Təkbir" (söyləmək adətə çevrildi.(٣

## ANANIN ƏRƏ GEDƏN QIZINA TÖVSİYƏLƏRİ

Ovf Şeybaninin Əyas adlı bir qızı var idi. Onu Ömər ibn Həcər adlı bir cavanla evləndirdilər. Gecə gəlin bəy evinə getməmişdən qabaq, anası qızını kənara çəkib, gələcək həyatında evdarlıq, övlad tərbiyəsi və həyat yoldaşı ilə yaxşı davranması, qadınlıq vəzifəsini layiqincə yerinə yetirməsi barəsində və həmçinin xoşbəxt ailənin -sirləri haqda ona öyüd



---

.Biharül-ənvar, c. ۴۳, səh. ۱۱۱ - ۱۱۲ . [۱]-۱

.ALLAHU ƏKBƏR" SÖYLƏMƏK" . [۲]-۲

.Həmin mənbə, səh. ۲۶۶ . [۳]-۳

nəsihət verdi: "Qızım, sən öz yaxınlarından ayrılıb yad evinə köçürsən. Bundan sonra onlarla birlikdə yaşayacaq və onlarla birgə oturub-duracaqsan. Sözsüz ki, həyat yoldaşınla yaxşı ünsiyyət qurmaq üçün, onun qarşısında təvazökar olmalısan. Ərinin mehriban və qayğıkeş bir şəxs olmasını istəyirsənsə, mənim bu nəsihətlərimə diqqətlə qulaq as: Qənaətcil ol, ərinin bütün göstərişlərinə məsuliyyətlə yanaş və yerinə yetir. Onun yanında özünə yaxşı bəzək-düzək ver ki, qoy sənə baxanda ürəyi sıxılmasın. Həmişə ətirli ol, qoy sənin iyin onun üçün ən gözəl ətir olsun. Yemək vaxtı ona yaxşı qulluq et. Çünki ac adam mütləq həyəcanlı və əsəbi olar. İstirahət etmək istəyərkən ona bunun üçün lazim olan şəraiti yarat. Çünki yuxusuzluqdan da qəzəblənə bilər. O səfərə getdikdə evini, övladlarını, mal-dövlətini mühafizə et. Həyat yoldaşının işlərində ona bacardığın qədər kömək et. Onun sirlərini başqalarına demə, yoxsa hökmən onun qəzəbinə tuş gələcəyini bil. O əsəbi və qəmgin olduğu zaman gülmə. O xoşhal və şad .olduğu zaman isə qəmgin olma

Əgər bu nəsihətlərimə qulaq asıb, doğru şəkildə icra etsən, həyatınız cənnət (olacaq".(١)



---

.əl-Mustətrəf, c. ۲, səh. ۳۲۷ . [۱] -۱

## DÖRDÜNCÜ HİKMƏT.YAXŞI VƏ PİS QADINLAR

### ƏN YAXŞI QADIN

۱. Allahın rəsulu (s) buyurur: "Ümmətimin ən yaxşı qadınları onların ən gözəlləri və ən az mehriyyə tələb edənləridir."(۱)

۲. Allahın rəsulu (s) buyurur: "Dünyanın ən gözəl neməti ləyaqətli qadındır."(۲)

۳. Məhəmməd Peyğəmbər (s) buyurur: "Ən yaxşı qadın utanmadan özünü ərinin ixtiyarına verən qadındır. Əgər qadın əri əsəbləşəndə ona "məndən razı olmayınca səndən əl çəkməyəcəyəm"- desə, deməli o, ən yaxşı qadındır."(۳)

۴. Cabir ibn Abdullah Ənsari deyir: Həzrət Peyğəmbərin (s) hüzurunda əyləşmişdik. Qadınlar haqqında və onların bəzilərinin digərlərinə nisbətən daha üstün olmaları barəsində söhbət edirdik. Allahın



---

۱- [۱]. Biharül-ənvar, c. ۱۰۳, səh. ۲۳۷, hədis ۲۵.

۲- [۲]. Kəzül-ümmal, hədis ۴۴۴۵۱.

۳- [۳]. Müstədrəkül vəsail, c. ۱۴, səh. ۱۶۱.

elçisi (s) buyurdu: "Sizə bu haqda danışınmı?" Səhabələr dedilər: "Bəli". Həzrət Peyğəmbər (s) buyurdu: "Sizin qadınlarınızın ən dəyərlisi övlad dünyaya gətirən, mehriban, iffətli, qohum-əqrəbası yanında hörmət qazanmış və ərinin qarşısında təvazökar və itaətkar olan qadınlardır. Onlar yalnız həyat yoldaşları üçün zinətlənər, başqa kişilərə qarşı etinasız olar, ərinin sözünə baxar, ona tabe olar, xəlvət yerdə (özlərini yalnız ona təslim edərlər".(١)

Həzrət Peyğəmbər (s) buyurur: "Müsəlmanın həyatını gözəlləşdirən ilahi şanslardan .۵ biri də qadındır. Belə ki, əri belə qadına nəzər saldıqda könlünə sevinc və fərəh hissi dolur. Bu qadın həyat yoldaşı yanında olmadıqda onun abır-heysiyyətini qoruyur, (onunla birgə olduqda isə göstərişlərinə tabe olur".(٢)

Allahın rəsulu (s) buyurur: "Mömin, ilahi təqvasından başqa, ləyaqətli qadından daha .۶ (yaxşı bir bəhrə görməmişdir."(٣)

Həzrət Əli (ə) buyurur: "Sizin ən yaxşı qadınlarınız beş xislətə malikdir." O Həzrətdən .٧ (ə) "Bu beş xislət nədir?"-deyə soruşulduqda, İmam (ə) buyurdu: "(Yaşayışda) güzəştə getmək və həyat yoldaşına qarşı çox tələbkar olmamaq, yumşaq xasiyyətli olmaq, ,bağışlamağı bacarmaq, əri əsəbləşdikdə hər hansı bir yolla, onu ürəyini almaq



---

.Müstədrəkül vəsail, c. ١۴, səh. ١۶١ . [١]-١

.Həmin mənbə, səh. ٢٣۵ . [٢]-٢

.Kəzül-ümmal, hədis ۴۴۴١٠ . [٣]-٣

əri yanında olmadığı zaman onun heysiyyətini qorumaq. Bu xüsusiyyətləri özündə toplayan qadın, Haqq tərəfdarıdır. Qoy o, Allah-taalanın rəhmətindən (heç vaxt) məʼyus olmasın!"(۱)

۸. İmam Sadiq (ə) buyurur: "Sizin qadınlarınızın ən üstünü ona bir şey əta olunduğunda təşəkkür edən, bir şeyi qadağan etdikdə isə etiraz etməyən, razılaşan qadındır".(۲)

## ƏN PİS QADIN

۱. Allahın rəsulu (s): "(Dünyada) ən pis şey ləyaqətsiz həyat yoldaşıdır."(۳)

۲. İmam Sadiq (s): "Mömini ən çox məğlub edən düşmən onun ləyaqətsiz qadınıdır."(۴)

۳. Allahın rəsulu (s) buyurur: "Sizin qadınlarınızın ən xeyir-bərəkətsizi... təmizliyə riayət etməyən, inadkar, sözə baxmayan, qohumlarının gözündə əskik, öz gözündə dəyərli, ər qaşısında itaətsiz, digər şəxslər qarşısında itaətkar olan qadınlardır".(۵)

۴. Allahın rəsulu (s) buyurur: "Ən xeyirsiz şey pis qadındır".(۶)



---

۱- [۱]. Həmin mənbə, səh. ۲۳۱.

۲- [۲]. Müstədrəkül-vəsail, c. ۱۴, səh. ۱۶۱.

۳- [۳]. Biharül-ənvar, c.۱۰۳,səh. ۲۴۰ , hədis ۵۲.

۴- [۴]. Mən la yəhzuruhül-fəqih, c.۳, səh. ۳۹۰.

۵- [۵]. Mən la yəhzərühül-fəqih, c. ۴, səh. ۵۸; əl-Məqnə, səh. ۴۵۴; Cameül-əxbar, səh. ۴۲۶; Biharül-ənvar, c. ۷۹, səh. ۱۵۰.

۶- [۶]. Həmin mənbə.

Əbu Dərda rəvayət edir: Bir gün Allahın elçisinə (s) dedim: Filan qadın gündüzlər oruc .۵ tutub, gecələr ibadətlə məşğul olur. Amma insanlarla davranışı və rəftarı pisdir. .Qonşularını da acılayır

(Peyğəmbər (s) buyurdu: "Onda heç bir xeyir görmürəm və cəhənnəm əhlidir".(۱

## !PİS QADINDAN ALLAHA PƏNAH

Məhəmməd Peyğəmbər (s) bəzi minacatlarında belə söyləyərdi: "Allahım! Mənim .۱ göstərişlərimə tabe olmaq yerinə mənə əmr edən övladdan, xeyir yetirmədən məhv olan mal-dövlətdən, axmaqlığı ucbatından məni vaxtından tez qocaldan qadından və (hiyləgər dostdan sənə pənah aparıram".(۲

İmam Sadiq (ə): "Allahın rəsulunun (s) dualarından biri bu idi: "(İlahi!) Qocalıq çağına .۲ (çatmamış məni qocaldan qadından Sənə pənah gətirirəm."(۳

İmam Sadiq (ə): Üç şey insanın həyatını qaraldar: Zalım hökmdar, pis qonşu və acıdil .۳ (qadın.(۴

## PİS QADININ TƏHLÜKƏSİ

(Peyğəmbər (s) buyurur: "Ən pis şey pis qadındır".(۵ .۱

(İmam Əli (ə): "Pis qadınlardan qorxun".(۶ .۲



---

.Həmin mənbə; Qessehaye delneşin, səh. ۳۷ . [۱]-۱

.Mən la yəhzuruhül-fəqih, c.۳, səh. ۳۹۰ . [۲]-۲

.əl-Kafi, c.۵, səh. ۳۱۶ , hədis ۳ . [۳]-۳

.Tuhəfül-üqul, səh. ۳۲۰; Biharül-ənvar, c.۷۸, ۲۳۴ . [۴]-۴

.Həmin mənbə . [۵]-۵

.Biharül-ənvar, c.۱۰۳, səh. ۲۲۴ , hədis ۴ . [۶]-۶

۳. İmam Sadiq (ə) buyurur: "Mömin şəxsin pis arvadı onun ən qatı düşmənidir".(۱)

## NÜMUNƏVİ QADINLAR

۱. Qurani-Kərim: (Ya Peyğəmbər!) Xatırla ki, bir zamanlar mələklər belə demişdilər: "Ya Məryəm, həqiqətən, Allah səni seçmiş, (eyiblərdən) təmizləmiş, (cəmi) aləmlərin (bütün dünyanın) qadınlarından üstün tutmuşdur.(۲)

۲. Qurani-Kərim: Allah iman gətirənlərə isə Fironun zövcəsini (Asiyə bint Məzahimi) misal çəkdi. O zaman o: "Ey Rəbbim! Mənim üçün Öz dərgahında -Cənnətdə bir ev tik. Məni Firondan və onun əməlindən qurtar. Məni zalım qövmdən xilas et!"-demişdi.(۳)

۳. Allahın rəsulu (s) buyurur: "Kim Xədicə kimi ola bilər?! O hər kəsin mənə qarşı olduğu bir vaxtda iman gətirib, mənə himayədarlıq etdi."(۴)

۴. Allahın rəsulu (s) buyurur: "Allah-taala dərgahında dörd seçilmiş qadın var: Məryəm, Asya, Xədicə, Fatimə".(۵)

۵. Allahın rəsulu (s) buyurur: "Behiştin ən üstün xanımları dörd nəfərdir: Xədicə binti Xuvəylid, Fatimə binti Məhəmməd (s), Məryəm



---

۱- [۱]. Biharül-ənvar, c.۱۰۰, səh-۲۴۰.

۲- [۲]. Ali-İmran, ۴۲.

۳- [۳]. Təhrim, ۱۱.

۴- [۴]. Səfinəti-biharül-ənvar c. ۱, səh. ۳۶.

۵- [۵]. Biharül-ənvar, c. ۴۳.

binti İmran və Asiya binti Məzahim".(۱)

۶. Allahın rəsulu(s) buyurur: "Qızımın Fatimə adlandırılmasının səbəbi, Allah-taalanın onu və onu sevənləri oddan (Cəhənnəmdən) uzaq etməsidir."(۲)

۷. İmam Sadiq (ə) buyurur:"Fatimənin Allah-taalanın yanında doqquz adı vardır: Fatimə, Siddiqə, Mübarəkə, Tahirə, Zəkiyyə, Rəziyyə, Mərziyyə, Mühəddisə, Zəhra."(۳)

۸. Ümarə:"İmam Sadiqdən (ə) soruşdum: Fatiməni nə üçün "Zəhra" (parlaq) adlandırıblar?" Buyurdu:"Çünki mehrabda dayanarkən, ulduzlar yerdəkiləri necə nura boyayırsa, o da, səma əhlini eləcə nura qərq edirdi".(۴)

۹. Allahın rəsulu(s) buyurur: "Qızım Fatimə dünya qadınlarının xanımıdır."(۵)

۱۰. Allahın rəsulu (s) buyurur: "Fatimə cənnət qadınlarının xanımıdır."(۶)

۱۱. Allahın rəsulu (s) buyurur: "Qızım Fatimə dünya (yarandıqdan sonuna kimi) bütün xanımların xanımıdır."(۷)

۱۲. Allahın rəsulu (s) Fatiməyə (s) buyurur: "Allah



---

۱- [۱]. əl-Məvaziül-ədədiyyə, səh. ۲۰۱.

۲- [۲]. Əmali-Tusi, səh.۳۰۰.

۳- [۳]. Əmali-Səduq, səh.۴۷۴, hədis ۱۸.

۴- [۴]. Məanil-əxbar, səh. ۶۴, hədis ۱۵.

۵- [۵]. Biharül-ənvar, c. ۴۳, səh.۲۲, hədis ۱۳.

۶- [۶]. Musnədi- Əhməd ibn Hənbəl, c.۳, səh.۸۰.

۷- [۷]. Nurüs-Səqəleyn, c.۱, səh. ۳۳۸, hədis ۱۳۵.

(sənin qəzəbinlə qeyzlənir və sənin sevincinlə şad olur."(١)

İmam Əli (ə) Fatiməni (ə) torpağa tapşırarkən buyurmuşdur: "Salam olsun sənə ey ١٣ Allahın rəsulu! (Bu salam) mənim və kənarında uyuyan və sənə (başqalarından) daha tez çatan qızın tərəfindəndir! Ey Allahın elçisi, qızının qəm-qüssə dolu ayrılığından sonra səbrim qalmadı və gücüm, taqətim tükəndi. Amma sənin böyük kədər yaradan ayrılığın və səni itirmənin hədsiz müsibəti belə bir şəraitdə mənim təsəlli səbəbimdir. Çünki (həyatdan gedərkən) başının mənim sinəmdə olduğunu, ağuşumda can verdiyin və öz əlimlə başını qəbrinin daşı üzərinə qoyduğum anları heç vaxt unutmaram. Biz hamımız Allah tərəfindən gəldik (yaradıldıq) və Ona tərəf qayıdacağıq. Budur (mənə tapşırdığın əmanət) geri qaytarıldı və girov alındı. Amma bundan sonra, Allah-Təalnın mənim üçün sənin yerləşdiyin diyarı seçinədək, (sizdən ayrı düşdüyümə görə) əbədi qəm-qüssəyə batdım, gecələrim oyaq keçəcək. Tezliklə, qızın, səni ümmətinin (əməllərindən) və birlikdə əlbir olub ona etdiyi zülmlərdən və haqqını necə qəsb etmələrindən xəbərdar edəcək. Bütün hadisələri ondan soruş və baş verənlər barəsindəki hər bir şeyi ondan xəbər al. Bu zülmlər baş verərkən sənin dünyadan getməyindən elə də uzun zaman



---

.Kənzül-ümmal, hədis. ۳۷۷۲۵ . [١]-١

keçməmişdi və xatirələrin sağ idi. Salam olsun sizə. Bu bezmək deyil, vidalaşmaq salamıdır! (Hələlik) sizi tərk etsəm belə, bu, bezmək və sizə qarşı istəyimin olmaması mənasına deyil. Əgər qalsam, bu, Allahın səbr əhlinə vəd etdikləri haqqda bəd (gümanda olduğumdan deyil."(١

## MEHRİBAN QADIN TİMSALI

Aişə adlı bir qız Məsəblə evləndi. Müharibə başladıqda, Məsəb cihada getdi. Bir müddətdən keçdikdən sonra geri döndü. Həyat yoldaşı onun gəlişini eşidib, qarşılamağa getdi. Aişə qəhrəman ərini təbrik edib və üst-başındakı toz-torpaqları təmizlədi. Məsəb ona dedi: "Allaha and olsun! Paltarlarımın, paslanmış zirehimin və qanlı silahımın iyi səni incidər, kənara qal. Amma doğrusu, sənin mənə bu qədər ."səmimi davranacağını heç gözləmirdim

Aişə belə cavab verdi: "Allaha and olsun! Sənin iyin mənə müşk-ənbərdən daha (ətirlidir".(٢

## PİS QADIN NÜMUNƏLƏRİ

Qurani-Kərim: "Allah kafirlərə Nuhun övrəti ilə Lutun övrətini məsəl çəkir. Onlar .١ bizim qullarımızdan iki saleh bəndənin kəbini altındaydılar. Onlar ərlərinə xəyanət etdilər və



---

.Nəhcül-bəlağə, xütbə ٢٠٢ . [١]-١

.İslam tarixi dastanlarından, c. ٢, səh. ۶٣ . [٢]-٢

Nuhla Lut) onları Allahdan (əzabından) heç vəchlə qurtara bilmədilər. Onlara,) ("başqaları ilə birlikdə siz ikiniz də cəhənnəmə girin!" deyildi".(١)

Həzrət Məhəmməd (s) buyurmuşdur: "Qadınlarınızın ən pisinin kimlər olduğunu sizə .٢ söyləyimmi? Qohumları və ailəsinin gözündə (bəd xasiyyətinə görə) dəyərsiz, ərinə qarşı təkəbbürlü və qürurlu, qısır, kinli, pis işlərdən çəkinməyən, əri olmadığı yerdə özünü (başqaları görsün deyə) bəzəyən, həyat yoldaşının yanında isə bəzənməyən, ərinin istəklərinə rədd cavabı verən, onun üzürlərini qəbul etməyən və qüsurlarını, (səhvlərini bağışlamayan qadınlardır".(٢)

Əbu Dərda rəvayət edir: Bir gün Allahın elçisinə (s) dedim: Filan qadın gündüzlər oruc .٣ tutub, gecələr ibadətlə məşğul olur. Amma insanlarla davranışı və rəftarı pisdir. .Qonşularını da acılayır

(Peyğəmbər (s) buyurdu: "Onda heç bir xeyir görmürəm və cəhənnəm əhlidir".(٣)

Peyğəmbər (s) buyurur: Allah, kişi görkəmində olan (geyim və formada) qadınlara, .٤ (lənət etsin; Allah, qadın görkəmində olan kişilərə (örtük və geyimdə), lənət etsin.(٤)

Peyğəmbər (s) buyurur: Özlərini kişiyə .٥



---

.Təhrim surəsi, ayə ١٠ . [١] -١
.Biharül-ənvar, c.١٠٠, səh. ٢٣٥ . [٢] -٢
.Qessehaye delneşin, səh. ٣٧ . [٣] -٣
.əl-Kafi, c. ٥, səh. ٥٥٢, hədis. ٤ . [٤] -٤

(oxşadan qadınlar və ya özlərini qadına oxşadan kişilər bizdən deyil.(۱

(Həzrət Əli (ə) buyurur: "Ərinin əmrlərinə uymayan qadın ən pis həyat yoldaşıdır".(۲ .۶

## YAXŞI QADININ MÜKAFATI

İmam Sadiq (ə) buyurur: Allah-taala Davud Peyğəmbərə (ə) vəhy etdi ki, Xəlavənin qızı Ovsun yanına gedib, ona behişt müjdəsi verib, behiştdə onunla birlikdə olacağını .söyləsin

Həzrət Davud (ə) qadının evinə gedib qapısını döydü. Qadın çölə çıxanda Həzrət Davudu (ə) görüb təəccüblə dedi: Nə səbəbə buraya təşrif gətirmisən? Mənim ?haqqımda vəhy nazil olubmu

.Davud (ə) buyurdu: Bəli

?Qadın dedi: Nə haqdadır

.Davud (ə) buyurdu: Tanrı sənin ustün cəhətlərinə görə barəndə vəhy yolladı

Qadın dedi: Yox, bəlkə o mən deyiləm. Ya da ki, adı mənim adıma oxşar başqa bir .qadın haqqındadır. Çünki mən buna layiq deyiləm

.Davud (ə) buyurdu: O qadın sənsən

.O dedi: And olsun Allaha! Özümdə məni buna layiq edə biləcək bir əməl görmürəm

.Həzrət Davud (ə) buyurdu: Mənə bir az öz yaşayışından danış



---

.Kənzül-ümmal, c. ۱۵, səh. ۳۲۴, hədis ۴۱۲۳۷ . [۱]-۱

.Biharül-ənvar, c.۱۰۰, səh. ۲۳۵ . [۲]-۲

Qadın dedi: Mənə gələn hər bir bəlaya, dərdə və müsibətə səbir etdim və indi də səbir edirəm. Hətta bir dəfə də olsa (etiraz edərək) Allahdan onu məndən uzaqlaşdırmasını istəmədim. O, nə zaman istəsə, onu məndən uzaqlaşdırar. Səbir etməyim üçün savab .gözləmədim və daim Allaha şükür etdim

.Davud (ə) buyurdu: Elə buna görə də mənimlə behiştdə bir yerdə olacaqsan

İmam Sadiq (ə) bu rəvayəti nəql edəndən sonra buyurdu: Allah-taala bu dini, yalnız (saleh (səbirli) bəndələri üçün göndərdi.(١

**PİS QADININ CƏZASI**

Həzrət Əbdüləzim Həsəni İmam Cavada (ə) istinadla, o həzrətın ata-babalarının vasitəsilə Həzrət Əlidən (ə) belə rəvayət edir: "Mən və Fatimə (ə) Peyğəmbərin (s) yanına getdik. Allahın eliçisi (s) şiddətlə ağlayırdı. Dedim: "Atam, anam sənə qurban olsun! (Bu qədər) ağlamağın səbəbi nədir?" Buyurdu(s): "Meraca aparıldığım gecə ümmətimin arasında bəzi qadınları gördüm. Bu qadınlara olduqca kəskin əzab-əziyyət verilirdi. Onları bu halda gördükdə, göz yaşlarımı saxlaya bilmədim: Orada başının ön hissəsində bitmiş tüklərindən cəhənnəm divarından asılmış bir qadın gördüm. Şiddətli .əzabın təsirindən sanki beyni qaynayırdı



---

.Bihar, ٧١ - ci cild, səh.٨٩, ١۴-cü cild, səh.٣٩; Mişkatul-ənvar, səh.٢٣ . [١]-١

Sonra) cəhənnəm divarında dilindən asılmış başqa qadın gördüm. Cəhənnəmdəki ən) qaynar və çirkli mayeni onun ağızna və boğazına tökürdülər. (Ardınca) sinəsi cəhənnəm divarına yapışdırılmış və ya orada iki ayağından asılmış qadınlar gördüm. Öz bədəninin ətini yeyən qadın da gördüm. Belə ki, onun əti od içində idi. Əli-ayağı bağlanılmış başqa bir qadın gördüm. Ona çox sayda ilan və əqrəb hücum etmiş, amma əl-ayağı bağlı olduğuna görə qaçıb canını qurtara bilmir və özünü heç bir şəkildə müdafiə etməyə qadir deyildi. Kor, kar və lal qadın da gördüm. Onu alovlar saçan tabuta qoymuşdular. (Atəşin hərarətindən) bədəninin dərisi və əti sanki cüzam xəstəliyinə tutulmuş şəxsin dərisi və əti kimi tikə-tikə olaraq yerə tökülürdü. Üzü və bədəni od tutub yanan bir qadın gördüm. Onu dırnaqları ilə qarnındakıları çıxarıb yeməyə vadar edirdilər. Başı donuz başı, bədəni uzunqulaq bədəni olan bir qadın da gördüm. O, saysız-hesabsız əzablara düçar olmuşdu. İt sifətində olan bir qadın gördüm. Alovlar arxasından daxil olub ağzından çıxırdı. Əzab mələkləri cəhənnəmdəki ."işkəncə alətləri ilə onun başına, bədəninə zərbələr endirirdilər

Həzrət Zəhra (ə) soruşdu: "Mənim eşqim, gözümün nuru, onların bu dünyada nə etdiklərini və nə üçün bu belə əzablara məruz qaldığını mənə söylə". Həzrət Peyğəmbər (s) buyurdu: "Cəhənnəm divarında saçından asılan qadın başının qabağının tükünü naməhrəmlərdən gizlətməmişdir. Dilindən

asılan qadının əri onun acıdilliliyindən narahat olmuşdur. Cəhənnəm divarında sinəsindən asılmış qadın isə öz ərinin cinsi tələblərini təmin etməmişdir. Orada iki ayağından asılmış qadın ərinin icazəsi olmadan istədiyi yerlərə gedirdi. Öz bədəninin ətini gəmirən və ətindən od-alov yağan qadın isə həyat yoldaşından başqası üçün bəzənib-düzənir və öz zinətlərini ona məhrəm sayılmayan kişilərə göstərirdi. Əli-ayağı möhkəm bağlanıb ilanların və əqrəblərin hücumuna məruz qalan qadın da namazına əhəmiyyət verməz, bədənini nəcasət, cənabət və heyzdən təmizləyib qüsl verməzdi. Kor, kar və lal qadın ərindən qeyrisi ilə cinsi əlaqədə olub (zina edib), övlad doğurmuş, lakin onu öz həyat yoldaşının boynuna atmışdı. Od-alov saçan qayçı ilə əti doğranan qadın bədənini yad kişilərə təslim etmişdi. Üzü və bədəni alovlar içində olan və dırnaqları ilə qarnındakıları çıxarıb yeməyə məcbur edilən qadınlar, fahişələrə vasitə olar və kişilərin cinsi tələblərini doyurmaq üçün onlara şərait yaradarmışlar. Başı donuz, bədəni uzunqulaq şəklində olan və saysız-hesabsız əzaba düçar olan qadınlar isə ara qarışdırar və (insanlar arasında) yalan söyləyərmişlər. İt sifətli, alovların arxasından daxil olub ağzından xaric olduğu qadın da eyş-işrət (haram əyləncə) (məclislərində müğənnilik edər (ğına oxuyar) və hər kəsin paxıllığını çəkərdi".(١)



---

.Biharül-ənvar, c.١٠٠, səh. ٢٤٥ . [١]-١

## QADININ ƏN YAXŞI XÜSUSİYYƏTLƏRİ

Həzrət Əli (ə) buyurur: "Qadının evdəki ən bəyənilmiş, gözəl xüsusiyyətləri, kişinin sahib olduğu ən pis xüsusiyyətlərdir: Qürur (təkəbbür), qorxu və xəsislik. Qadın təkəbbürlü, qürurlu olarsa, özünü ərindən başqasına təslim etməz. Xəsis olarsa, ərinin malını yaxşı qoruyar, qorxaq olarsa gələcəkdə baş verə biləcək hər bir xoşagəlməz hadisədən qorxaraq, ehtiyatlı davranar və özünü qorumaq fikrinə düşər. Bununla da (pis niyyətli hiyləgər şəxslərin toruna düşməz.(١)

## FƏRQLİ QADINLAR

Loğman (ə) oğluna dedi: "Oğlum! Qadınlar dörd dəstəyə bölünürlər; iki dəstəsi saleh :(yaxşı), iki dəstəsi isə Allahın rəhmətindən uzaqlaşdırılmışlardırlar

İki saleh dəstədən birinci növü, öz tayfasının içində böyük və hörmətli, daxilən isə, sakit bir qadındır. Ona bir şey əta olunanda şükür edir, çətinlikdə səbirlidir. Az şey, .onun əlində çoxdur. Evində də (çöldəki kimi) salehdir

Saleh dəstədən ikincisi, çox mehriban və dünyaya uşaq gətirəndir. Həmişə yoldaşı ilə gözəl rəftar edir. O, mehriban ana kimi, tayfa başçılarına qayğı, yaşlılara isə ürək yandırır. Başqa qadından belə olsa, ərinin övladını çox istəyir.Yaxşı xüsusiyyətlərə ,malik, ərinin razılığını cəlb edən, özünü, ailəsini



---

.Biharül-ənvar, c. ١٠٠, səh. ٢٣٨ . [١]-١

malını və övladını islah etməyi bacarandır. O, bir qırmızı qızıl kimidir. Bəxtəvər o kişinin başına ki, belə bir qadın qisməti olmuşdur. Ərinin yanında ona köməkçi, ondan uzaq düşərkən isə onun (abır və qeyrətinin) qoruyucusudur.

Amma iki məlun dəstə qadınlardan birinci növü, daxilən təkəbbürlü, tayfa içində isə, sakitdir. Ona bir şey əta olunsa da, olunmasa da, qəzəblənər. Bu səbəbdən, əri onun əlində girinc qalmışdır, qonşuları təngə gəlmişdir. O, şir kimidir ki, yaxınına getsən, səni yeyəcək, qaçmaq istəsən, öldürəcək.

İkinci növ məlun qadın isə, özü ərinin kənarında, meyli isə, qonşuların yanında olan qadındır. Tez qəzəblənib, təz ağlayandır. Ərinin yanında olan zaman, ona faydası dəymir, yanında olmadığı vaxtda da abrını aparır. Şoran yer kimidir ki, əgər sulasan, su yuxarıda, torpaq aşağıda qalacaq (su yerin dibinə çökməyəcək). Başlı-başına buraxsan isə, susayacaq. Əgər ondan övladın olsa, bəhrəsini görməyəcəksən".(١)



---

١-[١]. əl-İxtisas, səh. ٣٣٩, Biharül-ənvar, c. ١٣, səh. ٤٢٩, hədis, ٢٣.

## BEŞİNCİ HİKMƏT.QADININ ƏRİNİN QARŞISINDA VƏZİFƏLƏRİ

### ƏRƏ HÖRMƏT

ƏRƏ HÖRMƏT

١. Məhəmməd Peyğəmbər (s): "Əgər bir kəsə digərinin qarşısında səcdəyə getmək əmri verməli olsaydım, mütləq qadına öz əri qarşısında səcdə etməyə əmr edərdim."(١)

٢. Məhəmməd Peyğəmbər (s): "Qiyamət günü ərinə qəzəblə baxan qadının gözünə cəhənnəm atəşinin külü ilə sürmə çəkəcəklər. "(٢)

٣. Məhəmməd Peyğəmbər (s): "Hamilə qadın həyat yoldaşının pis sözləri qarşısında səbirli olsa və ona qarşılıq verməsə, Allah-taala hər bir sözün müqabilində ona oruc tutan və cihad edən şəxsin savabını əta edər."(٣)

۴. Məhəmməd Peyğəmbər (s): "Ərinin bəd rəftarları qarşısında səbr edən qadına Allah-taala Fironun



---

١- [١]. əl-Kafi, c.۵, səh. ۵٠٨ , hədis ۶.

٢- [٢]. Müstədrəkül vəsail, c. ٢, səh. ۵۴٨.

٣- [٣]. Müstədrəkül vəsail, c. ١۴, səh. ٢۴۵.

xanımı Asiyanın savabı qədər savab verər."(۱)

۵. Məhəmməd Peyğəmbər (s): "Kişi ailənin rəhbəridir. Hər bir rəhbərin tabeçiliyində olan şəxslər onun qarşısında qarşısında məsuliyyət daşıyır. Qadın da ərinin malını qorumalıdır. Çünki o da bu işdə məsuliyyət daşıyır."(۲)

۶. Məhəmməd Peyğəmbər (s): Allahın rəsulu (s) buyurur: "And olsun məni peyğəmbərliyə seçən Allaha! Əgər qadın ərinin icazəsi olmadan müstəhəb oruc tutsa, günahkardır. Ancaq qəza və ya nəzir orucu tuta bilər."(۳)

۷. Bir gün Allahın rəsulu (s) ənsardan olan bir şəxsin həyatinə daxil olduqda, orada olan qoyun həzrətin qarşısında səcdəyə düşdü. Əbu Bəkr dedi: Biz qoyundan daha yaxşı səcdə edə bilərik. (Bizim səcdə etməyimiz daha mənalı və dəyərli olar.) Allahın elçisi (s) buyurdu: Bəndə bəndənin qarşısında səcdə etməməlidir. Doğrusu, əgər buna icazə verilsəydi, qadına həyat yoldaşının qarşısında səcdə etməyi əmr edərdim.(۴)

### ƏRƏ İTAƏT

۱. Qurani-Kərim: "Allah bəzilərini (kişiləri ruh və cismani qüvvə baxımından) digər bəzilərindən (qadınlardan) üstün etdiyi üçün kişilər qadınların ixtiyar sahibidir (və buna görə də cəmiyyətin



---

۱- [۱]. Biharül-ənvar, c.۱۰۳, səh. ۲۴ , hədis ۳۰.
۲- [۲]. Müstədrəkül-vəsail, c. ۱۴, səh. ۲۴۸.
۳- [۳]. Müstədrəkül-vəsail, c. ۲, səh. ۵۴۸.
۴- [۴]. Müstədrəkül-vəsail, c. ۱۴, səh. ۲۴۶.

işlərinin peyğəmbərlik və imamət məqamı ilə, eləcə də məsum tərəfindən təyinatla idarə olunmasını kişilərə məxsus etmişdir). Həmçinin kişilər mallarından (arvadlarına) xərclədikləri üçün öz arvadlarının ixtiyar sahibidirlər. Buna görə də ləyaqətli qadınlar itaətkardırlar və Allahın (onların hüquqlarını) qoruması müqabilində onlar da (ərləri yanlarında olmayanda onların hüquqlarını, sirlərini, mallarını) qoruyurlar..."(۱)

۲. Məhəmməd Peyğəmbər (s) buyurur: "Cəhənnəm atəşi üç şəxsi yandırmaz: Ərinə qarşı itaətkar olan qadını; həyat yoldaşının çətin vaxtlarında buna səbir edən qadını; ata-anasına xeyirxahlıq göstərən övladı."(۲)

۳. Allahın rəsulu (s) buyurur: "Həyat yoldaşından icazəsiz evdən çıxan qadın onu razı salana və evə dönənə qədər Allah-taalanın qəzəbinə düçar olar."(۳)

۴. Məhəmməd Peyğəmbər (s) buyurur: "Məni peyğəmbərlıyə seçən Allaha and olsun! Əgər qadın ərinin məntiqli sözünü rədd etsə, qiyamət günü onu dilindən asar və dilini qızmar, odlu mıxlarla tavana tikərlər."(۴)

۵. Məhəmməd Peyğəmbər (s) buyurur: "And olsun məni peyğəmbər seçən Allaha! Qadının ərinin



---

۱-[۱]. Nisa, ۳۴.

۲-[۲]. Nəsayih, səh. ۱۱۱.

۳-[۳]. Müstədrəkül-vəsail, c. ۱۴, səh. ۲۳۷.

۴-[۴]. Müstədrəkül-vəsail, c. ۱۴, səh. ۲۳۸.

evindən icazəsiz sədəqə verməsi doğru iş deyil. Əgər belə etsə onun savabı ərinə çatar, qadının bundan nəsibi isə bədbəxtçilik olar."(۱)

۶. Allahın rəsulu (s) buyurur: Hər kimin qadını ərini incitsə, Allah-taala o qadının namazını və heç bir yaxşı əməlini qəbul etməz. İstərsə, bütün ömrü boyu oruc tutsun (yenə də, ibadəti Tanrı dərgahında qəbul olunmaz). Amma ərinə yardım etsə, onu sevindirsə... (ibadəti qəbul olar.) Kişi də, öz həyat yoldaşına əziyyət versə və ona zülm etsə, qadın üçün zikr olunan eyni günah və əzab onun üçün də var.(۲)

۷. Allahın rəsulu (s) buyurur: Allah-taala, ərini dili ilə narahat edən qadının heç bir (sədəqə verdiyi) malı, nəziri və yaxşı əməli, əri ondan razı olmadığı müdddət, qəbul etməz. İstər gündüzlər oruc tutub, gecələr ibadətlə məşğul olsun, qul azad etsin, cins atlarıı Allah yolunda (döyüşçülərə yollasın), yenə də, (cəhənnəm) oduna atılacaq. Qadınına zülm edən kişiyə də aiddir.(۳)

۸. Allahın rəsulu (s) buyurur: Qadın ərini incitdikdə, ərinin behiştdəki gələcək həyat yoldaşları olan hurilər belə deyərlər: Allah səni öldürsün! Onu incitmə. O, sənin qonağındır və tezliklə səni tərk edib, bizim yanımıza gələcəklər.(۴)

۹. Allahın rəsulu (s) buyurur: "Ərini narahat edən



---

۱- [۱]. Kənzül-ümmal, c. ۱۶, səh. ۴۸.

۲- [۲]. Səvabül-əmal, səh. ۳۳۵, Elamüd-din, səh. ۴۱۴.

۳- [۳]. Mən la yəhzərühül-fəqih, c. ۴, səh, ۱۴, Əmali-Səduq, səh. ۵۱۵.

۴- [۴]. Sünəni-Tirmizi, c. ۳, səh. ۴۷۷, Sünəni-ibn Macə, c. ۱, səh. ۶۴۹.

(qadına vay olsun və xoşbəxt qadın odur ki, əri ondan razı qalsın."(١)

İmam Sadiq (ə) buyurur: "Lənətlənmişdir, məlundur, öz ərini incidən və onu qəmgin .١٠ edən qadın. Xoşbəxtdir, xoşbəxtdir ərinə ehtiram qoyan, əziyyət verməyən və hər bir (halda ona itaət edən qadın."(٢)

İmam Sadiq (ə) buyurur: "Qadının bədbəxtliyi və müsibəti, ... ərinə qarşı . ١١ (itaətsizliyidir."(٣)

## ƏRƏ XİDMƏT

Allahın rəsulu (s) buyurur: "Qadın ərinə yeddi gün xidmət etdikdə, Allah-taala . ١ cəhənnəmin yeddi qapısını onun üzünə bağlayar və cənnətin səkkiz qapısını onun .üzünə açar ki, istədiyi qapıdan oraya daxil olsun

Sonra buyurdu: "Öz ərinə bir qurtum su içirdən hər bir qadının bu əməli ona bir il (gündüzləri oruc tutmaq və gecələri ibadətlə keçirməkdən daha yaxşıdır."(۴)

Allahın rəsulu (s) buyurur: "Qadının evində bir saat xidmət etməyi, min il ibadətdən, .٢ min həcc və min ümrə ziyarətindən, min kölə azad etməkdən və daha üstün və daha (dəyərlidir".(۵)

Allahın rəsulu (s) buyurur: Allah-taala ərinə həcc, cihad və elm öyrənməkdə kömək .٣ ,edən hər qadına



---

.Üyuni-əxbarir-Rza, c. ٢, səh. ١١; Biharül-ənvar, c.١٠٣, səh. ٢۴۶ . [١]-١

.Kənzül-fəvaid, c.١. səh. ١۵٠, Biharül-ənvar, c. ٧۶. səh. ٣۵۴ . [٢]-٢

.Məaniyül-əxbar,səh. ١۵٢, hədis١ . [٣]-٣

.İrşadül-qülub, səh. ١٧۵ . [۴]-۴

.Camiüs-səadət, c.٢, səh.١۴٣ . [۵]-۵

(Əyyubun (ə) həyat yoldaşına verilən savabı verər.(۱)

Allahın rəsulu (s) buyurur: Allah-taala, ərinə yeddi gün kömək edən hər qadının .۴ üzünə, cəhənnəmin yeddi qapısını bağlayar və behiştin yeddi qapısını açar ki, istədiyi (qapıdan oraya daxil olsun.(۲)

Həzrət Peyğəmbərin (s) zamanında, Abdullah ibn Məsud adlı səhabənin Zeynəb .۵ Səqəfiyyə adında bir həyat yoldaşı var idi. Onların bir neçə övladı olmuşdu. Lakin dolanışıqları çox çətin idi. Bir gün Zeynəb ərinə kömək etməyi qərara alır. O, dini vəzifələrini yerinə yetirməklə birgə işləyib pul qazanır və ailəsinin dolanışığına yardım edirdi. Hətta digər yoxsullara da əl tuturdu. O, bir gün ərinə dedi: "Görəsən Allah-"?taalanın dərgahında bu əməlimə görə savab qazanırammı

"!Abdullah dedi: "Get, Allahın rəsulundan (s) soruş

Zeynəb Həzrət Peyğəmbərin (s) hüzuruna gəldi. Başqa bir qadın da eyni sualı soruşmaq üçün orada idi. Onlar Bilal Həbəşini bu suala cavab almaq üçün Allahın rəsulunun yanına göndərdilər. Bilal Həzrət Peyğəmbərin (s) yanına girib geri döndü və :dedi: "Peyğəmbər (s) sizin əməlinizin iki savaba malik olduğunu sölədi

.a) Allah yolunda sədəqə verməyin savabı

,b) Ailənizə kömək etməyin savabı. Üstəlik



---

.Məkarimül-əxlaq, c.۱, səh. ۴۳۹ . [۱]-۱

.İrşadül-qülub, səh. ۱۷۵; Əvaliyül-lai, c. ۱, səh. ۲۷۰; Vəsailüş-şiə, c. ۱۴, səh. ۱۲۳ . [۲]-۲

(bunun özü də sileyi-rəhm sayılır".(١)

Müsnədi-ibn Hənbəl": Həsin ibn Məhsən rəvayət edir: Xalası bir iş üçün" .۶ Peyğəmbərin (s) hüzuruna getdi. İşi qurtardıqdan sonra Allahın rəsulu (s) ondan "?soruşdu: "Ərin varmı

Cavab verdi: Bəliş

"?Onunla necə davranırsan" _

.Qüdrətim çatdığı qədər, onun hər istəyini yerinə yetirirəm _

Onula necə rəftar etməyin barəsində ehtiyatlı ol, çünki o, sənin həm behiştin və" _ həm cəhənnəmindir (Onunla yaxşı davransan, behişt; pis rəftar etsən cəhənnəm əhli (olarsan)".(٢)

İmam Sadiq (ə) buyurur: "Qadın ərinə bir qurtum su verməsi bir ildən çox ibadətin .٧ (gündüzlər oruc tutub gecələr namaz qılmağın) savabına bərabərdir. Əgər qadın ərinə su versə, Allah-taala behiştdə ona bir şəhər inşa edər və onun altmış günahından (keçər."(٣)

İmam Sadiq (ə) buyurur: "Allah-taala yeddi gün həyat yoldaşına xidmət edən qadının .٨ (üzünə cəhənnəmin bütün qapılarını bağlayıb, behiştin bütün qapılarını açar."(۴)



---

.Hilyətül-övliya, c. ٢, səh. ۶٩-٧٠ . [١]-١

Müsnədi-ibn Hənbəl, c. ٧, səh. ٢١; əs-Sünənül-kübra, c. ۵, səh. ٣١١; Kənzül- . [٢] -٢ .ümmal, c. ١۶, səh. ٣٣٧

.Vəsailüş-şiə, c. ١۴, səh. ١٢٣ . [٣]-٣

.Rahe səadət, səh. ١۵ . [۴]-۴

İmam Sadiq (ə) buyurur: "Ümmü Sələmə Allahın elçisindən (s) qadınların öz ərlərinə .٩ xidmət etməsinin fəziləti haqqında soruşduqda, o Həzrət (s) buyurdu: "Qadın öz ərinin evini səliqəyə salmaq məqsədilə nəyisə yerbəyer etdikdə, Allah-taala ona Öz (mərhəmət) nəzərini yetirər və Allah-taala (rəhmət) nəzəri ilə baxdığı heç bəndəyə əzab verməz."(١)

## ƏRİN PİS ƏXLAQINA DÖZMƏK

Allahın rəsulu (s) buyurur: Qadınların üç dəstəsinin üzərindən qəbir əzabı götürülər .١ və Fatimə binti Məhəmmədlə (s) birlikdə məhşur olarlar: Ərinin qeyrəti (qısqanclığı) qarşısında səbirli olan qadın, ərinin bədəxlaqlığı müqabilində dözümlü olan qadın, mehriyyəsini ərinə bağışlayan qadın. Allah-taala belə qadınların hər birinə, min şəhidin savabını bəxş edər və bir ilin ibadətinin savabını yazar.(٢)

Allahın rəsulu (s) buyurur: Ərinin bəd rəftarları qarşısında səbr edən qadına Allah- .٢ taala Fironun xanımı Asiyanın savabı qədər savab verər.(٣)

Allahın rəsulu (s) buyurur: Qadın əri ilə həm zərərdə (bəd gündə) və həm də, xeyirdə .٣ (xoş gündə), çətinlik və asayişdə birlikdə olmalıdır. Necə ki, dərdlərə düçar olmuş Əyyubun həyat yoldaşı, səbirli oldu. On səkkiz il ona səbirlə xidmət etdi. Yük



---

[١]-١ .Biharül-ənvar, c.١٠٣, səh. ٢۵١, hədis ۴٩.
[٢]-٢ .İrşadül-qülub, səh. ١٧۵.
[٣]-٣ .Məkarimül-əxlaq, c. ١, səh. ۴۶٢; Biharül-ənvar, c. ١٠٣, səh. ٢۴٧.

daşıyanlar kimi onu hər gün kürəyində daşıdı. Dəyirmançılarla birgə dən üyüdürdü. Paltar yuyanlarla birgə paltar yuyardı. Ona bir tikə çörək gətirər və Əyyub (ə) onu yeyib, Allaha şükür edərdi. Həyat toldaşı onu bir parçaya bükər və kürəyində daşıyardı. Bütün bunları xeyirxahlıq üçün və Allaha xatir, Ona yaxınlaşmaq məqsədilə əncam verərdi.(۱)

۴. Məhəmməd Peyğəmbər (s) buyurur: "Əri ilə küsulu olan qadın hətta günahsız olsa da belə, qiyamət günü Firon, Haman və Qarunla birgə cəhənnəmin ən pis təbəqəsində yerləşəcək. Amma tövbə edib, ərinin yanına qayıtsa bağışlanar."(۲)

۵. İmam Əli (ə) buyurur: Allah-taala cihadı kişilərə və qadınlara vacib etdi. Kişinin cihadı malını və canını Allah yolunda öldürülənə qədər fəda etməkdir. Qadının cihadı isə ərinin əzab-əziyyətləri və qeyrəti (qısqanclığı) qarşısında dözümlü davranmasıdır.(۳)

## ƏRİ RAZI SALMAQ

۱. Allahın rəsulu (s) buyurur: "Ərini narahat edən qadına vay olsun və xoşbəxt qadın odur ki, əri ondan razı qalsın."(۴)

۲. Məhəmməd Peyğəmbər (s) buyurur: "Ərinin cinsi istəklərinə razılıq verməyən qadının bütün



---

۱- [۱]. Müstədrəkül-vəsail, c. ۱۴, səh. ۲۴۲.

۲- [۲]. Vəsailüş-şiə, c. ۱۴, səh. ۱۲۳.

۳- [۳]. əl-Kafi, c. ۵, səh. ۹; Təhzibül-əhkam, c. ۶, səh. ۱۲۶; Vəsailüş-şiə, c. ۳, səh. ۴۳۹.

۴- [۴]. Biharül-ənvar, c.۱۰۳, səh. ۲۴۶, hədis ۲۴.

(yaxşı əmllərinin savabı, ilan dərisindən ayrıldığı kimi onun əməl dəftərindən ayrılar."(١)

٣. İmam Baqir (ə) buyurur: "Qadın üçün heç bir şəfaət ərinin razılığı qədər faydalı və mənfəətli deyildir."(٢)

٤. İmam Sadiq (ə) buyurur: "Lənətlənmişdir, məlundur, öz ərini incidən və onu qəmgin edən qadın. Xoşbəxtdir, xoşbəxtdir ərinə ehtiram qoyan, əziyyət verməyən və hər bir halda ona itaət edən qadın."(٣)

## ÜSYAN ETMƏMƏK

١. Məhəmməd Peyğəmbər (s) buyurur: "Allah-taala həyat yoldaşının saçını yolan və ya paltarını cıran qadının əllərini cəhənnəm odundan olan mıxlar ilə mıxlayar."(٤)

٢. Allahın rəsulu (s) buyurur: Hər kimin həyat yoldaşı, onunla yola getməsə, Allahın ərinə verdiyi ruziyə qane olmasa (üsyan etsə) və ona çətinliklər yaratsa, Allah-taala onu oddan saxlaya bilən heç bir yaxşı əməlini qəbul etməz. O, belə davrandıqca, Allah ona qəzəblənər.(٥)

٣. Məhəmməd Peyğəmbər (s): "Üç qrup qadın cəhənnəm əzabı görməz və qiyamət günü Fatimeyi-



---

١-[١]. Ləalil-əxbar, c. ٣, səh. ٢٨٦.

٢-[٢]. Səfinətül-bihar, c. ١, səh. ٥٦١.

٣-[٣]. Biharül-ənvar, c.١٠٣, səh. ٢٥٣, hədis ٥٥.

٤-[٤]. Müstədrəkül-vəsail, c. ١٤, səh. ٢٣٨.

٥-[٥]. Səvabül-əmal, səh. ٣٣٩; Elamüd-din, səh. ٤١٩; Biharül-ənvar, c. ٧٦, səh. ٣٦٧.

Zəhra (s) ilə birlikdə olar: Həyat yoldaşının çətinliklərinə dözən səbirli qadınlar; ərinin pis rəftarına qatlanan qadınlar; mehriyyəsini ərinə bağışlayan qadınlar".(١)

٤. Allahın rəsulu (s) buyurur: "Səbəbsiz yerə ərindən boşanmaq istəyən qadına behiştin iyi haramdır. Əri ondan razı olan qadın isə cənnət əhlidir."(٢)

٥. İmam Baqir (ə): "Qadınların qısqanclığı onların paxıllığından sayılır. Paxıllığın mənşəyi küfrdür. Qadınlar qeyrət və qısqanclıq zamanı qəzəblənərlər. Qəzəbləndikdə isə küfrə doğru meyl edərlər, yalnız imanlı qadınlardan səbir edərlər."(٣)

٦. İmam Sadiq (ə) buyurur: "Ərinə "mən səndən heç vaxt xeyir görməmişəm"-deyən qadın bütün yaxşı əməllərinin savabından məhrum olar."(٤)

## NAŞÜKÜRLÜK ETMƏMƏK

١. Allahın rəsulu (s) buyurur: Allah-taala ərinə ehtiyaclı olduğu halda, ona təşəkkür etməyən qadına tərəf baxmaz belə.(٥)

٢. Allahın rəsulu (s) buyurur: Allah-taala, qiyamət günü, həyat yoldaşına ehtiyacı olduğu halda ona



---

١-[١]. "əl-Məvaizül-ədədiyyə", səh. ١٤٦.

٢-[٢]. Rahe səadət, səh. ١٥.

٣-[٣]. əl-Kafi, c. ٥, səh. ٥٠٥, hədis ٤.

٤-[٤]. Vəsailüş-şiə, c. ١٤, səh. ١٦٢.

٥-[٥]. əs-Sünənül-kübra, c. ٥, səh. ٣٥٤; əl-Müstədrəkü-ələs-Səhiheyn, c. ٤, səh.١٩٣; Müsnədi-Bərraz, c. ٦, səh. ٣٤٠.

(təşəkkür etməyən qadına nəzər salmaz.(١

Əsma Ənsari rəvayət edir: Bir gün, Allahın rəsulu (s) məscidin yanından keçərkən .٣ qadınların birlikdə əyləşdiyini gördü. Əli ilə onlara salam verib, buyurdu: "Sizə nemət verən şəxslərə naşükürlük etməkdən çəkinin! Sizə nemət verən şəxslərə naşükürlük "!etməkdən çəkinin

Onlardan biri dedi: Ey Allahın rəsulu! Allaha pənah aparıram. Ey Allahın elçisi! Allaha .qarşı naşükürlük etməkdən, Ona pənah aparıram

Buyurdu: "Bəli. Szilərdən bəzisi uzun müddət evdə ərsiz qalır. Sonra Allah-taala ona ər qismət edir. Ona övlad və göz nurunu ruzi verir. Bununla belə (Allahın ona əta etdiyi bütün bu nemətlərə baxmayaraq), əsəbləşdiyi zaman Allaha and içir ki, ərindən bir saat da olsun xeyir görməyib. Bu özü də, Allahın nemətlərinə və nümət verənlərinə (qarşı naşükürlükdür."(٢

## QADIN ƏRİNİ XƏRCƏ SALMAMALI

Həzrət Məhəmməd (s) buyurur: "Ən xeyir-bərəkətli qadın ərini daha az xərcə salan .١ (qadındır".(٣

Allahın rəsulu (s) buyurur: Allah-taala ailə xərclərində ərinə çətinlik yaradan və onu .٢ ,qüdrəti çatmayan işlərə məcbur edən qadının tövbəsini



---

.əl-Müsənnəf, Əbdür-rəzzaq, c. ٧, səh. ۴٨٧; Kənzül-ümmal, c. ١۶, səh. ۵۵٨ . [١] -١
.Müsnədi-ibn Hənbəl, c. ١٠, səh.۴۴٠; Adabül-müfrəd, səh. ٣٠٧ . [٢] -٢
.Həmin mənbə, ٧٠ . [٣] -٣

sədəqəsini qəbul etməz. Yalnız tövbə edib, doğru yola dönsə və ərinin gücü çatdığı (miqdarda ondan (xərclik) tələb etsə, bağışlanar.(١)

٣. İmam Sadiq (ə) buyurur: "Sizin qadınlarınızın ən dəyərlisi gözəl ətirli olan, yaxşı bişirməyi bacaran, lazımsız, qeyri-zəruri və artıq xərcə səbəb olmayan, yerli-yerində qənaət etməyi bacaran qadındır. Belə bir qadın ilahi əmrlərinin icraçısıdır. Onun (bu (dünyada və axirətdə) məyus və peşman olmasına heç bir səbəb yoxdur".(٢)

## QADIN ƏRİ ÜÇÜN BƏZƏNMƏLİ

١. Allahın rəsulu (s) kişilərə buyurur: "Dırnaqlarınızı tutun." Qadınlara isə buyurur: ("Dırnaqlarınızı uzadın. Çünki bu sizə daha gözəl yaraşır.(٣)

٢. İmam Baqir (ə) buyurur: Qadına bəzəksiz gəzmək yaraşmır, bu ona layiq olmayan (hərəkətdir. Ən azı boyunbağı taxmalıdır.(٤)

## QADININ CİHADI

١. (Allahın rəsulu (s): Qadının cihadı əri ilə xoş rəftarlı və ona tabe olmasıdır.(٥)

٢. Qadınlar Məhəmməd Peyğəmbərə (s) beyət



---

١- [١]. Məkarimül-əxlaq, c. ١, səh. ۴۴١.
٢- [٢]. İzdivac dər İslam, səh. ۶١.
٣- [٣]. əl-Kafi, c.۶, səh.۴۹١, hədis١۵.
۴- [۴]. əl-Kafi, c. ۵, səh. ۵٠۹, hədis ٢.
۵- [۵]. Nəhcül-bəlağə, ٣۶٧.

etdiyi zaman(۱) onlardan biri soruşdu: "Allah-taala cihadı kişilərə vacib buyurub. Əgər onlar döyüşdə ölsələr, Allah yanında şəhidlik məqamına yüksəlmişlər, yaralandıqda isə Tanrı dərgahında böyük əcr və mükafatlar onları gözləyir. Lakin biz, həyat yoldaşları müharibəyə gedən qadınlar evdə əyləşib ərlərimizin mal-dövlətlərini mühafizə edirik, övladlarımızın tərbiyəsi ilə ilgilənirik. Biz də öz mücahid ərlərimizlə onların xeyir "?əməllərində şərikikmi

Həzrət (s) buyurdu: "Ey qadın, diqqətlə məni dinlə və başqa qadınlara da de! Kişilərlə mehriban davranıb, övladlarınızın qayğısına qalmağınız, ev işləri ilə məşğul olub, onu mühafizə etməyiniz Allah yolunda cihada qalxan döyüşçülərin qazandığı savablara (bərabərdir".(۲)

Yəzid Ənsarinin qızı Əsma, qadınların nümayəndəsi kimi Allahın rəsulunun (s) yanına .۳ gələrək, belə söylədi: Mən və atam-anam sənə fəda olsun! Mən və bütün qadınlar səmimi qəlbdən inanırıq ki, sən Allah-taala tərəfindən bütün kişi və qadınlara peyğəmbər seçilmisən. Amma sanki biz evlərdə dustağıq və çoxsaylı üstün fəzilətlərdən məhrum qalmışıq. Biz evlərdə oturub, kişilərin istəklərini təmin edir, onlar üçün övladlar böyüdürük. Kişilər isə bizdən daha üstün fəzilətlərə



---

.Qur’anda «Mumtəhinə» surəsinin ۱۱-ci ayəsində bəhs olunub . [۱]-۱

.İstiab, c. ۴, səh. ۲۳۳; Xəyratül- hisan, c. ۱, səh. ۲۷ . [۲]-۲

malikdir. Belə ki, onlar daim cümə və camaat namazlarında olur, xəstələri yoluxlur, dəfn mərasimlərinə iştirak edir, həcc ziyarətinə gedir, ancaq biz evdə oturub, bütün bunlardan məhrum qalmışıq. Kişilər döyüşə gedərkən onların mal-mülkünü mühafizə edən, paltarlarını toxuyan, övladlarına tərbiyə verən bizlərik. Belə olan halda bizim ?fəzilət və mənfəətimiz nədir

Allahın rəsulu (s) ətrafdakı insanlara sarı dönüb buyurdu: "İndiyə qədər hər hansı bir qadının öz dini müşkülü haqda belə gözəl sual verdiyini eşitmişdinizmi?" Oradakılar "Xeyr" -deyə cavab verdilər. Allahın rəsulu (s) üzünü həmin qadına çevirib buyurdu: "Səni nümayəndə kimi göndərən bütün qadınlara de ki; ərə yaxşı qulluq etmək, onun istəkləri qarşısıda itaətkar olmaq, razılığını cəlb etmək kişinin qazqndığı bütün fəzilətlərə bərabərdir". Bunu eşidən qadın çox razı qaldı, sevinc və fərəhlə "La ilahə (illəllah" -deyə-deyə, oranı tərk etdi.(١)

۴. Allahın rəsulu (s) buyurur: "Qadın hamilə olduğu andan və övladı süddən kəsilənə qədər olan müddətdə, kafirlərlə vuruşan mücahid kimidir. Əgər bu müddətdə vəfat (etsə, ona şəhid savabı verilər".(٢)

۵. Məhəmməd peyğəmbər (s) buyurur: "Qadın hamilə olandan uşağını dünyaya gətirənədək Allah-taala yanında cihad edən şəxsin savabı qədər



---

١-[١]. Mizanül-hikmə, c. ٩, səh. ٩۶.
٢-[٢]. Müstədrəkül-vəsail, c. ١۴, səh. ١۶١.

(savaba malikdir. Əgər bu müddətdə dünyadan köçsə, şəhid sayılır".(١

Bir kişi Peyğəmbərin (s) hüzuruna gəlib, buyurdu: Mənim bir həyat yoldaşım var ki, .۶ hər evə gəldiyimdə, məni qarşılayar. Hər evdən çıxdığımda məni ötürər. Məni qəmgin gördüyü zaman, soruşar: Nə üçün kədərlisən? Ruzi-bərəkət üçün qəmlənirsənsə, onu səndən başqası (Allah-taala) əta etməyi öhdəsinə alıb. Axirətin üçün narahatsansa, (.Allah qəmini artıq etsin. (Çünki axirəti fikirləşib, kədərlənməyə dəyər

Allahın elçisi (s) buyurdu: "Allah-taalanın xidmətçiləri (vəfalı qulları) vardır. Bu qadın da, (onlardan biridir. Onun üçün şəhidin savbının yarısı nzərdə tutulub."(٢

(İmam Kazim (ə): "Qadının cihadı, öz ərinə yaxşı qulluq etməsidir."(٣ .٧



---

.Biharül-ənvar, c. ١٠١, səh. ٢١١ . [١]-١
Mən la yəhzərühül-fəqih, c. ٣, səh. ٣٨٩; Məkarimül-əxlaq, c. ١, səh. ۴٣٨; Vəsailüş- . [٢]-٢ .şiə, c. ١۴, səh. ١٧
.əl-Kafi, c. ۵,səh. ۵٠٧ , hədis ۴ . [٣]-٣

## ALTINCI HİKMƏT.KİŞİNİN QADININ QARŞISINDA VƏZİFƏLƏRİ

### QADINI QORUMAQ

QADINI QORUMAQ

(Qurani-kərim buyurur: "Özünüzü və əhli-əyalınızı oddan qoruyun".(١ .١

Qurani-kərim buyurur: "Sizlərdən vəfat edib özlərindən sonra arvadlarını qoyub .٢ gedən şəxslər həmin qadınlara öz evindən çıxarılmamaq şərti ilə, bir il müddətində (baxılmasını (vərəsələrinə) vəsiyyət etməlidir".(٢

Qurani-kərim buyurur: "Boşanan qadınları qəbul olunmuş tərzdə (şəriətə müvafiq) .٣ (faydalandırmaq müttəqilərin vəzifəsidir".(٣

Allahın rəsulu (s) buyurur: Mömin ailəsinin iştahasına (istəyinə) görə yeyər, .٤ (münafiqin ailəsi isə onun (iştahasına) istəyinə uyğun yeyər.(٤

səh:٧٥

---

.Təhrim surəsi, ayə ۶ . [١]-١

.Bəqərə surəsi, ayə ٢۴٠ . [٢]-٢

.Bəqərə surəsi, ayə ٢۴١ . [٣]-٣

.əl-Kafi, c. ۴, səh. ١٢; Tibbün-Nəbi, səh. ٣; Biharül-ənvar, c. ۶٢, səh. ٢٩١ . [۴]-۴

۵. Allahın rəsulu (s) buyurur: "Qadının əri üzərində olan haqqı budur ki, əri onun qarnını doyursun, geyimini təmin etsin və heç vaxt ona üzünü turşutmasın."(۱)

۶. Cəfər ibn Məhəmməd atasının vasitəsilə babasının Peyğəmbərin (s); kişinin özünü doyurub, ailəsini ac buraxmasını qadağan etdiyini buyurduğunu söylədi.(۲)

۷. İmam Sadiq (ə) buyurur: Allahın bu kəlamı barəsində buyurduğu zaman: "Allah ruzi baxımından birinizi digərinizdən üstün etmişdir. Üstün olanlar tabeçiliyində olanları öz ruzilərinə şərik etməzlər ki, bu cəhətdən bərabər olsunlar.(۳)" Yəni; kişinin nəyisə yeyib, onu öz ailəsindən əsirgəməsi, rəva deyil.(۴)

۸. İmam Sadiq (ə): Maddiyyat və mənəviyyat süfrəsini öz qadını və övladlarının üzünə açan hər bir şəxs, Allahın razılığına digər insanlardan daha çox yaxındır.(۵)

۹. İmam Sadiq (ə) buyurur: "Qadını doyurmaq, geyimlə təmin etmək və xətalarını bağışlamaq kişinin vəzifəsidir."(۶)



---

۱- [۱]. Biharül-ənvar, c. ۱۰۳, səh. ۲۵۴, hədis ۶۰.
۲- [۲]. Dəaimül-islam, c. ۲, səh. ۱۹۳.
۳- [۳]. Nəhl, ۷۱.
۴- [۴]. Təfsiri-Qummi, c. ۱, səh. ۳۸۷; Biharül-ənvar, c. ۹, səh. ۲۲۱.
۵- [۵]. Biharül-ənvar, c.۱۰۱, səh. ۷۲.
۶- [۶]. Vəsailüş-şiə, c. ۳, səh. ۱۸۴.

۱۰. İmam Sadiq (ə) buyurur: "Allah həyat yoldaşı ilə yaxşı rəftar edən kişiyə öz mərhəmətini əsirgəməsin. Çünki kişi, Tanrı tərəfindən qadının hamisi təyin olunmuşdur".(۱)

۱۱. Abdullah ibni Yəfur nəql edir: "İmam Sadiqə (ə) dedim: "Biz dünyaya vurğunuq". Həzrət (ə) buyurdu: "Dünya sizin nəyinizə lazımdır axı?". Dedim: "Dünya bizə evlənmək, həcc ziyarətinə getmək, qadın və uşaqlarımıza sahib çıxmaq, mömin qardaşlarımız (la birlikdə olmaq) və (ehtiyaclı insanlara) sədəqə vermək üçün lazımdır". İmam (ə) buyurdu: "Bunlar dünyadan deyil, axirətdən sayılır".(۲)

### QADINA QAYĞI Və XİDMəT

۱. Allahın rəsulu (s) buyurur: "Kişi arvadına su içirtdikdə savab qazanar."(۳)

۲. Allahın rəsulu (s) buyurur: "Həyat yoldaşının ağzına bir loğma uzadan kişi savab qazanar."(۴)

۳. Allahın rəsulu (s) buyurur: "Allah yanında, kişinin öz ailəsi ilə birgə oturması, mənimlə bu məscidimdə etikaf etməsindən daha sevimlidir."(۵)

۴. Məhəmməd Peyğəmbər (s) buyurur: "Ailəsinə xidmət etməkdən üz çevirməyən və şikayət etməyən



---

۱- [۱]. Qisarül-cüməl, səh. ۲۸۹.

۲- [۲]. Mizane xanevade dər islam, ۲۹۱.

۳- [۳]. Müsnədi-ibn Hənbəl, c. ۶, səh. ۸۵; Kənzül-ümmal, c. ۶, səh. ۴۲۵; Tarixi-kəbir, c. ۳, səh. ۱۷۹.

۴- [۴]. Mühəccətül-beyza, c.۳, səh. ۷۰.

۵- [۵]. Tənbihul-xəvatir, c.۲, səh. ۱۲۲.

şəxs, Allah-taalanın qəzəb atəşını söndürər, öz saleh əməllərinin sayını artırar və bu iş onun böyük günahlarının kəffarəsi sayılar.(۱)

۵. Məhəmməd Peyğəmbər (s) buyurur: "Ailənin problemlərini həll etmək cəhənnəm oduna qarşı sipərdir. Necə ki, Allaha itaət etmək Allahın əzabından uzaq qalmağa səbəb olur."(۲)

۶. Məhəmməd Peyğəmbər (s) buyurur: "Yaranmışların ruzisi Allahın öhdəsindədir. Onlar üçün çalışmağının sənə nə zərəri, nə də ki, xeyri var. Bunun müqabilində sənə yalnız axirət savabı çatar. Doğrudan da, ailə məsuliyyətini daşımaq ən böyük dərddir."(۳)

۷. Allahın rəsulu (s) buyurur: "Dünya bir sərvətdir. Ən yaxşı mal-dövlət isə təqvalı və saleh qadındır. Sizin ən yaxşılarınız isə qadınları ilə mehriban dolananlardır."(۴)

۸. Həzrət Məhəmməd (s) qızı Fatimənin evinə gəldi və Əlinin Fatimə ilə həyətdə əl dəyirmanında buğda çəkərək, un hazırladığını gördü. Peyğəmbər (s) buyurdu: Sizin hansınıza kömək edim?

Əli (ə) cavab verdi: Fatiməyə kömək et. O, çox yorulub.

Fatrimə əyağa qalxıb, istirahətə məşğul oladu. Peyğəmbər (s) də, Əli (ə) ilə birlikdə əl



---

۱- [۱]. Biharül-ənvar, c. ۱۰۴, səh. ۱۳۲.
۲- [۲]. Biharül-ənvar, c. ۷۳, səh. ۱۶.
۳- [۳]. Biharül-ənvar, c. ۷۳, səh. ۱۶.
۴- [۴]. Nəhcül-fəsahə, səh. ۲۳۰.

(dəyirmanında un hazırlamağa başladılar.(١

Allahın rəsulu (s) buyurur: Kim üç yerdə təkəbbürlülük (lovğalıq) etməsə, həqiqi .٩ mömin sayılır: Ailəsinə xidmət etdikdə, fağır (kasıb) insanlarla birlikdə əyləşməkdə və qulluqçusu ilə bir yerdə yeməkdə. Bunlar Allah-taalanın kitabında mömin adlandırdığı (şəxslərin nişanələridir: "Onlar həqiqi möminlərdir.(٢)"(٣

Allahın rəsulu (s) buyurur: Ey Əli! Yalnız doğru danışan insan, şəhid və Allah-taalanın .١٠ (dünya və axirətdə xeyrini istədiyi şəxs, ailəsinə xidmət edər.(۴

?Əsvəd, Aişədən soruşdu: Peyğəmbər (s) evdə necə rəftar edirdi .١١

Aişə dedi: Həyat yoldaşına kömək edirdi, xidmət göstərirdi. Namaz vaxtı gəlib çatdıqda (isə, namaz qılmaq üçün (evdən çıxıb) gedərdi.(۵

Allahın rəsulu (s) buyurur: Tanrının razılığını əldə etmək üçün verdiyin hər nəfəqənin .١٢ qarşılığında bir savab qazanırsan, hətta həyat yoldaşının ağzına qoyduğun hər loğma (üçün belə.(۶



---

.Biharül-ənvar, c. ۴٣, səh. ۵٠; Tənbihül-xəvatir, c. ٢, səh. ٢٣٠ . [١]-١
.Ənfal, ۴ . [٢]-٢
Tarixi-Dəməşq, c. ۶, səh. ٢٩; əl-Firdəvs, c. ٣, səh. ۶٢٩; Kənzül-ümmal, c. ١, səh. . [٣] -٣ .١۵۵
.Cameül-əxbar, səh. ٢٧۶; Biharül-ənvar, c. ١٠۴, səh. ١٣٢ . [۴]-۴
Biharül-ənvar, c. ١۶, səh. ٢٢٧; Səhihi-Buxari, c. ١, səh. ٢٣٩; Sünəni-Tirmizi, c. ۴, . [۵] -۵ .səh. ۶۵۴; Müsnədi-ibn Hənbəl, c. ٩, səh. ۴۴۵
Səhihi-Buxari, c. ١, səh. ٣٠; Sünəni-Tirmizi, c, ۴, səh. ۴٣٠; Müsnədi-ibn Hənbəl, c., . [۶] -۶ .١, səh. ٣٧٩

۱۳. Allahın rəsulu (s) buyurur: Ailənə xərclədiyin hər nəfəqə qarşılığında savab qazanırsan. Hətta həyat yoldaşının ağzına tərəf uzatdığın hər loğma üçün belə.(۱)

۱۴. Allahın rəsulu (s) buyurur: "Ey Əli! Xanıma qulluq etmək, onun qayğısına qalmaq böyük günahların kəffarəsidir, Allahın qəzəb atəşini sönmə səbəbidir...".(۲)

۱۵. Məhəmməd Peyğəmbər (s) buyurur: "Ey Əli! Xanıma qulluq etmək, onun qayğısına qalmaq böyük günahların kəffarəsidir, Allahın qəzəb atəşini sönmə səbəbidir..."(۳)

۱۶. Bir gün Allahın rəsulu (s) Həzrət Əlinin (ə) evinə gəldi. Bu vaxt Əli (ə) mərci təmizləyir, Fatimeyi Zəhra (ə) da qazanın yanında əyləşib, su qaynadırdı. Həzrət Peyğəmbər (s) buyurdu: "Bil, ey Əbülhəsən! Söyləyəcəyim bu kəlamlar Allah-taalanın göstərişidir. Kişi həyat yoldaşına ev işlərində kömək etsə, Allah-taala onun bədənindəki hər bir tükün miqdarında bir illik gündüzlər oruc tutan, gecələr ibadətlə məşğul olan şəxsin ibadətinin əcrini və həmçinin Həzrət Yaqub, Həzrət Davud, Həzrət İsa (ə) kimi səbirli şəxslərin savabını əta edər. Ey Əli! Hər kim ailəsinə yardım edə və köməyini ondan əsirgəməyə Allah-taala onun adını şəhidlər



---

۱- [۱]. Müsnədi-Əbi Yəla, , c. ۱, səh. ۳۴۵; əs-Sünənül-kübra, c. ۷, ۷۶۹.
۲- [۲]. Biharül-ənvar, c. ۱۰۱, səh. ۱۳۲; Asarüs-sadiqin, c. ۱۵, s. ۳۰۰.
۳- [۳]. Biharül-ənvar, c. ۱۰۱, səh. ۱۳۲; Asarüs-sadiqin, c. ۱۵, s. ۳۰۰.

dəftərində qeyd edər və ona hər gecə-gündüz min şəhidin savabını yazar. Hər addımına Həcci-Ümrə ziyarəti, min dəfə cihad edən, min xəstə yoluxan, min cümə namazı qılan, min dəfndə iştirak edən, min acı insanı doyuran və Allah yolunda min at ehsan edənin savabın bəxş edər. Həyat yoldaşına işlərində yardım etmək Tövrat, İncil, Zəbur və Quran oxumaqdan, min əsiri azad etməkdən, kasıblara min dəvə ehsan etməkdən daha üstündür və belə bir şəxsin yeri behiştdir."(١)

### QADINA HÖRMƏT

١. İmam Əli (ə) buyurur: Allaha and olsun! Fatimə ilə birlikdə ömür sürdüyümüzdə, heç zaman onu qəzəbləndirmədim və heç bir işə məcbur etmədim. O, da öz növbəsində heç bir zaman məni əsəbləşdirmədi və mənə itaətsizlik etmədi. Hər zaman onun üzünə baxdığımda bütün qəm-qüssəm aradan gedərdi.(٢)

٢. İmam Sadiq (ə) buyurur: "Ər evə daxil olarkən həyat yoldaşına salam verməlidir. Evə girməmişdən qabaq, ayaqqabısının səsini və ya öskürəyini ona eşitdirməlidir ki, ailəsi onun gəlişindən xəbərdar olsun ki, xoşlamadığı heç bir şey gözünə dəyməsin."(٣)

٣. Allahın rəsulu (s) buyurur: Heç mömin kişi,



---

١- [١]. Biharul-ənvar, c. ١٠١, səh. ١٣٢.
٢- [٢]. Biharül-ənvar, c. ٤٣, səh. ١٣٤; Kəşfül-ğimmə, c. ١, səh. ٣٦٣.
٣- [٣]. Biharül-ənvar, c. ٧٦, səh. ١١.

mömin qadına nifrət etməz. Əgər qadınının bir xüsusiyyətini bəyənməsə, onun başqa bir xüsusiyyətini bəyənər.(١)

## QADININ ƏZİYYƏTLƏRİNƏ DÖZMƏK

١. Həzrət Peyğəmbər (s) buyurur: "Kim öz bədxasiyyət qadını ilə Allaha xatir səbirli və mərhəmətli davransa, Allah-taala ona öz dərgahında şükür əhliin savabını verər".(٢)

٢. Allahın rəsulu (s) buyurur: Allah-taala, Tanrıya xatir arvadının pis xasiyyətinə dözən kişiyə, səbir etdiyi hər gecə-gündüzə görə Əyyub (ə) peyğəmbərin bəla qarşısında qazandığı savabı əta edər. Qadının hər gecə-gündüz günahı, səhradakı qumlar qədər sayılar.(٣)

٣. Allahın rəsulu (s) buyurur: Behiştdə elə bir dərəcə və məqam vardır ki, oraya yalnız adalətli rəhbərlər, qohumlarla əlaqəni kəsməyən (mehriban olan) şəxslər və həyat yoldaşının bəd əxlaqı qarşısında səbirli olan kişilər daxil olarlar.(۴)

۴. Peyğəmbərlərin (ə) buyurur: Bir dəstə insan Yunus peyğəmbərin (ə) hüzuruna gəldi. Həzrət Yunus (ə) onlara qonaqlıq verdi. O, tez-tez evə daxil olub-çıxırdı. Həyat yoldaşı onu incidir və



---

١- [١]. Səhihi-Müslim, c. ٢, səh. ١٠٩١; Müsnədi-ibn Hənbəl, c. ٣, səh. ٢٢٣.

٢- [٢]. Qisarül-cüməl, səh.٢٨٩.

٣- [٣]. Səvabül-əmal,səh. ٣٣٩ , hədis ١, Elamüd-din, səh. ۴١٩; Biharül-ənvar, c. ٧۶, səh. ٣۶٧.

۴- [۴]. Xisal, səh. ٩٣; Biharül-ənvar, c.١٠۴, səh. ٧٠; Elamüd-din, səh. ١۵٢.

itaətsizlik göstərirdi. Amma Yunus (s) heç bir şey söyləmirdi. Onlar peyğəmbərin bu hərəkətinə təəccübləndilər. Yunus (ə) buyurdu: Təəccüb etməyin. Çünki mən Allahdan xahiş etdim ki, axirət aləmində mənə əzab verəcəksənsə, məni bu dünyada ona düçar .et

Allah-taala buyurdu: "Sənin cəzan, filankəsin qızı ilə evlənib, ailə həyatı qurmandır." (Mən də, onunla evləndim və (pis xasiyyətinə və bəd) əməllərinə dözürəm.(١)

İmam Əli (ə): Agah olun! Kim öz bədxasiyyət qadını ilə Allaha xatir səbirli və . ۵ (mərhəmətli davransa, Allah-taala ona öz dərgahında şükür əhliin savabını verər.(٢)

İmam Əli (ə): (Həzrətə nisbət verilən hikmətnamədə deyilir) Möminin cizyəsi(٣) . ۶ (mənzil icarə etməsi, onun əzabı isə həyat yoldaşının bədəxlaqlı olmasıdır.(۴)

### HƏYAT YOLDAŞINI İNCİTMƏMƏK

Allahın elçisi (s) buyurur: "Mənim ümmətimin ən yaxşı kişiləri, öz ailəsinə əl . ١ ,(uzatmayan (döyməyən



---

.Ehyayi-ülumiddin, c.٢, səh. ۵١ . [١] -١

Mən la yəhzərühül-fəqih, c. ۴, səh. ١۶; Əmali-Səduq, səh. ۵١۶; Məkarimül-əxlaq, . [٢] -٢ .c. ٢, səh. ٣١۶

İslam ölkəsində yaşayan qeyri-müsəlmanlardan alınan vergi növü. Təfsilatı . [٣] -٣ .üçün risalələrə müraciət edin

.Şərhi-nəhcil-bəlağə, c. ٢٠, səh. ٣٠٠ . [۴] -۴

onlarla mehriban olan və onlara zülm etməyən kişilərdir."(۱)

۲. Allahın rəsulu (s) buyurur: Allah-taala, (qiyamət günü) Malikə (cəhənnəmin qaravulçusuna) əmr edər ki, həyat yoldaşına bir şillə vuran kişiyə, yetmiş şillə vursun. Hər bir müsəlman kişi müsəlman qadının saçının hər bir telinə toxunsa, əli cəhənnəm odundan hazırlanmış mismarlarla mıxlanar.(۲)

۳. Allahın rəsulu (s) buyurur: Kim həyat yoldaşını nahaq yerə vursa, qiyamət günü, onun şikayətçisi mən olacağam. Həyat yoldaşlarınızı döyməyin. Çünki, kim onları nahaq yerə kötəkləsə, Allahdan və peyğəmbərinə itaətsizlik edibdir.(۳)

۴. Allahın rəsulu (s) buyurur: Mən döyülməyə daha çox layiq olan kişinin arvadını döyməsinə təəccüb edirəm! Qadınlarınızı çubuqla kötəkləməyin! Bu əməlin (şəriət hökmlərində) qisası var.(۴)

۵. Allahın rəsulu (s) buyurur: Szilərdən hər biriniz, qadınınızı kölələr kimi döyməkdən xəcalət çəkmir? Günün başlanğıcında onu döyür, amma gecə olduqda onunla bir yastığa baş qoyursunuz! Utanmırsınızmı?(۵)

səh:۸۴

---

۱- [۱]. Məkarimül-əxlaq, c. ۱, səh. ۴۶۸.

۲- [۲]. Müstədrəkül-vəsail, c. ۱۴, səh. ۲۵۰.

۳- [۳]. İrşadül-qülub, səh. ۱۷۵.

۴- [۴]. Cameül-əxbar, səh. ۴۴۷; Biharül-ənvar, c. ۱۰۳, səh. ۲۴۹.

۵- [۵]. əl-Müsənnəf, Əbdür-rəzzaq, c. ۹, səh. ۴۴۲; Səhihi-Buxari, c. ۴, səh. ۱۸۸۸; əs-Sünənül-kübra, c. ۵, səh. ۳۷۱.

۶. Allahın rəsulu (s) buyurur: Kişinin boyun damarlarını şişirdərək, çarəsiz qadınının başı üzərində dayanıb, onu kötəkləməsini görməyə nifrət edirəm.(۱)

۷. Əyyub rəvayət edir buyurur: Əri tərəfindən möhkəm şəkildə döyülmüş bir qadın, Peyğəmbərin (s) yanına gəldi. Allahın rəsulu (s) ayağa qalxıb, bu işə öz etrazını bildirərək, buyurdu: "Həmişə, sizlərdən kimsə öz qadınını kölələr kimi döyür, sonra isə (gecə) xəcalət çəkmədən onunla cinsi əlaqədə olur.(۲)

۸. Allahın rəsulu (s) buyurur: Siz (kişilərin) ən pisləri, bədəxlaqlı olanlar, bədxərclər və ailəsinə daha çox yük olanlarınızdır.(۳)

۹. Allahın rəsulu (s) buyurur: "Kim yəyat yoldaşına əziyyət versə və qadın məcbur qalıb ərinə onu boşamaq müqabilində pul ödəsə, Allah-taalanın bu şəxsə verdiyi ən az cəza cəhənnəm atəşi olar. Çünki Allah-Təala yetimə zülm rəva görüldükdə necə qəzəblənirsə, qadına qarşı zülm ediləndə də, eləcə qəzəblənir."(۴)

۱۰. İmam Rza (ə): "Nə üçün "iddi" talağı (yəni üç dəfə) verilmiş qadın, başqa kişi ilə evlənməyincə öz

səh:۸۵

---

۱- [۱] . Nəsrüd-dar, c. ۱, səh. ۲۰۷; Kənzül-ümmal, c. ۱۶, səh. ۳۷۷; əl-Müsənnəf, Əbdür-rəzzaq, c. ۵, səh. ۱۱۳.

۲- [۲] . ət-Təbəqatül-kübra, c. ۸, səh. ۲۰۵; Səhihi-Buxari, c. ۵, səh. ۲۲۴۶; Kənzül-ümmal, c. ۱۶, səh. ۳۷۷; əl-Kafi, c. ۵, səh. ۵۰۹; Vəsailüş-şiə, c. ۱۴, səh. ۱۱۹.

۳- [۳] . əl-Firdəvs, c. ۲, səh. ۳۷۰.

۴- [۴] . Həmin mənbə.

:keçmiş ərinə halal olmaz?"- iradına belə cavab verdi

Allah-taala iki dəfə Qurani-Kərimdə boşanmaya icazə vermiş və buyurmuşdur:" "Talaq iki dəfədir... Kişi həyat yoldaşını üçüncü dəfə boşadıqda, Tanrı dərgahında qadına qarşı xoşagəlməz bir iş gördüyü üçün Allah-taala o qadını ərinə haram buyurmuşdur. Beləliklə də, qadın ərindən başqa kişi ilə evlənməyincə, ona halal olmaz. Bu onun üçündür ki, insanlar boşanmağa məsuliyyətsiz yanaşmasınlar və qadınlara (ziyan dəyməsin."(۱)

### QADINI İNCİTMƏYİN CƏZASI

۱. Qurani-Kərim: "Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir! (Qadınlar) açıq-aşkar pis bir iş görməyincə, özlərinə verdiyinizin (mehrin) bir hissəsini geri qaytarmaq məqsədilə onlara əziyyət verməyin. Onlarla gözəl (Allahın buyurduğu kimi) rəftar edin. Əgər onlara nifrət etsəniz (dözün). Ola bilsin ki, sizdə nifrət doğuran (hər hansı bir şeydə Allah (sizdən ötrü) çoxlu xeyir nəzərdə tutmuş olsun."(۲)

۲. Allahın rəsulu (s) buyurur: Agah olun! Allah və peyğəmbəri (s), qadınının xülu talaq (tələb etməsi məqsədilə, ona əziyyət verən kişiyə nifrət edir.(۳)

۳. Allahın rəsulu (s) buyurur: Kim qadınını incitsə



---

۱- [۱] . Üyuni- əxbari- Rza(ə), c.۲, səh. ۸۵, hədis ۲۷.

۲- [۲] . Nisa, ۱۹.

۳- [۳] . Səvabül-əmal, səh. ۳۳۸; Elamüd-din, səh. ۴۱۸; Biharül-ənvar, c. ۷۶, səh. ۳۶۶.

və qadını ondan canını qurtarmaq üçün xüli talaq tələb etsə, Allah-taala onun ərinə cəhənnəm odundan daha az cəza təyin etməz. Çünki Allah-taala, adına zülm olunduğunda, yetimə zülm onunan zaman qəzəbləndiyi kimi qəzəblənər.(۱)

۴. Allahın rəsulu (s) buyurur: Kim bu üç nəfəri əskik bilib, təhqir etsə, üş neməti əldən vermiş sayılır: Kim ailimləri əskik saysa, dinini əldən verər..; kim qohumlarını əskik saysa, kişiliyini, mərdliyini əldən verər və kim ailəsini əskik saysa, xoş həyat nemətindən məhrum olar.(۲)

۵. Allahın rəsulu (s) buyurur: "Kişi həyat yoldaşına bir şillə vursa, Allah cəhənnəm məmurlarına onun üzünə yetmiş odlu sillə vurmasını əmr edər. Kişi əlini ona məhrəm olmayan qadının bir tükünə bir tükünə belə toxundursa, qiyamət günü onun əli cəhənnəmin odlu mıxları ilə mıxlanar."(۳)

۶. Allahın rəsulu (s) buyurur: "Bəndənin imanı artıqca həyat yoldaşına qarşı məhəbbəti də çoxalar."(۴)

۷. Səəd adlı bir səhabə Ühüd savaşında yaralanıb evində yatırdı. Lakin döyüşdə aldığı yaralar sağalmadığı üçün vəfat etdi. Sədi dəfn etməyə apararkən Allahın rəsulu (s) başı açıq və ayaqyalın



---

۱- [۱]. Səvabül-əmal, səh. ۳۳۶; Elamüd-din, səh. ۴۱۶; Biharül-ənvar, c. ۷۶, səh. ۳۶۵.

۲- [۲]. əl-Məvaizül-ədədiyyə, səh. ۲۵۵.

۳- [۳]. Vəsailüş-şiə, c. ۲, səh. ۵۴.

۴- [۴]. Biharul-ənvar, c. ۷۱, səh. ۱۰۴.

onun cənazəsini götüb, ona qüsl verdi. Namazdan sonra Peyğəmbər (s) onu qəbrə qoyaraq şəxsən özü onun üstünü torpaqla örtdü. Allahın rəsulu (s) Sədin qəbrini tam şəkildə saf (düz) və təmiz etdi. Sonra Sədin qəbrinə bu qədər diqqətə yetirdiyi üçün O Həzrətə (s) etiraz edildikdə, buyurdu: "Məlumdur ki, Sədin bədəni çürüyüb torpağa qarışacaq. Lakin Allah-taala bəndəsinin hər hansısa bir işi icra edərkən, onu kamil və ".səliqəli şəkildə yerinə yetirməsini çox istəyir

Elə bu vaxt Sədin anası oğlunun məzarı üzərinə gəlib, belə dedi: "Ey Səd! Məkanın "!cənnətdir

Allahın rəsulu (s) ona buyurdu: "Allahın işləri barəsində qəti qərar vermə. Səd qəbir ."sıxıntısına (əzabına) düçar olacaq

Dəfindən qayıdarkən səhabələr Peyğəmbərin (s) üç suala cavab verməsini xahiş edib, :dedilər

Ey Allahın elçisi! Siz heç kimin cənazəsinə bu qədər ehtiram göstərib ona bu şəkildə .hörmət qoymamısınız. Sədin dəfnində isə başıaçıq və ayaqyalın iştirak etdiniz

.Belə ki, gah tabutun sağ və gah da sol tərəfindən götürürdünüz

Meyidin qüslünə nəzarət edib, namazını qıldınız. Onu şəxsən özünüz qəbrə qoydunuz, qəbrin üzərini tam şəkildə torpaqla örtdünüz. Amma sonra onun anasına belə ."buyurdunuz: "Səd qəbir sıxıntısına (əzabına) düçar olacaq

səh:۸۸

Allahın rəsulu (s) buyurdu: "Cənazəni müşayiət edrkən mələkləri başıaçıq, ayaqyalın görüb mən onlar kimi rəftar etdim.

Əlim Cəbrayılın (ə) ovcunda idi. Əlini hara hərəkət etdirirdisə, mən də oraya gedirdim.

Doğrudur, Səd qəbir sıxıntısına (əzabına) düçar olacaq. Çünki ailəsi ilə pis davranardı, (onları incidirdi".(١)

٨. İmam Əli (ə) buyurur: Ailəsinə pislik edən şəxsin, (başqalarına yaxşılıq etməsinə) ümid yoxdur.(٢)

٩. İmam Əli (ə) buyurur: Qadınlar, ərlərinin evində öz mənfəətlərinə və zərərlərinə seçim etmək iqtidarına malik deyildirlər. Onlar, Allahın sizin yanınızdakı əmanətləridir. Onları hey danlamayın, onlarla pis davranmayın.(٣)

## QADINLA VAXT KEÇİRTMƏK

١. Məhəmməd peyğəmbər (s) buyurur: Kişinin öz qadınının yanında əyləşib, onunla vaxt keçirməsi,mənim məscidimdə (Məscidün-Nəbidə) etikaf(٤) saxlamasından daha dəyərlidir.(٥)

٢. Məhəmməd peyğəmbər (s) buyurur: Szilərdən hər birinizin höccəti tamamlandıqda, hər nə qədər



---

١- [١]. Qamusür-rical, c. ۴, səh.٣۴١.

٢- [٢]. Qürərül-hikəm", h. ٨١٣۴; Üyunül-hikəm vəl-məvaiz, səh. ۴۴٣.

٣- [٣]. Müstədrəkül-vəsail, c. ١۴, səh. ٢۵١; c. ١۴, səh. ٣٢۵.

۴- [۴]. Məsciddə icra olunan xüsusi ibadət növü. Əlavə məlumat toplamaq üçün risalələrdə mövcud olan etikaf məsələlərinə müraciət edin.

۵- [۵]. Tənbihül-xəvatir, c. ٢, səh. ١٢٢ ; əl-Məvaizül-ədədiyyə, səh. ٣٣.

mümkünsə tez bir zamanda ailəsinə sarı yola düşsün. Çünki bu iş, onun mükafatını (savabını) daha da çoxaldar.(۱)

۳. Məhəmməd peyğəmbər (s) buyurur: Allah-taala mömini sevir və (onun) qadın və övladlarını da sevir. Allah yanında ən sevimli şey, kişinin həyat yoldaşı və övladları ilə birlikdə yemək yeməsidir. Onlar hər zaman bir süfrə ətrafında toplaşsalar, onlara rəhmət nəzəri ilə baxar. Onlar ayrılmamışdan öncə günahlarını bağışlamışdır.(۲)

۴. Məhəmməd peyğəmbər (s) buyurur: Mömin öz övladları ilə birlikdə yemək yediyi zaman, hər loğmasına, bir qul azad etməyin savabı yazılar. Onun üçün (behiştdə) bir şəhər inşa edilər. Allah-taala onun əməl dəftərini sağ əlinə verər.(۳)

۵. Məhəmməd peyğəmbər (s) buyurur: Hər mömin övladı ilə birlikdə yemək yeməyi sevsə, ərşin altında bir mələk ona belə səslənər: Ey Allahın bəndəsi! Əməllərinə yenidən başla ki, Allah-taala bütün günahlarının bağışladı.(۴)

۶. Məhəmməd peyğəmbər (s) buyurur: Bilirsinizmi, bu beş əməli əncam verən şəxs təkəbbürlü (lovğa) deyildir: Qoyun sağmaq, yun



---

۱- [۱]. əl-Müstədrəkü-ələs-Səhiheyn, c. ۱, səh ۶۵۰; əs-Sünənül-kübra, c. ۵, səh. ۴۲۴; Kənzül-ümmal, c. ۵, səh. ۲۴.

۲- [۲]. Tənbihül-ğafilin, səh. ۳۴۳.

۳- [۳]. həmin kitab, səh. ۳۴۴.

۴- [۴]. həmin.

geyinmək, kasıblarla birlikdə əyləşmək, uzunqulağa minmək və kişinin ailəsi ilə birlikdə yemək yeməsi.(۱)

۷. Ənəs rəvayət edir: Dedim: Ey Allahın elçisi! Ailə ilə birlikdə əyləşməyin savabı çoxdur, yoxsa məsciddə oturmağın?

Buyurdu: "Bir saat ailə ilə birlikdə vaxt keçirmək, mənin üçün, bu məscidimdə etikaf etməsindən daha sevimlidir."

Dedim: Ey Allahın elçisi! Sizin nəzərinizcə, (Allah yanında) ailə üçün xərcləmək daha sevimlidir, yoxsa Allah yolunda sədəqə vermək?

Buyurdu: "Kişinin ailəsi üçün bir dirhəm xərcləməsi, mənim fikrimcə, Allah yolunda min dinar xərcləməkdən daha sevimlidir."(۲)

۸. İmam Sadiq (ə) buyurur: Allahın elçisi (s) bir kişiyə buyurdu: "Orucsanmı?"

Dedi: Xeyir.

_ "Kimsəsizə yemək verdinmi?"

_ Xeyir.

_ "Evinə, ailənə sarı geri dön. Bu iş, sədəqə sayılır."(۳)

۹. Məhəmməd Peyğəmbər (s): "Ərin həyat yoldaşının üzünə (məhəbbətlə) baxması ibadət sayılır və günahlarının kəffarəsi hesab olunur."(۴)



---

۱- [۱] . Cameül-əhadis, səh. ۸۴; ət-Təvazö vəl-xəmul, Əbu Dünya, səh. ۲۶۵; Tarixi-Dəmeşq, c. ۶۲, səh. ۲۸۳.

۲- [۲] . Tənbihül-ğafilin, səh. ۳۴۲.

۳- [۳] . əl-Kafi, c. ۵, səh. ۴۹۵; Mən la yəhzərühül-fəqih, c. ۳, səh. ۱۷۸; Əvaliyül-lai, ۳, səh. ۲۸۵.

۴- [۴] . Ləailil-əxbar, c. ۳, səh. ۲۸۵.

## SİMİCLİK ETMƏMƏK

1. Allahın rəsulu (s): Allah-taalanın yanında ən mənfur insan, ailəsinə (pul xərcləməkdə) simiclik edəndir.(1)

2. Allahın rəsulu (s): İnsanların ən pisi, ailəsini ehtiyac içərisində saxlayandır.(2)

## QADINA RİFAH YARATMAQ

1. Həzrət Əli (ə) buyurur: "Hər kim ailəsinə bir dirhəm dəyərində ət alsa, sanki Həzrət İsmayılın övladlarından olan bir qulu azad edibdir."(3)

2. İmam Səccad (ə): "Kişi ailəsini nə qədər çox rifah və bolluq içində saxlasa, Allah-taala ondan bir o qədər çox razı olar."(4)

## QADINA HƏDİYYƏ ALMAQ

1. Allahın rəsulu (s) buyurur: Sizlərdən hər biri səfərdən qayıdarkən, ailənizə hədiyyə gətirin. Hətta heç bir şey belə tapa bilməsəniz, ətəyinə daş və ya bir ovuc odun da olsa qoyun. Çünki bu da onları sevindirər.(5)

2. Allahın rəsulu (s) buyurur: Sizlərdən hər kim səfərdən qayıdarkən, ailənizə hədiyyə gətirin. Hətta bir daş parçası olsa belə.(6)



---

١- [١]. əl-Firdəvs, c. ١, səh. ٣۶٧.

٢- [٢]. əl-Möcəmül-əvsət, c. ٨, səh.٣٣٧, Kənzül-ümmal, c. ١۶, səh. ٣٧۵.

٣- [٣]. Biharül-ənvar, c. ٧۵, səh. ٣٢.

۴- [۴]. Biharül-ənvar, c. ٧٨, səh. ١٣۶ , hədis ١٣.

۵- [۵]. Müsnədi-Şamiyyin, c. ١, səh. ٣٨٢; Tarixi-Dəmeşq, c. ۵٢, səh. ٢٣٠; Kənzül-ümmal, c. ۶, səh. ٧٠٨.

۶- [۶]. Sünənid-dar, c. ٢, səh. ٣٠٠; Şoəbül-iman, c. ٣, səh. ۵٠٣; Biharül-ənvar, c. ٧۶, səh. ٢٨٣.

Allahın rəsulu (s) buyurur: Allah-taala bazardab qayıtdığı zaman, ətəyində ailəsi üçün .۳ bir şeylər alıb gətirən və onları sevindirən kişini sevir. Onunla mələklərin qarşısında (fəxr edir.(۱)

İmam Baqir (ə) buyurur: "Səfərə getdikdə, ailən üçün mütləq bir hədiyyə al. Hətta, .۴ bir şey tapmasan belə yerdən daş götürüb, sovqat olaraq ona apar. Həzrət İbrahim (ə) səfərdən evinə qayıdarkən ailəsi üçün heç bir hədiyyə tapmadı. Evə əliboş qayıtmasın deyə, çöldəki daşlardan bir miqdar yığıb, xurcununa tökdü. Evə çatdıqda xurcun yerə düşdü və O Həzrət(ə) Allah-taalanın qüdrəti ilə bütün daşların una (çevrildiyini gördü.(۲)

İmam Sadiq (ə) buyurur: "Səfərdən qayıdarkən bacardığınız miqdarda ailənizə . ۵ (hədiyyə gətirin."(۳)

### !İLK OLARAQ HƏDİYYƏNİ QIZINA VER

Peyğəmbər (s) buyurur: "Kim bazara girdikdə bir hədiyyə alıb onu öz ailəsinə təqdim .۱ (etsə, sanki kasıb insanlara sədəqə vermişdir. Hədiyyəni ilk olaraq qızlara verin."(۴)

Peyğəmbər (s) buyurur: "Kişi bazara gedib, ailəsi üçün hədiyyə alarsa, elə bil ki, . ۲ zəiflərə sədəqə vermişdir. O, evə daxil olduqda aldığı hədiyyəni, gərək əvvəlcə qızlarına versin. Çünki qızını



---

.əl-Firdəvs, c. ۱, səh. ۱۶۸ . [۱]-۱

.Vəsailüş-şiə, c. ۸, səh. ۳۳۷ . [۲]-۲

.Vəsailüş-şiə, c. ۸, səh. ۳۳۷ . [۳]-۳

.Biharül-ənvar, c.۱۰۴, səh. ۶۹ . [۴]-۴

(sevindirən kəs, həzrət İsmayılın nəslindən olan bir qulu azad edən şəxs kimidir."(١)

Allahın rəsulu (s): Hər kim bazardan övladları üçün (meyvələrin ilk yetişən zamanı) nübar alsa, onu övladlarının ağzına qoyanadək, sədəqə daşıyan şəxs kimidir. Və birinci qızına verməlidir. Çünki Allah-taala qız övladlarına qarşı xeyirxahdır. Hər kəs qız övladlarına qarşı xeyirxah olsa, Tanrı qorxusu ilə ağlayan şəxs kimidir. Tanrı qorxusu ilə ağlayan şəxsin isə genahları bağışlanar. Allah-taala qəm-qüssə günündə (qiyamət (günü) onu sevindirər.(٢)

## QADINI SƏBƏBSİZ BOŞAMAMAQ

١. İmam Baqir (ə): "Allah-taala qadınları tez-tez boşayan və hər dəfə bir qadını təcrübə (edən kişilərə nifrət edər."(٣)

٢. İmam Sadiq (ə): "Allah-taala, hahal buyurduğu şeylərdən heç birisinə talaq qədər nifrət etməmişdir. Tanrı qadınlara çox talaq verən və hər dəfə bir qadını sınaqdan ".çıxaran, (ləzzətini dadan) kişini düşmən sayar

٣. İmam Sadiq(ə): "Allah-taala, toy mərasimi olan evi sevər (gəlin gələn evi). Amma içində talaq verilən, boşanan evi düşmən bilər. Allah dərgahında ən mənfir şey (boşanmaqdır."(٤)



---

١-[١] . Biharül-ənvar, c.١٠۴, səh. ۶٩.

٢-[٢] . Tənbihül-ğafilin, səh. ٣۵٢; Ehyayi-ülumiddin, c. ٢, səh. ٧٩.

٣-[٣] . əl-Kafi, c.۶, səh.۵۵, hədis ۴.

۴-[۴] . əl-Kafi, c.۶, səh.۵۴, hədis ٣.

Səd ibn Tərif İmam Baqirin (ə) vasitəsilə rəvayət edir: Allahın elçisi (s) bir kişi ilə .٣ " ?rastlaşdı. Soruşdu: "Ailən necədir

!Dedi: Talaq verdim (boşadım), ey Allahın elçisi

"?Onda bir eyib (problem) görmədənmi boşadın"

Bəli, bir eyib görmədən boşadım. Sonra o kişi, bir dəfə də evləndi. Peyğəmbər (s) "?onunla rastlaşdığı zaman soruşdu: "Evlənmisən

.Dedi: Bəli

Bir müddət keçdikdən sonra, (onunla təkrar qarşılaşdığı zaman) soruşdu: "Ailən "?necədir

!Dedi: Talaq verdim (boşadım), ey Allahın elçisi

"?Onda bir eyib (problem) görmədənmi boşadın"

Bəli, bir eyib görmədən boşadım.O kişi, üçüncü dəfə evləndi. Yenə də, bir gün "?Peyğəmbərlə (s) qarşılaşdı. Peyğəmbər (s) ondan soruşdu: "Evlənmisən

.Dedi: Bəli

Bir müddət keçdikdən sonra, (yenə onunla qarşılaşdığı zaman) soruşdu: "Ailən "?necədir

!Dedi: Talaq verdim (boşadım), ey Allahın elçisi

"?Onda bir eyib (problem) görmədənmi boşadın"_

.Bəli, bir eyib görmədən boşadım _

Allah-taala müxtəlif zövqləri dadmağa adət edən kişi və qadınları özünə düşmən" _ (sayar, (və ya) öz rəhmətindən uzaq tutar."(١)

١- [١] . əl-Kafi", c. ۶, səh. ۵۴, Əvaliyül-lai, c. ٣, səh. ٣٧٢, Vəsailüş-şiə, c. ١۵, səh. ٢۶٧, əl-
Müsənnəf, İbn Əbi Şeybə, c. ۴, səh. ١٧٢.

## EVƏ DAXİL OLDUQDA SALAM VERMƏK

۱. Allahın rəsulu (s) buyurur: Ey Ənəs!... Evə daxil olduğun zaman, ailənə salam ver ki, evinin xeyir-bərəkəti çoxalsın.(۱)

۲. Allahın rəsulu (s) buyurur: Ey Ənəs!... Evə daxil olduğun zaman, həm özünə və həm ailənə salam ver.(۲)

## QADININ CİNSİ EHTİYACLARINI TƏMİN ETMƏK

۱. Allahın rəsulu (s) bir kişiyə buyurdu:

- Bu gün oruc tutmusanmı?

- Kişi:

- Xeyr.

- Bir xəstəni ziyarət etmisənmi?

- Xeyr.

- Dəfn mərasimində iştirak etmisənmi?

- Xeyr.

- Yoxsul şəxsin qarnını doyurmusanmı?

- Xeyr.

Allahın rəsulu (s) buyurdu: "Evinə get. Həyat yoldaşının cinsi istəklərini təmin et. Sanki (ehtiyaclı şəxsə) sədəqə vermisən".(۳)

۲. Həzrət Əli (ə) buyurur: "Qadına yaxın getməmək (ona etinasızlıq göstərmək) və onun cinsi istəklərini

əl-Möcəmül-əvsət, c. ۵, ۳۲۸; Müsnədi-Şəhab, c. ۱, səh. ۳۷۷; Kənzül-ümmal, c. ۱۵, . [۱] -۱
.səh. ۹۰۹

Müsnədi-Əbi Yəla, c. ۳, səh. ۴۵۳; Tarixi-Dəmeşq, c. ۹, səh. ۳۴۲; Kənzül-ümmal, c. . [۲] -۲
.۱۵, səh. ۹۱۲

.Həmin mənbə, səh-۲۸۹ . [۳] -۳

(təmin etməmək qəbir əzabına səbəb olar".(١)

Həzrət Əli (ə) buyurur: "Heç bir hazırlıq etmədən (həvəsləndirmədən) qadınla cinsi .٣ əlaqədə olmaqdan qəti şəkildə çəkinin. Çünki qadının (intim əlaqədə olmaq üçün) bir sıra ruhi (romantik) və cismi ehtiyacları vardır. Ona bu sahədə yardım edin. Sonra isə (istədiyiniz formada cinsi əlaqəyə girin.(٢)

İmam Sadiq (ə) buyurur: "Üç şey peyğəmbərlərin adət-ənənələrindəndir: Gözəl .۴ ətirdən istifadə etmək, saçı qısaltmaq və qadının cinsi istəyinə lazımınca cavab (vermək".(٣)

Abdullah ibn Əmir As rəvayət edir: Atam məni Qüreşydən olan bir qadınla evləndirdi. .۵ Amma mənim başım ibadətə və oruc-namaza elə qarışmışdı ki, ona heç əhəmiyyət belə vermirdim. Bir gün, Əmir As gəlinini görməyə gəldi. Onun yanına gedib, soruşdu: ?Ərini bəyəndinmi

Həyat yoldaşım cavab verdi: Çox yaxşı ərdir. O, qucağını mənə açmamış və hətta .yatağımı belə tanımır

Atam üzünü mənə çevirib, danlamağa başladı: Mən, səni Qüreyşin adlı-sanlı ailəsindən olan bir qızla evləndirdim. Amma sən onun (cinsi) istəklərinə qarşı laqeydsən və belə !?işlər görürsən

Sonra o, Peyğəmbərin (s) yanına getdi və məndən Həzrətə (s) şikayət etdi. Peyğəmbər (s) adam



---

.İləlüş-şəraye, hədis. ٣٠٩ . [١]-١

.Biharül-ənvar, c. ١٠٠, səh. ٢٨٧ . [٢]-٢

.Biharül-ənvar, c. ١٠٠, səh. ٢٨۵ . [٣]-٣

"?göndərib, məni yanına çağırdı. Mənə belə buyurdu: "Gündüzlər oruc tutursanmı

.Dedim: Bəli

"?Gecələr namaz qılırsanmı"_

.Bəli _

Amma mən, bəzən oruc tuturam, bəzən isə oruc deyiləm. Həm namaz qılıram, həm _ də, (kifayət qədər) yatıram. Qadınlarla (həyat yoldaşlarımla) cinsi əlaqədə oluram. Kim mənim sünnəmdən (qoyduğum adətlərdən, davranış tərzimdən) üz çevirsə, məndəm (deyil."(١

Əbu Musa Əşəri rəvayət edir: "Osman ibn Məzunun arvadı, Peyğəmbərin . ۶ qadınlarının yanına gəldi. Onlar Osmanın arvadının üst-başının səliqəsiz olduğunu gordükdə dedilər: Sənə nə olub? Qüreyş tayfasında sənin ərindən daha var-dövlətli (?kişi yoxdu! (Amma sən bu haldasan

.Dedi: Biz ondan ləzzət almırıq. Gündüzlər oruc tutur və gecələr ibadətlə məşğuldur

Peyğəmbər (s) evə gəldikdə qadınları əhvalatı ona danışdılar. Allahın elçisi (s) Osmanın "?görüşünə getdi. Ona buyurdu: "Ey Osman! Mən sənin üçün bir nümunə deyilləmmi

!Dedi: Nə olub, ey Allahın elçisi? Atam-anam sənə qurban olsun

,Buyurdu: "Sən gecələr ibadətlə məşğul olur



---

Müsnədi-İbn Hənbəl, c. ٢, səh. ٥۴٩; Hilyətül-övliya, c. ١, səh. ٢٨٥; Seyri-ələmün- . [١] -١ .nübəla, c. ٣, səh. ٩٠

gündüzlər də, oruc tutursan. Bir halda ki, həyat yoldaşının da sənin boynunda haqqı var. Öz bədəninin də, sənin boynunda haqqı var. Gecələr həm namaz qıl, həm yat. Bəzi ".günlər oruc tut, bəzi günlər isə ye

Bu hadisədən sonra Osmanın qadını (təzə gəlinlər kimi) xoş ətirlər vuraraq. Peyğəmbərin qadınlarının yanına gəldi. Onlra soruşdular: Nə olub? (Necə oldu ki, belə (?dəyişdin

(Dedi: Bizə də, başqalarına nəsib olandan, nəsib oldu."(١)

Ənəs rəvayət edir: "Peyğəmbərin bəzi səhabələri, Həzrətin həyat yoldaşlarından .٧ onun şəxsi həyatındakı gizli rəftarları barəsində soruşdular. (Qadınlar aşağıdakı ( :rəvayəti nəql etdilər

Səhabələrdən biri dedi: Mən evlənməyəcəyəm. O biri dedi: Mən də, ət yemirəm. .Başqası dedi: Mən də, qadınımla yaxınlıq etməyəcəyəm

Bu xəbər Peyğəmbərin qulağına gedib, çatdı. (Bir xütbəsində) Allah həmd-sən aoxuyub, buyurdu: Bəzi şəxslərə nə olub, nə üçün belə-belə sözlər danışırlar? Bir halda ki, mən gecələr həm yatıram, həm də namaz qılıram. Gündüzlər bəzən oruc tuturam, bəzən isə tutmuram. Qadınlarla evlənirəm. Kim mənim sünnəmdən (qoyduğum (adətlərdən, davranış tərzimdən) üz çevirsə, məndəm deyil."(٢)



---

Səhihi-İbn Həbban, c. ٢, səh. ١٩; Müsnədi-Əbi Yəla, c. ۶, səh. ٣٨۶; ət-Təbəqatül- . [١] -١ .kübra, c. ٣, səh. ٣٩٥; Kənzül-ümmal, c. ٣, səh. ۴٧

Səhihi-Müslim, c. ٢, səh. ١٠٢٠; Səhihi-Buxari, c. ٥, səh. ١٩۴٩; Müsnədi-ibn Hənbəl, . [٢] -٢ .c. ۴, səh. ٥۶٩; Kənzül-ümmal, c. ٣, səh. ٣١

Aişə rəvayət edir: "Peyğəmbər (s), Osman ibn Məunun ardınca adam yoladı və onu .۸ yanına çağırdı. Osman gəldi. Peyğəmbər (s) ona buyurdu: "Ey Osman, mənim "?sünnəmdən (adət-ənənəmdən, davranışlarımdan) üz çevirirsənmi

.Cavab verdi: Xeyir, ey Allahın rəsulu! Mən sənin yolunu getmək istəyirəm

Buyurdu: "Mən gecələr həm yatıram, həm də namaz qılıram. Gündüzlər bəzən oruc tuturam, bəzən isə tutmuram. Qadınlarla (həyat yoldaşlarımla) cinsi əlaqədə oluram. Allahdan qorx, ey Osman! Həyat yoldaşının da sənin boynunda haqqı var. Qonağının da sənin boynunda haqqı var. Öz bədəninin də, sənin boynunda haqqı var. Bəzi günlər (oruc tut, bəzi günlər isə ye.Gecələr həm namaz qıl, həm yat."(۱

İmam Əli (ə) buyurur: "Osman ibn Məzun, Allahın elçisinin (s) yanına gəlib, dedi: "Ey .۹ Allahın rəsulu! Mənə (şeytan) vəsvəsə edir. Amma heç bir iş görmürəm, sizin .göstərişinizi və əmrinizi gözləyirəm

"?Şeytan) sənə nəyi vəsvəsə edir, ey Osman)" _

.Mən yer üzünü (rahiblər, zahidlər kimi səfil halda) gəzib, dolanmaq istəyirəm _

Səyahətə çıxma (rahiblər, zahidlər kimi səfil halda gəzmə). Çünki bu iş ünün mənim" _ ".ümmətimə məscidlər təyin olunub

səh:۱۰۰

---

Sünəni-Əbi Davud, c. ۲, səh. ۴۸; Sünəni-Darəmi, c. ۲, səh. ۵۷۰; Səhihi-ibn Həbban, . [۱] -۱ .c. ۲, səh.۱۹; Kənzül-ümmal, c. ۳, səh. ۳۳

.Ət yeməyi özümə haram etmək istəyirəm _

Belə etmə. Mən ət yeməyi sevirəm və yeyirəm. Əgər istəydim ki, Allahdan hər gün" _ ".mənə ət yeməyi nəsib etsin, bunu da edərdi

.Mən özümü axtalamaq istəyirəm _

Ey Osman! Özünü və ya başqasını axtalayan, bizdən deyil! Mənim ümmətimin" _ ".axtalanması oruc tutmaqladır

.Xuləni (həyat yoldaşımı) özümə haram etmək istəyirəm _

Belə etmə, ey Osman! Mömin öz həyat yoldaşının əlindən tutduqda, Allah-taala ona" _ on savab yazar və on günahını (əməl dəftərindən) silər. Onu öpsə, Allah-taala ona yüz savab yazar və yüz günahını (əməl dəftərindən) silər. Onunla cinsi əlaqədə olsa, Allah-taala ona min savab yazar və min günahını (əməl dəftərindən) silər.Mələklər onların hüzuruna gələr. Qüsl etsələr, suyun islatdığı saçının hər bir telinə bir mükafat verilər və bir günah silinər. Əgər bu soyuq gecədə olsa, Allah-taala mələklərinə buyurar: Bu iki bədəmə baxin ki, soyuq gecədə qüsl alırlar, çünki Mənim onların Tanrısı olduğuma inanırlar. Siz də şahid olun ki, mən bu iki bəndəmi bağışladım. Əgər onlar bu cinsi əlaqənin nəticəsində övlad sahibi olsalar, o, behiştdə valideynlərinin xidmətçisi ".olacaqdır

Sonra Peyğəmbər (s) əlini Osmanın sinəsinə qoyub, buyurdu: Ey Osman! Mənim sünnəmdən (rəftarlarımdan,) üz çevirmə. Kim mənim davranışlarımdan üz çevirsə (mənim kimi

davranmasa,) qiyamət günü, mələklər onun qarşısını alaraq, (Kövsər) hovuzuma yaxın (buraxmayacaqlar."(١)

İmam Sadiq (ə) buyurur: "Osman ibn Məzunun arvadı, Peyğəmbərin (s) yanına .١٠ !gəlib, dedi: Ey Allahın rəsulu! Osman gündüzlər oruc tutur və gecələr isə ibadət edir

Peyğəmbər (s) əsəbləşərək ayaqqanılarını götürüb, çölə çıxdı. Allahın elçisi (s) Osmanın yanına getdi. Onun namaz qıldığını müşahidə etdi. Osman Peyğəmbəri (s) gördükdə, namazını qurtarıb, onun yanına gəldi. Peyğəmbər (s) ona buyurur: "Ey Osman! Allah-taala məni rahib olaraq göndərmədi. Əsl həqiqədə, məni sadə və asan təkallahlıq dini ilə (sizə peyğəmbər) göndərdi. Mən həm oruc tuturam, həm namaz qılıram, həm də ki, həyat yoldaşımla cinsi əlaqədə oluram. Mənim gətirdiyim dini sevən şəxs, mənim sünnəmi (söylədiklərimi, davranış və rəftarlarımı) özünə nümunə (götürməlidir. Məni sünnəmdən biri də, evlənməkdir!"(٢)

İmam Sadiq (ə): Üç qadın Peyğəmbərin (s) yanına gəldilər. Onlardan biri dedi: .١١ Mənim ərim ət yemir. O biri dedi: Mənim ərim də, xoş ətirlərdən uzaq durur. Üçüncüsü .dedi: Mənin ərim isə qadınlarla yaxınlıq etmir

Peyğəmbər (s) əbasını çəkə-çəkə evdən bayıra



---

Dəaimül-islam, c. ٢, səh. ١٩٠; Əvaliyül-lai, c. ٣, səh. ٢٩١; Müstədrəkül-vəsail, c. ٧, . [١] -١ .səh. ٥٠٧

.əl-Kafi, c. ٥, səh. ٤٩٤; Biharül-ənvar, c. ٢٢, səh. ٢٦٤ . [٢] -٢

çıxdı. Minbərə qalxaraq Allah həmd-sən oxuyub, buyurdu: Nə üçün bəzi səhabələrim ət yemir, xoş ətirlərdən üz çevirir və qadınlarla cinsi əlaqədə olmurlar? Bir halda ki, mən ət yeyirəm, xoş ətirlərdən istifadə edirəm və qadınlarla cinsi əlaqədə oluram. Kim mənim sünnəmdən (qoyduğum adətlərdən, davranış tərzimdən) üz çevirsə, məndəm (deyil."(١)

## QADININ QEYRƏTİNİ ÇƏKMƏK

١. Allahın Peyğəmbəri (s): "Cənnətin rayihəsi beş yüz illik məsafədən burunlara çatar, ancaq naxələf övlad və dəyyus insana çatmaz." Ərz edildi: "Ey Allahın Peyğəmbəri! Dəyyus kimdir?" Buyurdu: "Arvadı zina edən və bundan xəbəri olan kişi."(٢)

٢. Allahın Peyğəmbəri (s): "Qadının qeyrəti küfr, kişinin qeyrəti isə imandır."(٣)

٣. Allahın rəsulu (s): "Bəzən qeyrət göstərməyi, Allah-taala sevər, bəzən isə düşmən sayar (sevməz). Allahın sevdiyi qeyrət, yerində qeyrətli olmaqdır. Allahın düşmən saydığı qeyrət isə yersiz qeyrətdir.(٤)

٤. Allahın rəsulu (s): İki növ qeyrət var. Birini Allah sevər. O birini isə düşmən sayar... Allah-taala yerli-yerində olan qeyrəti sevər. Amma səbəbsiz yerə



---

١- [١]. əl-Kafi, c. ٥, səh. ۴٩۶; Biharül-ənvar, c. ٢٢, səh. ١٢۴.

٢- [٢]. Mən la yəhzuruhül -fəqih, c. ٣, səh. ۴۴۴, hədis ۴۵۴٢.

٣- [٣]. Nəhcül-bəlağə, hikmət ١٢۴.

۴- [۴]. "Sünəni-Əbi Davud", ٣۵٠; "Sünəni-Nəsai", ۵٧٨; "Kənzül-ümmal", ٣٣٨۵".

(qeyrət göstərən şəxsi sevməz.(١

İmam Əli (ə): "Boş yerə (bədgümanlıqdan) qeyrət nümayiş etdirməkdən uzaq ol. .٥ "Boş yerə qeyrət nümayiş etdirməkdən uzaq ol. Çünki bu iş, düz qadını əyriliyə və iffətli (qadını tərəddüdə və (o barədə) fikirləşməyə vadar edər. "(٢

### QADINI İTTİHAM ETMƏMƏK

Peyğəmbər (s) buyurmuşdur: "Yalnız (Allah və mələklər tərəfindən) lənətlənmiş və .١ münafiq olan şəxs həyat yoldaşını (əsassız və yersiz formada) zinakarlıqda ittiham edər. Çünki belə (əsassız) ittiham etmək küfürdür və küfr əhli isə cəhənnəmlikdir. Belə (hərəkətlərdən çəkinin, bu işin sonu peşmançılıq və şiddətli əzabdır."(٣

Məhəmməd Peyğəmbər (s) buyurur: "Hər kim (dəlil-sübut olmadan) həyat yoldaşını .٢ pozğuqluqda ittiham etsə, onun (keçmişdə etdiyi) pak əməlləri ilan dərisindən ayrılan kimi ondan ayrılar. Bədənində olan hər bir tükün miqdarı qədər əməl dəftərinə min (günah yazılar."(٤

Həzrət Əli (ə) buyurur: "Qadına qüdrətindən artıq (məsuliyyət) yükləmə. Çünki qadın .٣ pəhləvan deyil, gül şaxəsidir. Ləyaqəti çatdığı miqdarda ona



---

.əl-Müstədrəkü-ələs-səhiheyn", ١۵٧٩; "Səhihi-İbn Xəzimə", ۴١١٣" . [١]-١
Nəhcül-bəlağə", ٣١; "Xəsaisi-Əimmə", səh. ١١٨; "Kəşfül-mühəccə", səh. ٢٣۴;" . [٢] -٢ ."Biharül-ənvar", ١٠٣٢۵٢
.Birharül-ənvar, c. ١٠٣, səh. ٢۴٩; Camiül-əxbar, səh. ۴۴۶ . [٣]-٣
.Həmin mənbə . [۴]-۴

hörmət et, boş yerə (bədgümanlıqdan) qeyrət nümayiş etdirməkdən uzaq ol. Çünki etimadsızlıq və bədgümanlıq qadınları iffətsizliyə, günahsız insanları günaha işləməyə sövq edər".(١)

## QADININ MƏSCİDƏ GETMƏSİNƏ İCAZƏ VERMƏK

١. Həzrət Məhəmməd (s) buyurur: "Qadınlar sizdən məscidə getmək üçün icazə istədikdə, onları məscidin xeyir-bərəkətlərindən məhrum etməyin."(٢)

٢. Həzrət Məhəmməd (s) buyurur: "Evlərində oturmaq daha xeyirli olsa da, həyat yoldaşlarınızın məscidlərə getməsinin qarşısını almayın".(٣)

٣. İmam Əli (ə) buyurur: "Qadınlar da, Peyğəmbərlə (s) birlikdə namaz qılırdılar. Hətta (o dövrdə) kişilər qısa (ətəkli paltar) geyindiyinə görə, qadınlara başlarını onlardan öncə namazdan qaldırmamaq haqqında göstəriş verilmişdi."(٤)



---

١- [١]. Nəhcül-bəlağə, ٣١-ci məktub.

٢- [٢]. Səhihi-Müslim, c. ۴, səh. ٣٢٨, həd. ١۴٠; Müsnədi-ibn Hənbəl, c٢, səh. ٣٩٩, həd. ۵۶٢۴; Tarixi-kəbir, c. ٢, səh. ١٠٧, həd. ١٨۵۴; əl-Möcəmül-kəbir, c. ١٢, səh. ٢۵٢, həd. ١٣٢۵٢; Kənzül-ümmal, c. ١۶, səh. ۴١٣, həd. ۴۵١٧٢.

٣- [٣]. Sünəni-Əbi Davud, c. ١, səh. ١۵۵, həd. ۵۶٧; Müsnədi-ibn Hənbəl, c. ٢, səh. ٣۶٨, həd. ۵۴۶٩; əl-Müstədrəkü-ələs-səhihəyn, c. ١, səh. ٣٢٧, həd. ٧۵۵; Səhihi-ibn Xəzimə, c. ٣, səh. ٩٣, həd. ١۶٨۴; əs-Sünənül-kübra, c. ٣, səh. ١٨٧, həd. ۵٣۵٩; Kənzül-ümmal, c. ١۶, səh. ۴١۴, həd. ۴۵١٧۴.

۴- [۴]. Mən la yəhzərühül-fəqih, c. ١, səh. ٣٩۶, həd. ١١٧۶; İləlüş-şəraye, səh. ٣۴۴, həd. ١; Qürbül-isnad, səh. ١٨, həd. ۶٠; Biharül-ənvarül-ənvar, c. ٨٨, səh. ۴٢, həd. ٣; Məkarimül-əxlaq, c. ١, səh. ٢١٣, həd. ۶٣٢.

۴. Həzrət Məhəmməd (s) buyurur: "Hər vaxr həyat yoldaşınız sizdən məscidə getmək üçün icazə istəsə, ona mane olmayın."(۱)

### ...QADINI SEVMƏSƏN DƏ

Qurani-Kərim: "Qadınlarınızla insafla rəftar edin. Əgər ondan xoşunuz gəlməsə də, (sevmədiyinizi) nifrətinizi izhar etməyin. Çünki Allah sizin xoşunuza gəlməyən şeylərin çoxunda sizin üçün çoxlu xeyir qərar vermişdir."(۲)



---

۱- [۱] . Səhihi-Buxari, c. ۵, səh. ۲۰۰۷, həd. ۴۹۴۰; Səhihi-Müslim, c. ۱, səh. ۳۲۶, həd. ۱۳۴; Sünəni-Nəsai, c. ۲, səh. ۴۲; Müsnədi-ibn Hənbəl, c. ۲, səh. ۲۱۲, həd. ۴۵۲۲; Sünəni-Darəmi, c. ۱, səh. ۱۲۴, həd. ۴۴۸; Kənzül-ümmal, c. ۱۶, səh. ۴۱۳, həd. ۴۵۱۷۰; Əvaliyil-lai, c. ۱, səh. ۱۳۶, həd. ۳۵.

۲- [۲] . Nisa surəsi, ayə: ۱۹.

## YEDDİNCİ HİKMƏT.KİŞİ VƏ QADIN BƏRABƏRLİYİ

### QIZ VƏ OĞLAN, HƏR İKİSİ İNSANDIR

١. Qurani-Kərim: "Onlardan birinə qızı olması ilə müjdə verdikdə qəzəblənib, üzü qapqara qaralar. Verilən müjdəni (ilahi bəxşişini) pis bilib, öz tayfasından qaçıb gizlənər. (Allah bilir) Görəsən, o körpəni zillət içində saxlayacaq, yoxsa torpağa (diri-diri basdıracaq?) Bir görün onlar necə pis mühakimə yürüdürlər! (Oğlanları özlərinə götürüb, qızları Allaha isnad edirlər)".(١)

٢. Həzrət Əli(ə) buyurur: "Ey camaat! İnsan övladı qul və ya kəniz olsun deyə doğulmamışdır. Doğrudan da, hər bir kişi və qadın azaddır".(٢)

### MÜSAVİLİK

١. Qurani-Kərim: "Həqiqətən, Allah məhz müsəlman



---

١-[١]. Nəhl, surəsi, ayə ٥٨-٥٩.

٢-[٢]. Mizanül-hikmə, c. ٢, səh. ٣٥١.

kişilər və qadınlar, mömin kişilər və qadınlar, (Allaha) müti kişilər və qadınlar, doğru danışan kişilər və qadınlar, səbirli kişilər və qadınlar təvazökar (yalnız Allah qarşısında kiçilən) kişilər və qadınlar, sədəqə verən, oruc tutan kişilər və qadınlar, ayıb yerlərini (zinadan) qoruyan kişilər və qadınlar və Allahı çox zikr edən kişilər və qadınlar üçün (axirətdə) məğfirət (bağışlanma) və böyük bir mükafat (cənnət) hazırlanmışdır".(۱)

۲. "Mömin olub, yaxşı işlər görən kişi və qadına xoş həyat nəsib edəcək və yaxşı əməllərinə görə onları mükafatlandıracağıq."(۲)

۳. Qurani-Kərim: "Kişilərin öz qazandıqlarından öz payı, qadınların öz qazandıqlarından öz payı vardır."(۳)

۴. Əbu Səid Xudrı: "Bir qadın Allahın rəsulunun (s) yanına gəlib belə söylədi: Ey Allahın elçisi! Kişilər daim sizin kəlamlarınızdan bəhrələnirlər. Bizə də bir vaxt təyin et ki, ilahi kəlamlarında faydalanaq, Allahın sizə öyrətdiklərindən öyrənək. Peyğəmbər (s) buyurdu: "Filan gün, filan məkanda toplaşın." Qadınlar təyin olunan gün həmin yerdə toplaşdılar və Allahın rəsulu (s) oraya gedib ilahi təlimləri qadınlara öyrətdi."(۴)

۵. Umeys binti Əsma (Cəfəri Təyyarın (ə) həyat yoldaşı) Həbəşistandakı on beş illik mühacirətdən



---

۱- [۱]. Əhzab surəsi, ayə ۳۵.

۲- [۲]. Nəhl surəsi, ayə ۹۷.

۳- [۳]. Nisa surəsi, ayə ۳۲.

۴- [۴]. Səhihi-Buxari, hədis ۴۱۶۳.

sonra, hicrətin yeddinci ilində Mədinə şəhərinə geri döndü. Qadınların cəmləşdiyi yerə gəlib, hal-əhval soruşduqdan sonra, dedi: "Qadınlar haqqında Quranda bir şey nazil "?olubdurmu

."Dedilər: "Yox

Əsma, Allahın rəsulunun (s) yanınaa gəldi və dedi: "Qadınlar özlərinin (kişilərlə ."müqayisədə) dəyərsiz bir məxluq olduqlarını düşünərək, çox narahat olurlar

Allahın rəsulu (s) buyurdu: "Nə üçün?" Əsma dedi: "Çünki onlar kişilər kimi xeyir və səadətlə yad edilərək, təşviq edilmirlər". Elə bu vaxt Allah tərəfindən aşağıdakı ayə .nazil oldu

Həqiqətən müsəlman, mömin, itaətkar, abid, doğrudanışan, səbirli və dözümlü, qəlbi" yumşaq, sədəqə verən, oruc tutan, ismətli və həyalı, Allahı çox zikr edən kişilər və qadınlar üçün Allah dərgahında məğfirət (bağışlanma) və böyük mükafat (hazırlanmışdır".(١)

Ümmü Sələmə Peyğəmbərdən (s) soruşdu: "Quranda kişilərin hicrət və fədakarlığı .۶ haqqda çox ayə var, ancaq qadınların hicrəti haqqda heç bir kəlam yoxdur". Bu zaman "Ali-İmran" surəsindən bu ayə nazil oldu:(٢) "Allah onların (düşüncə sahiblərinin) dualarını qəbul etdi və (buyurdu) – istər kişi, istərsə də qadın

səh:١٠٩

---

.əl-Mizan, c.١۶, səh.٣٣۶; Məcməül-bəyan, Əhzab surəsi, ٣۵-ci ayənin şərhində . [١] -١

.əl-Mizan, c. ۴, səh.٩۵ . [٢] -٢

olsun, mən heç birinizin əməlini puça çıxarmaram. Siz hamınız həmnöv və bir-birinizdənsiniz. And içirəm ki, hicrət edənlərin, öz yurdlarından çıxanların, Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin günahlarını bağışlayacam və onları ağacları altından çaylar axan behiştlərə daxil edəcəm. Bu, Allah tərəfindən bir mükafatdır və ən yaxşı mükafat Allah yanındadır".(۱)

۷. Məhəmməd Peyğəmbər (s) buyurur: "Allah-taala ərini incidən qadının namazlarını və yaxşı əməllərini onunrazılığını cəlb etməyənə qədər, qəbul etməz. Belə qadın ömür boyu oruc tutub, namaz qılsa, qul azad etsə və bütün var-dövlətini ehsan etsə də, cəhənnəmə daxil olan ilk şəxslərdən olacaq. Kişi də həyat yoldaşını incitsə, belə əzablara düçar olacaq."(۲)

۸. Allahın rəsulu (s) buyurur: "Ərini narahat edən qadın ona yardım edib, razı salmayınca, Allah-taala onun namazını və xeyir əməlini - ömrü boyu oruc tutsa belə - qəbul etməz. Kişi də həmçinin, əgər öz həyat yoldaşını incidib zülm etsə, həmin günah və əzab onun üçün də nəzərdə tutulmuşdur."(۳)

### ŞƏRAFƏT, İMANLA TƏQVADADIR

۱. Zübeydi rəvayət edir: "Zöhri Peyğəmbərin (s) bəni-Bəyazə qəbiləsinə öz aralarından bir qızı Əbu



---

۱- [۱]. Ali-İmran surəsi, ۱۹۵-ci ayə.

۲- [۲]. Vəsailüş-şiə, c. ۱۴, səh. ۱۱۶.

۳- [۳]. Vəsailüş-şiə, c.۱۴, səh. ۱۱۶, hədis۱.

Hində verməsini əmr etməsi barəsində mənə dedi ki; Bəni-Bəyazə qəbiləsi Peyğəmbərə belə cavab verdilər: Ey Allahın elçisi! Bizim qızlarımızı nökərlərimizlə ?evləndirirsən

Sonra Allah-taala bu ayəni göndərdi: "Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox (qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir)"(۱).(۲

İmam Baqir (ə) buyurur: Bəsrə əhlindən olan Əbdül-məlik ibn Hərmələ adlı bir çoban .۲ "?İmam Zeynülabidinin (ə) kənarından keçirdi. İmam ondan soruşdu: "Bacın varmı

.Dedi: Bəli

"?Onun mənimlə evlənməsinə razı olarsanmı"-

.Bəli-

Sonra Çoban kişi evinə getdi. İmamın səhabələrindən biri də, onun ardınca gedib, evinə çatdı və onun haqqında məlumat topladı. Ona dedilər: O, filankəs, filankəsin .oğludu. Öz tayfasının çobanıdır

Səhabə İmamın yanına qayıdıb, dedi: Ey Əbul-həsən! Mən sənin kürəkən olmaq istədiyin şəxsin haqqında məlumat topladım. Mənə dedilər ki, o öv tayfasının .mehtəridir



---

.Hücurat, ۱۳ . [۱]-۱

əs-Sünənül-kübra, c. ۷, səh. ۲۲۰; əl-Mərasil, səh. ۱۴۸; Təfsiri-Qurtubi, c. ۱۶, səh.. [۲]-۲ .۳۴۰

İmam Zeynülabidin (ə) oan belə buyurdu: "Filankəs! Mən gördüyüm və eşitdiyimi sənə deyirəm! Bilmirsənmi ki, Allah-taala islam dini ilə kiçikləri ucaltdı, əskikləri (təkmilləşdirdi və zəiflərə izzət, şərəf bağışladı.(١

İmam Sadiq (ə) buyurur: İmam Zeynülabidin (ə) İmam Həsənin (ə) kənizi ilə evləndi. .٣ Bu xəbər Əbdül-məlik ibn Mərvanın qulağına çatdı. O, İmama bir məktub yazaraq belə !dedi: Sən artıq kənizlərin əri olmusan

İmam Zeynülabidin (ə) ona belə cavab yazdı: " Allah-taala islam dini ilə kiçikləri ucaltdı, əskikləri təkmilləşdirdi və zəiflərə izzət, şərəf bağışladı. Deməli, heç bir müsəlman (digərindən) əskik deyil. Doğrusu əsl əskiklik, cahiliyyət eybidir! Allahın rəsulu (s) öz ".nökərini evləndirdi və kənizi ilə ailə həyatı qurdu

Məktub Əbdül-məlikin əlinə çatan kimi ətrafındakı insanlara dedi: Mənə deyin görüm, başqalarını əskildən işləri əncam verdikdə, daha da izzət və şərəf sahibi olan kişi "?kimdir

(Dedilər: Əlbəttə ki, möminlərin əmiri!(٢

!Dedi: Yox, Allaha and olsun ki, belə deyil

!Biz möminlərin əmirindən başqasını tanımırıq _

Yox, Allaha and olsun ki, belə deyil! Bu şəxs möminlərin əmiri deyil, Əli ibn _ (Hüseyndir.(٣



---

.əl-Kafi, c. ٥, səh. ٣۴۴; Dəaimül-islam, c. ٢, səh. ١٩٨ . [١]-١
.(.Məqsədləri Əbdül-məlik idi. (Mütərcim . [٢]-٢
.əl-Kafi, c. ٥, səh. ٣۴۶; Biharül-ənvar, c. ۴۶, səh.١٠٥; Təhzibül-əhkam, c. ٧, səh. ٣٩٧ . [٣]-٣

۴. İmam Sadiq (ə) buyurur: Peyğəmbər (s) Miqdadı Zübeyr ibn Əbdül-mütəllibin qızı Zübaə ilə evləndirdi ki, evliliklərdəki (mühüm sayılan varlı-kasıb) səthi aradan qalxsın. Camaat Peyğəmbərdən (s) nümunə, ülgü götürsün. Bu, sizin Allah yanında ən hörmətli olanınızın Allahdan ən çox qorxanınız (pis əməllərdən ən çox çəkinəniniz) olduğunu bilməyiniz üçündür. Zübeyr Peyğəmbərin (s) atasının və Əbdül-mütəllibin qardaşı idi.(۱)

### QARŞILIQLI MƏHƏBBƏT

۱. Qurani-kərim: "Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda (dostluq) sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda (bu yaradılışda) düşünən bir qövm üçün ibrətlər vardır!".(۲)

۲. Allahın rəsulu (s) buyurur: "Mömin həyat yoldaşının istəyi ilə yemək yeməlidir. Həyat yoldaşı da onun istəyi ilə yemək yeməlidir".(۳)



---

۱- [۱] . əl-Kafi, c. ۵, səh. ۳۴۴; Təhzibül-əhkam, c. ۷, səh. ۳۹۵; Biharül-ənvar, c. ۲۲, səh. ۲۶۵.
۲- [۲] . Rum, ۲۱.
۳- [۳] . Üsuli-kafi, c. ۴, səh. ۳.

## SƏKKİZİNCİ HİKMƏT. EVLƏNMƏK İSTƏDİKDƏ

### ?HANSI QADINLA EVLƏNƏK

?HANSI QADINLA EVLƏNƏK

١ . Qurani-Kərim: "...Təmiz qadınlar təmiz kişilərə, təmiz kişilər də təmiz qadınlara layiqdirlər".(١)

٢. Qurani-Kərim: "Sizə halal olan qadınlarla nikah bağlayın".(٢)

٣ . Bir kişi evlənmək barəsində Peyğəmbərlə (s) məsləhətləşdi. Allahın rəsulu (s) buyurdu: "Ailə qur, amma dindar (dinə əməl edən imanlı) qadınla. Allah xeyrini versin. Ləyaqətli qadın əsəm(٣) qarğasına bənzəyir. Onu tapmaq çox çətindir". Kişi soruşdu: "Əsəm qarğası nədir?" Həzrət Peyğəmbər (s) buyurdu: "Bir ayağı ağ olan qarğa".(٤)

٤. Allahın rəsulu (s): "Öz nütfələriniz(٥) üçün (yaxşı



---

١-[١] . Nur surəsi, ayə ٢۶.

٢-[٢] . Nisa surəsi, ayə ٣.

٣-[٣] . Qarğa növü.

۴-[۴] . İzdivac dər İslam, səh. ۵٩.

۵-[۵] . Sperma.

bətn) seçin. Çünki qadınlar qardaşlarına və bacılarına oxşar övladlar dünyaya gətirərlər."(1)

5. Allahın rəsulu (s): "Axmaq qadınla evlənməkdən çəkinin. Onunla həyat yoldaşı olmaq fəsada səbəb olar. Övladları kaftar sifətli olar."(2)

6. Allahın rəsulu (s): "Öz nütfələriniz üçün (yaxşı bətn) seçin. Çünki qadınlar qardaşlarına və bacılarına oxşar övladlar dünyaya gətirərlər."(3)

7. Həzrət Əli (ə) buyurur: "Bakirə qızlarla ailə qurun. Çünki onlar daha pak ağıza və (uşaq doğurmaq üçün) daha əlverişli sağlam bətnə sahibdirlər. Onlara tərbiyə vermək, öyrətmək daha asandır. Onlar həyat yoldaşlarına və yaşayışa daha möhkəm bağlanırlar".(4)

8. İmam Sadiq (ə) buyurur: "Məhz iffətli və həyatı asanlaşdıran qız sizin tayınızdır".(5)

9. Peyğəmbər (s): Gənc qızlarla evlənin, çünki gənc yaşda olan qızlar xoşəxlaq olurlar.(6)

10. Peyğəmbər (s): Bu dörd xüsusiyyətə görə qadınlarla evlənirlər: sərvət, dindarlıq, gözəllik və əsil-nəcabət. Sən isə dindarı seç.(7) (Onlardan ən üstün cəhət, qadının dindarlığıdır!).



---

1- [1]. Kənzül-ümmal, hədis 44557.

2- [2]. Biharül-ənvar, c. 103, səh. 237, hədis 35.

3- [3]. Kənzül-ümmal, hədis 44557.

4- [4]. Həmin mənbə, səh. 237.

5- [5]. Biharül-ənvar, c. 100, səh. 372.

6- [6]. əl-Məcaizün-nəbəviyyə, hədis 238.

7- [7]. Kənzül-ümmal: c.16, səh. 303, hədis 44602.

۱۱. Peyğəmbər (s): Əsil-nəcabətli ailədən qız alın, çünki bu (kübarlıq onun həyatı boyu) öz təsirini göstərəcəkdir.(۱)

۱۲. Peyğəmbər (s): Uşaqlarınız üçün layiqli ana seçin; çünki qadın öz bacı və qardaşlarına oxşar övlad dünyaya gətirəcəkdir.(۲)

### HANSI QADINLA EVLƏNMƏYƏK?

۱. Qurani-Kərim: "Allaha şərik qərar verən (Onu inkar edən) qadınlar imana gəlməyincə onlarla evlənməyin! Əlbəttə, Allaha iman gətirmiş bir cariyə, gözəlliyinə heyran olduğunuz müşrik bir qadından daha yaxşıdır. Həmçinin, müşrik kişilər Allaha iman gətirməyənə qədər mö᾽min qadınları (onlara) arvadlığa verməyin! Əlbəttə, Allaha iman gətirən bir kölə camalına məftun olduğunuz müşrik bir kişidən daha xeyirlidir. Onlar (müşrik qadınlar və kişilər) sizi cəhənnəmə səslədikləri halda, Allah sizi öz icazəsi ilə cənnətə, məğfirətə çağırır və yaxşı düşünüb ibrət almaları üçün insanlara hökmlərini aydınlaşdırır".(۳)

۲. Allahın rəsulu (s) buyurur: "Ağılsız qadınla evlənməyin. Onunla yaşamaq ömrü zay etmək deməkdir. Ondan doğulan övlad isə zülmkar və təcavüzkar olacaqdır".(۴)



---

۱- [۱]. Məkarimül-əxlaq: c.۱, səh. ۴۳۲, hədis ۱۴۷۴.
۲- [۲]. Kənzül-ümmal: c.۱۶, səh. ۲۹۵, hədis ۴۴۵۵۷.
۳- [۳]. Bəqərə surəsi, səh. ۲۲۱.
۴- [۴]. Biharül-ənvar, c. ۱۰۳, səh. ۲۳۲-۲۳۷.

۳. Allahın rəsulu (s): "Xarabalıqda bitən çiçəklərdən uzaq durun." Dedilər: " Xarabalıqda bitən çiçəklərdən məqsədiniz nədir?" Buyurdu (s): "Pozğun ailədə böyümüş gözəl simalı qız."(۱)

۴. Allahın rəsulu (s) buyurur: "Zibillikdə bitən çiçəyi dərməkdən çəkinin. "Zibillikdə bitən çiçəkdən məqsədiniz nədir?"-deyə soruşdular. Peyğəmbər (s) buyurdu: "Səviyyəsiz (əzlaqsız) ailədə tərbiyə alan gözəl qız".(۲)

۵. Allahın rəsulu (s) buyurur: "Axmaq qadınla evlənməkdən çəkinin. Onunla həyat yoldaşı olmaq fəsada səbəb olar. Övladları da kaftar sifətli olar."(۳)

۶. Allahın rəsulu (s) buyurur: Axmaq qadınla evlənməkdən çəkinin, çünki onunla birlikdə yaşamaq əzab-əziyyət və övladları da zay olacaq.(۴)

۷. Allahın rəsulu (s) buyurur: Qadının zahiri gözəlliyini, imanının gözəlliyinə tərcih verməyin.(۵)

۸. Allahın rəsulu (s) buyurur: Axmaq kişiyə qız verin, amma axmaq qadınla evlənməyin. Çünki axmaq kişidən ağıllı və şuurlu övlad dünyaya gələr. Amma axmaq qadın ağıllı və dərrakəli ölad dünyaya gətirməz.(۶)



---

۱- [۱]. Biharül-ənvar, c. ۱۰۳, səh. ۲۳۲, hədis ۱۰.

۲- [۲]. Həmin mənbə.

۳- [۳]. Biharül-ənvar, c. ۱۰۳, səh. ۲۳۷, hədis ۳۵.

۴- [۴]. əl-Cəfəriyyat, səh. ۹۲; Nəvadir, səh. ۱۱۶; əl-Kafi, c. ۵, səh. ۳۵۳; Təhzibül-əhkam, c. ۷, səh. ۴۰۶.

۵- [۵]. əl-Firdəvs, c. ۵, səh. ۲۱۷; Kənzül-ümmal, c. ۱۶, səh. ۳۰۱.

۶- [۶]. əl-Kafi, c. ۵, səh. ۳۵۴; Təhzibül-əhkam, c. ۷, səh. ۴۰۶; Mən la yəhzərühül-fəqih, c. ۳, səh. ۵۶۱.

## !EVLƏNƏCƏYİN QADINLA GÖRÜŞ

۱. Mügeyrə ibn Çöbə bir qadınla evlənmək istəyirdi. Peyğəmbər (s) ona buyurdu: Get onunla görüş. Çünki bu sizin aranızda məhəbbət yaradar.(۱)

۲. Allahın rəsulu (s) buyurur: Hər kim bir qadınla evlənmək istəyirsə, bu qadındakı onu evlənməyə sövq edən bir sıra bədən üzvlərini görə bilər.(۲)

۳. Allahın rəsulu (s) buyurur: Sizlərdən hər kim, evlənmək istədiyi qadına elçi getdikdə, bacarırsa bu qadındakı onu evlənməyə sövq edən bir sıra bədən üzvlərini görsün.(۳)

۴. "Səhihi-Müslim": Əbu Hüreyrə rəvayət edir: Peyğəmbərin (s) yanında idim. Elə bu zaman bir kişi onun hüzuruna gəlib, dedi ki; ənsardan olan bir qadınla evlənmişəm. Peyğəmbər (s) buyurdu: "Onu görmüsənmi?"

Dedi: Xeyir.

Buyurdu: "Get, onu gör."(۴)

## !EVLƏNƏCƏYİN QADINA DİQQƏT ET

۱. İbrahim deyir: "İmam Sadiqə (ə) dedim: "Həyat yoldaşım, könül həmdəmim, həyatımda məni daşa düşən (uygunlaşan) yeganə qadın dünyasını dəyişib. İndi ailə qurmaq istəyirəm. Həzrət (ə) buyurdu: "Çox



---

۱-[۱]. Sünəni-ibn Macə, c. ۱, səh. ۵۹۹; Sünəni-Tirmizi, c. ۳, səh. ۳۹۸.

۲-[۲]. Əvaliyül-lai, c. ۳, səh. ۳۱۴; Sünəni-Əbi Davud, c. ۲, səh. ۲۲۸.

۳-[۳]. Sünəni-Əbi Davud, c. ۲, səh. ۲۲۹; Müsnədi-ibn Hənbəl, c. ۵, səh. ۹۱.

۴-[۴]. Səhihi-Müslim, c. ۲, səh. ۱۰۴ ; Sünəni-Nəsai, c. ۶, səh. ۷۷.

diqqətli ol. Bax gör, özünü kimə tapşırırsan, kimi öz var-dövlətinə şərik edir, onu dinindən, sirrindən və əmanətindən agah edirsən. Evlənməkdsən başqa çarən olmasa, özünə əxlaqlı, iffətli həyat yoldaşı tap".(١)

٢. İmam Sadiq (ə buyurur: "Qadın, sanki bir boyunbağıya bənzəyir. Həyatında hansı boyunbağını daşıyacağına diqqət yetir".(٢)

### PULA XATİR QIZ ALMAMAQ

١. Məhəmməd Peyğəmbər (s) buyurur: "Həyat yoldaşınızı var-dövləti və gözəlliyi üçün seçməyin. Çünki onun sərvəti harınlığına, gözəlliyi isə onun məhvinə yol açar. Evlənərkən qadının iman və dinini meyar qərar verin".(٣)

٢. Peyğəmbər (s) buyurur: Qadının təkcə gözəlliyinə görə evlənən, heç bir məqsədinə çatmayacaq. Təkcə sərvətə görə evlənəni, Allah onu özbaşına duraxar. Belə olduğuna görə, dindar qadınla evlənin.(۴)

### DİNDAR QADINLA EVLƏNMƏK

١. Allahın rəsulu (s): "Kim qadının gözəlliyinə görə onunla ailə qursa, öz qəlbinin istədiyini onda tapmayacaq. Kim qadınla onun sərvəti üçün evlənsə



---

١- [١]. Biharül-ənvar, c. ١٠٠, səh. ٢٣٢.
٢- [٢]. Biharül-ənvar, c. ١٠٠, səh. ٢٣٣.
٣- [٣]. Müstədrəkül-vəsai, «Nikah» ١٣-cü bölümü.
۴- [۴]. Bəharül-ənvar: c.١٠٣. səh٢٣۵, hədis ١٩.

Allah-taala onu həmin mal-dövlətdən asılı edər. Əsl həqiqətdə, sizə dindar qadınlarla evlənməyi məsləhət görürəm."(۱)

۲. Allahın rəsulu (s): "Qadının üzünün gözəlliyini, onun dindarlığının gözəllıyından üstün saymaq olmaz."(۲)

### BAKİRƏ QIZLARLA EVLƏNMƏK

۱. Allahın rəsulu (s) buyurur: Bakirə qızlarla ailə qurun. Çünki onlar daha ətirli (pak) ağıza, daha südlü sinələrə, daha gözəl əxlaqa və (uşaq doğurmaq üçün) daha əlverişli sağlam bətnə sahibdirlər. Bilmirsinizmi ki, mən qiyamət günü ümmətimin çoxluğuna görə başqalarının yanında qürrələnəcəyəm? Hətta siqt olmuş kusgün və narahat körpəniz belə behiştin qapısına dayanacaqdır. Allah-taala ona belə buyurar: "Behiştə daxil ol!" Amma o, "Xeyir."- deyə cavab verər. "Atam-anam məndən öncə behiştə daxil olmayana qədər, mən buraya girmərəm."-söyləyər. Sonra Allah-taala mələklərindən birinə "Bunun ata-anasını mənim yanıma gətirin!"- deyə əmr edər. Ardınca onların da behiştə daxil edilməsinə göstəriş verər. Sonra buyurar: Bu mənim sənə etdiyim lütf və mərhəmətdir!"(۳)

۲. Cabir ibn Abdullah rəvayət edir: Allahın elçisi (s)



---

۱- [۱]. Biharül-ənvar, c.۱۰۳, səh. ۲۳۵, hədis ۱۹.

۲- [۲]. Kəzül-ümmal, hədis ۴۴۵۹۰.

۳- [۳]. Təhzibül-əhkam", ۷۴۰۰; "Ət-Tövhid", səh. ۳۹۵; "Əvaliyil-lai", ۳۲۸۷.

ilə birlikdə səfərə çıxmışdıq. Qayıdarkən mən tələsik şəkildə ondan ayrıldım və getdim. Bir miqdar getmişdim ki, arxadan bir süvarinin mənə yaxınlaşdığını gördüm. Qayıtdım, onun Peyğəmbər (s) olduğunu gördüm. Üzünü mənə tutub, buyurdu: "Nə üçün "?məndən ayrılırkən belə tələsirdin, ey Cabir

.Dedim: Mən yenicə evlənmişəm

"?Bakirə qızla evlənmisən, yoxsa dul qadınla" -

.Dul qadınla -

(Nə üçün bakirə qızla evlənmədin...?"(١" -

Aişə rəvayət edir: Dedim: Ey Allahın elçisi! Bir vadiyə endikdə orada iki ağac görsən, .٣ birinin meyvəsi dərilmiş, amma digərinin meyvəsinə toxunulmamış olsa, dəvələrinin ?hansı ilə yemlənməsini istəyərsən

".Peyğəmbər (s) buyurdu: "Meyvələri dərilməmiş ağacdan

Aişənin məqsədi bu idi ki, Allahın elçisinin (s) ondan başqa heç bir bakirə qadın (almadığını bildirsin.(٢

## DUL QADINLA EVLƏNMƏK

Cabir rəvayət edir: Bir qadınla evəndim. Peyğəmbər (s) mənə buyurdu: "Ey Cabir, ailə "?qurmusanmı

.Dedim: Bəli



---

Sünəni-Darəmi, c. ٢, səh. ٥٨٥; Səhihi-Buxari, c. ٥ , səh. ١٩٥٤; Kənzül-ümmal, c. ١٦, . [١] -١ .səh. ٥٠٠

Səhihi-Buxari, c. ٥, səh. ١٩٥٣; Səhihi-ibn Həbban, c. ٥, səh. ١٧٤; əs-Sünənül-kübra, . [٢] -٢ .c. ٧, səh. ١٣٠

"?Bakirə qızla evlənmisən, yoxsa dul qadınla" –

.Dul qadınla –

"?...Nə üçün bakirə qızla evlənmədin" –

Atam rəhmətə getdi, evimizdə yeddi (ya doqquz) balaca qız övladı yetim qaldı. Mən-istəmədim ki, onlar kimi başqa bir qız da onlara qoşulsun. İstədim ki, elə bir qadınla .evlənim ki, onlara başçılıq, hamilik etsin

Afərin sənə!(۱) (Şübhəsiz, normal vəziyyətdə bakirə qız almaq daha məsləhətə – uyğundur. Lakin bəzi hallar da olur ki, dul qadınla evlənmək məntiqli bir iş sayılır. Necə .(ki, həmin hədisdə oxuduq

### NİKAHDAN ÖNCƏ QIZA BAXMAQ

Məhəmməd ibn Müslüm deyir: "İmam Baqirdən (ə) soruşdum: "Ailə qurmaq istəyən .۱ şəxs, istədiyi qızı görə bilərmi?" Həzrət (ə) buyurdu: "Bəli! Çünki çox baha qiymətə (alır,(۲) nə üçün onu görmək haqqına sahib olmasın?!"(۳

Həzrət Peyğəmbər (s) bir qadınla ailə quran Müğeyrə ibn Şöbəyə buyurur: "Əgər .۲ (evlənməmişdən öncə onu görsəydin, indi daha çox səmimi olardınız".(۴

Həsən deyir: "İmam Sadiqdən (ə) soruşdum: "Kişi .۳

səh:۱۲۳

---

Səhihi-Buxari, c. ۵, səh. ۲۳۴۷; Tarixi-Dəmeşq, c. ۱۱, səh. ۲۲۹; Kənzül-ümmal, c. ۱۶, . [۱] -۱ .səh. ۵۰۰

.Yəni, həyatını ona həsr edir . [۲] -۲

.Vəsailüş-şiə, «Nikahın müqəddiməsi» ۳۶-cü bölüm . [۳] -۳

.Həmin mənbə; İzdivac dər İslam, ۴۷ . [۴] -۴

evlənməmişdən qabaq qadına diqqətlə baxa bilərmi? Qadının arxasına, çöhrəsinə nəzər sala bilərmi?" Həzrət (ə) buyurdu: "Bəli, evlənmək istədiyi qadının arxasına və simasına baxmasının heç bir eybi yoxdur".(١)

٤. Bir şəxs İmam Sadiqdən (ə) soruşdu: "Kişi evlənmək istədiyi qadının saçını və başqa gözəlliklərinə baxa bilərmi?" Həzrət (ə) buyurdu:

"Qadının gözəlliklərini anlamaq, bu barədə məlumatlı olmaq məqsədi ilə olarsa, heç bir eybi yoxdur".(٢)

٥. İmamdan(ə) soruşuldu: "(Evlənmək istədiyi) qadın kişinin ona baxması üçün onun qarşısında dayana bilərmi? Həzrət(ə) buyurdu: "Bəli, hətta bu məqsədlə nazik paltar geyinməyin də eybi yoxdur".(٣)

### EVLƏNƏCƏYİN QADININ ZAHİRİ GÖZƏLLİYİ

١. Həzrət Peyğəmbər (s) buyurur: "Sizlərdən hər biriniz hansısa qadınla ailə qurmaq fikrinə düşdükdə (amma onu görmək mümkün olmadıqda), çöhrəsi haqqında araşdırdığınız kimi, saçı barəsində də, araşdırın. Çünki saç da (qadının əsas) gözəlliklərindən biri sayılır".(٤)

٢. Məhəmməd Peyğəmbər (s) bir qadına elçi gedən səhabəsinə buyurdu: "Onun üzünə və əllərinə bax".(٥)



---

١-[١] . Vəsailüş-şiə, ٣۶-cı bölüm.

٢-[٢] . Həmin mənbə.

٣-[٣] . Həmin mənbə.

٤-[٤] . Həmin mənbə, səh. ٢٣٧.

٥-[٥] . Həmin mənbə; İzdivac dər İslam, səh. ٤٩.

## KİŞİLƏR QADINLARLA İMTAHAN OLUNURLAR

Qurani-Kərim: "Qadınlar, uşaqlar, qızıl-gümüş yığınları, yaxşı cins atlar, mal-qara və .۱ əkin yerləri kimi nəfsin istədiyi və arzuladığı şeylər insanlara gözəl göstərilmişdir. Lakin bütün bunlar dünya həyatının keçici zövqüdür, gözəl dönüş yeri isə Allah yanındadır.

Ya Məhəmməd!) Söylə ki, sizə bunlardan (dünya zinətlərindən) daha yaxşısını xəbər ) verimmi? Allahdan qorxub çəkinənlər üçün Rəbbin yanında (ağacları) altından çaylar axan cənnətlər (bağlar) vardır ki, orada əbədi qalacaqlar. Onlardan ötrü orada hər cür eyibdən pak olan zövcələr və (ən böyük ne'mət olan) Allah rizası (razılığı, hüsn-rəğbəti) vardır. Allah, həqiqətən, bəndələrini görəndir!".(۱)

Allahın Peyğəmbəri (s) buyurur: "İblisin ən böyük ordusu qadınlardan və qəzəbdən .۲ ibarətdir."(۲)

İmam Əli (ə) buyurur: "Qadınlara vurğun olmaqdan və dünya bər-bəzəklərinə, . ۳ nemətlərinə hərislikdən çəkinin. Çünki qadınlara məftun olan şəxs əzab-əziyyət və möhnət içində yaşayar, ləzzətlərə həris olan insan isə xar-zəlil olar."(۳)

İmam Baqir (ə) buyurur: "Allahın rəsulu (s) bir dəstə (dar düşüncəli) qadının yanından .۴ keçərkən, onlara belə dedi: "Mən aqillərin (kişilərin) ağlını



---

[۱]-۱ . Ali-İmran surəsi, ayə ۱۴-۱۶.

[۲]-۲ . Qürərül-hikəm, hədis. ۲۷۲۱.

[۳]-۳ . Biharül-ənvar, c.۴۳, səh. ۱۲۳.

əlindən alan sizin kimi dar düşüncəli (hisslərinə daha tez məğlub olan) insanlar görmədim. Mən sizin əzabınızın bütün cəhənnəm əhlinin əzabından daha ağır olduğunu müşahidə etdim. Sizə ciddi şəkildə tapşırıram, imanınızı kamil edin, ilahi mərifət qazanıb və yüksək mənəvi və insani keyfiyyətlərlə zinətlənərək Allah-taalaya yaxınlaşın".(۱)

İmam Sadiq (ə) buyurur: "Günahın ilkin mərhələsi altı xislətə söykənir: ۵. Dünyapərəstlik, vəzifəpərəstlik, yatağanlıq, qadınpərəstlik (şəhvətpərəstlik), qarınquluInuq və rahatlığa çox meylli olmaq(tənbəllik)".(۲)

### KİŞİ QADININ İXTİYARINDA OLMAMALI

Allahın rəsulu (s): "Öz işlərinin cilovunu (tam şəkildə) qadınların əlinə verən (onların həvəsləri ilə oturub-duran) kişi, heç vaxt nicat tapmaz."(۳)



---

۱- [۱] . Vəsailüş-şiə, «Nikahın müqəddiməsi» bölümü.

۲- [۲] . Həmin mənbə.

۳- [۳] . Nəhcül-bəlağə, ۳۱.

## DOQQUZUNCU HİKMƏT.QADINLA BAĞLI ŞƏRİ VƏZİFƏLƏR

### BAŞQASININ QADININA GÖZ QOYMAMAQ

۱. İmam Sadiq (ə): "Camaatın arvadlarına qarşı iffətli olun ki, sizin həyat yoldaşlarınıza qarşı da qeyrətli olsunlar."(۱)

۲. Məsih (ə): "Sənə aid olmayan heç bir qadına gözünü zilləmə. Çünki gözünü (naməhrəmlərə şəhvətlə baxmaqdan) saxlayanadək, zina etməyəcəksən. Əgər bacarırsansa hətta naməhrəm qadının geyiminə belə baxma."(۲)

۳. Peyğəmbər (s): Hər bir müsəlman kişi, ilk baxışda gözəl qadın gördükdə tez gözünü çəksə, (ikinci dəfə ona baxmasa,) Allah həmin kişiyə bir ibadət (qüdrəti) əta edər ki, şirinliyini dadsın.(۳)



---

۱- [۱] . əl-Xisal, səh.۵۵, hədis ۷۵.

۲- [۲] . Tənbihül-xəvatir, c. ۱, səh. ۶۲.

۳- [۳] . Müsnədi-ibn Hənbəl, c. ۸, səh. ۲۹۹, hədis ۲۲۳۴۱.

## !ÖZGƏ QADIN ÖZGƏDİR

İmam Əli (ə) öz səhabələrinin arasında oturmuşdu və onların yanından gözəl bir .١ qadın keçdi. Səhabələri ona baxdılar. O Həzrət (ə) (qadınlara baxmaqdan çəkindirərək belə) buyurdu: Bu kişilərin gözləri (sanki qızğın dəvə kimi) şəhvətə bərəlir və belə baxışlar şəhvət və ehtirasların coşmasına və oyanışına gətirib çıxarır. Bunun üçün də hər kəs onun zövqünü oxşayan bir qadın müşahidə etdikdə, gedib öz həyat yoldaşı ilə (cinsi əlaqədə olsun. Çünki o da başqa qadınlar kimi bir qadındır.(١

Həzrət Əli(ə): Naməhrəm bir qadının gözəlliyi sizi özünə cəlb etdikdə, dərhal öz həyat .٢ yoldaşınızın yanına gəlin. Çünki Allah-taala gördüyünüz naməhrəm qadına əta etdiklərini sənə məhrəm olan qadınına da vermişdir. Beləliklə də, naməhrəm qadını izləməyi bir kənara atıb, öz həyat yoldaının yanına germək, şeytanın sizin qəlbinizi ələ (keçirməsini əngəlləyər.(٢

İsa (ə): Sənin üçün halal olmayana heyrətlə baxma. Gözlərini naməhrəmə . ٣ baxmaqdan qorusan pozğunluğa düçar olmazsan. Bacarsan, naməhrəm qadının heç (paltarına da baxma.(٣

## ...BAŞQASININ QADININA VURULDUNSA

Allahın Peyğəmbəri (s): "Hər kim (başqasının



---

.Nəhcül-bəlağə, səh. ٣٨٩-۴٩٠ . [١]-١
.Biharül-ənvar, c. ١٠٠, səh. ٢٨٧ . [٢]-٢
.Tənbihül-xəvatir, c. ١, səh. ۶٢ . [٣]-٣

qadınına) aşiq olduqda, öz eşqini gizlətsə, iffətli olsa və bu halda ölərsə, o, şəhid sayılır."(۱)

## ÖZGƏ QADINLA SALAMLAŞMAQ

İmam Sadiq (ə) buyurur: Peyğəmbər (s) qadınlara həm salam verirdi, həm də salamlarına cavab verirdi. Əmirəlmöminin (ə) isə qadınlara salam verirdi, lakin cavan qadınlarla salamlaşmaqdan heç xoşu gəlmirdi. Buyururdu: "Qorxuram ki, səsindən xoşum gələ və mükafatlanmaq əvəzinə, günaha girəm.(۲)

## NAMƏHRƏM QADIN OLAN YER

۱. Peyğəmbər (s): Allah-taalaya və axirətə iman bəsləyən şəxs, naməhrəm qadının onun nəfəsini eşidə biləcəyi məkanda yatmamalıdır.(۳)

۲. İmam Sadiq (ə): "Harada qadın və kişi tənha qalırlarsa, orada üçüncü (şəxs) şeytan olur".(۴)

## QADIN VƏ HİCAB

۱. Qurani-Kərim: "Ya Peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin övrətlərinə de ki, çarşablarını örtsünlər. Bu onların tanınması və onlara əziyyət verilməməsi üçün daha münasibdir. Allah bağışlayan və rəhm edəndir".(۵)



---

۱- [۱]. Kəzül-ümmal, hədis ۷۰۰۰.

۲- [۲]. əl-Kafi, c. ۲, səh.۶۴۸, hədis ۱.

۳- [۳]. Biharül-ənvar, c. ۱۰۴, səh. ۵۰, hədis۱۶.

۴- [۴]. Kitabi mən la yəhzərühül-fəqih, c. ۳, səh. ۲۵۲, hədis ۳۹۱۳.

۵- [۵]. Əzhab surəsi, ayə ۵۹.

Öz-özlüyündə görünən (əl, üz istisna olmaqla) zinətlərini (zinət yerləri olan boyun,..." .۲ boğaz, qol, ayaq və s.) naməhrəmə göstərməsinlər; baş örtüklərini yaxalarının üstünə çəksinlər; zinət yerlərini ərlərindən, yaxud öz atalarından, yaxud ərlərinin atalarından, yaxud öz oğullarından, yaxud ərlərinin oğullarından, yaxud öz qardaşlarından, yaxud qardaşlarının oğullarından, yaxud bacılarının oğullarından, yaxud öz (müsəlman) qadınlarından, yaxud sahib olduqları cariyələrdən, yaxud kişiliyi olmayan xidmətçilərdən, yaxud qadınların məhrəm yerlərini hələ anlamayan uşaqlardan başqasına göstərməsinlər; gizlətdikləri bəzək əşyalarını göstərmək üçün ayaqlarını (yerə və ya bir-birinə) vurmasınlar. Ey mö'minlər! Hamınız Allaha tövbə edin ki, bəlkə, (nicat tapasınız".(۱)

İmam Baqir (ə): Ənsardan olan cavan oğlan, Mədinədə bir qadınla üzbəüz çıxdı. O .۳ zaman qadınlar başılarını (örtüklərini) qulaqlarının arxasından bağlayırdılar. Qadın ona tərəf gələndə oğlan qadına baxmağa başladı. Qadın onun yanından gəlib keçdi və oğlan qadının arxasınca bəni filan (küçənin adı naməlumdur) küçəyə daxil oldu ki, hələ də dönüb, dalınca baxırdı. Sifəti divardakı şüşəyə, ya sümüyə bərk dəydi, parçalandı. Qadın çıxıb gedəndən sonra, gördü ki, üstü-başı qan içindədir. Öz-özünə dedi: Allaha and olsun, Peyğəmbər (s)-ın yanına gedib başıma gələnləri ona



---

.Nur surəsi, ayə ۳۱ . [۱]-۱

danışacağam. O Peyğəmbər (s)-ın yanına gəldi. Peyğəmbər (s) onu bu vəziyyətdə görüb soruşdu: "Nə üçün bu haldasan?"

Cavan olan hadisəni danışdı. Elə bu vaxt Cəbrayil (ə) nazil oldu və bu ayəni gətirdi: "Mömin kişilərə de ki, gözlərini haram edilmiş şeylərdən çevirsinlər (naməhrəmə baxmasınlar), ayıb yerlərini (zinadan) qorusunlar (və ya örtülü saxlasınlar). Bu onlar üçün (ədəb-ərkan, təmizlik baxımından) daha yaxşıdır. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır!"(١).(٢)

### QADINLAR ÜÇÜN DAHA XEYİRLİ

١. Həzrət Əli (ə) buyurur: "Allahın elçisi (s) xalqa buyurdu: "Qadınlar üçün nəyin daha yaxşı olduğunu mənə söyləyin". Həzrət Fatimə (s) cavab verdi: "Onlar kişiləri, kişilər də onları görməsinlər (kişilərin gözü qabağında olmasınlar). Əxlaqi və şəri məsələlərə qarşı etinasız olmasınlar". Həzrət Peyğəmbər (s) bu cavaba eşitdikdə, heyrətlə buyurdu: "Fatimə mənim bədənimin bir parçasıdır".(٣)

٢. Bir gün səhabələr Peyğəmbərin (s) hüzurunda gəldilər. Həzrət (s) onlardan soruşdu: "Qadın üçün ən yaxşı şey nədir?"

Heç kəs düzgün cavab verə bilmədi. Həzrət Əli



---

١- [١] . Nur: ayə ٣٠.

٢- [٢] . əl-Kafi, c. ٥, səh. ٥٢١, hədis ٥.

٣- [٣] . Biharül-ənvar, c. ١٠٠, səh. ٢٣٨.

ə) Peyğəmbərin (s) sualını Fatimədən (s) soruşdu. Fatimə (ə) buyurdu: "Qadın üçün ən) yaxşı şey odur ki, özgə kişiləri görməsin və özgə kişilər də onu görməsin (kişilərin gözü ."(qabağında olmasınlar

Peyğəmbər (s) bu sözləri eşidəndə sevindi, cavabı bəyəndi və buyurdu: "Fatimə (ə) (mənim bədənimin yarısıdır".(١)

## QADIN VƏ HƏYA

١. Qurani-Kərim: "Mömin qadınlara da de ki, gözlərini haram buyurulmuş şeylərdən (çevirsinlər, ayıb yerlərini qorusunlar".(٢)

٢. Allahın rəsulu (s) buyurur: "Allah-taala daim öz zövqünü (həyat yoldaşını) dəyişən kişi (və qadınları düşmən sayar və Öz mərhəmət nəzərini onlardan uzaq tutar."(٣)

٣. Peyğəmbər (s) buyurur: Ərli qadın, ərindən başqsına ya naməhrəmə şəhvətlə baxsa, Allah-taalanın qəzəbinə gələr. Belə hərəkət edən qadın hər nə yaxşı iş görübsə, Allah o (işi puç edər.(۴)

۴. Allahın rəsulu (s) buyurur: "Ərli qadının gözündə ərindən başqa bir kişi olarsa, Allah-taala ona qəzəblənər və bütün yaxşı əməllərini məhv edər. Əgər ərinə xəyanət edərsə, Allah-taalanın haqqıdır ki, ona qəbir



---

١-[١]. Kəşfül-ğəmmə, c. ٢, səh.٩٢.

٢-[٢]. Nur surəsi, ayə ٣١.

٣-[٣]. əl-Kafi, c. ۶, səh. ۵۴, hədis١.

۴-[۴]. Səvabül-əmal, hədis. ٣٣٨.

(əzabı verdikdən sonra cəhənnəm odunda yandırsın."(١

İmam Sadiq (ə) buyurur: Həya on hissədən ibarətdir: Doqquzu qadınlarda, biri isə .۵ (kişilərdədir.(٢

İmam Sadiq (ə) buyurur: "Sizin qadınlarınızın ən yaxşısı, əri ilə xəlvətdə (intim .۶ əlaqədə) olarkən geyimlərini əynindən çıxarmaqla, öz ərinin qarşısında həya pərdəsini (də kənara tullasın. Sonra geyindikdə isə təkrar həya pərdəsinə bürünsün".(٣

Sünəni-Əbi Davud: Həmzə ibn Ədu Üseyd Ənsarı atasının vasitəsilə, Allahın .٧ elçisindən (s) nəql edir: (Qadın və kişilərin məsciddən çıxarkən yol boyu bir-birilərinə qarışdığını müşahidə edən) Allahın rəsulu (s) qadınlara buyurdu: "Səbirli olun, tələsməyin! Yolun tən ortası ilə hərəkət etməyiniz xoşagəlməz haldır. Yolun kənarı ilə (hərəkət edin."(۴

## ?QADIN NƏYİ ƏRİNƏ DANIŞMAMALI

Allahın rəsulu(s) buyurur: "Bir qadın, başqa qadının cismi xüsusiyyətləri və məhrəm (yerləri haqqında öz ərinə danışarsa, sanki əri o qadının bədənini görmüşdür".(۵



---

.Biharül-ənvar, c.٧۶,səh. ٣۶۶, hədis ٣٠ . [١]-١

.Kitabi-mən-layəhzərühül-fəqih, c. ٣, səh. ۴۶٨, hədis ۴۶٣٠ . [٢]-٢

.İzdivac dər İslam, səh. ۶٧ . [٣]-٣

Sünəni-Əbi Davud, c. ۴, səh. ٣۶٩, həd. ۵٢٧٢; əl-Möcəmül-kəbir, c. ١٩, həd. ٢۶١, həd. . [۴]-۴ .۵٨٠; Təfsiri-ibn Kəsir, c. ۶, səh. ۵٣; Kənzül-ümmal, c. ١۶, səh. ٣٨٨, həd. ۴۵٠٣۶

.Təfsiri- ibn Kəsir, c.٣, səh. ٢٨۴ . [۵]-۵

## QADININ TİCARƏT ETMƏSİ

Peyğəmbər (s) buyurur: Halal (yoldan) ruzi qazanmaq hər bir müsəlman qadın və kişiyə vacibdir.[1]

## QADININ İRS APARMASI

١. Qurani-Kərim: "Ata, ana və yaxın qohumların (vəfat etdikdə) qoyub getdikləri maldan kişilərə və qadınlara pay düşür. Həmin malın azından da, çoxundan da (bunlara veriləcək) hissə müəyyən edilmişdir".[2]

٢. Qurani-Kərim: "Mö'min olub yaxşı işlər görən kişi və qadına (dünya və axirətdə) xoş həyat nəsib edəcək və etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik".[3]

## QADININ HÜQUQU QORUNMALI

١. Qurani-Kərim: " (Kişilərin qadınlar) üzərində şəriətə görə hüquqları olduğu kimi, (qadınların da) onlar (kişilər) üzərində hüquqları vardır. Ancaq kişilər (daha artıq əziyyətə qatlandıqları üçün) onlardan bir dərəcə üstündürlər. Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir."[4]

٢. Allahın rəsulu (s) buyurur: "Cəbrayıl mənə o qədər qadınların hüquqlarını tapşırdı ki, onları boşamağın sanki haram olduğunu düşündüm. Onlarla ailə qurun, ancaq talaq verməyin. Çünki



---

١-[١]. Biharül-ənvar, c.١٠٣, səh.٩, hədis ٣۵.
٢-[٢]. Nisa surəsi, ayə ٧.
٣-[٣]. Nəhl surəsi, ayə ٩٧.
۴-[۴]. Bəqərə surəsi, ٢٢٨.

(talaq verildikdə (bir ailə dağıldıqda) Allah-taalanın ərşi lərzəyə gələr."(١)

٣. Allahın rəsulu (s) buyurur: "Cəbrayıl daima mənə qadınlar(ın hüququnu riayət etmək) haqqında bəhs edərdi. Nəticədə, elə düşündüm ki, pozğunluğu sübut olunmadan, qadına talaq verməmək olmaz."(٢)

٤. Bir şəxs Peyğəmbərdən (s) qadın hüququ haqqında soruşduqda, o həzrət belə buyurdu:

"Qardaşım Cəbrail (ə) qadın hüququnun qorunması haqda o qədər mənə tapşırdı ki, kişinin ona sanki "uf" deməsinə belə haqqı olmadığını düşündüm".(٣)

### MEHRİYYƏ QADININ HAQQI

١. "(Ey kişilər,) onlara (qadınlarınıza) verdiyinizdən (kəbin haqqından, mehriyyədən) bir şey tələb etməniz sizə halal olmaz".(٤)

٢. İmam Sadiq (ə) buyurur: "Oğrular üç qisimdir: zəkat verməyənlər; həyat yoldaşının mehriyyəsini mənimsəməyi özünə halal sayıb onu ödəməyənlər; camaatdan borc alıb, qaytarmaq məqsədi olmayanlar".(٥)

٣. Məhəmməd Peyğəmbər (s) buyurur: "Həyat yoldsaşının mehriyyəsini ödəmək istəməyən (bununla da ona zülm edən) şəxs, Allah-Təlala



---

١- [١]. Nəhcül-fəsahə, səh. ٢٣٠.

٢- [٢]. Biharül-ənvar, c.١٠٣, səh. ٢٥٣, hədis ٥٨.

٣- [٣]. Biharül-ənvar, c. ١٠٣, səh. ٢٥٤, hədis ٦١.

٤- [٤]. Bəqərə surəsi, ayə ٢٢٩.

٥- [٥]. Biharül-ənvar, c. ١٠٠, səh. ٣٤٩.

yanında zinakar sayılır. Qiyamət günü Allah-taala ona belə buyurar: "Ey mənim bəndəm! Mənimlə bağladığın əhdə (kəbinə) görə kənizimi sənə halal buyurdum. (Amma sən) Mənimlə bağladığın əhdü-peymana vəfasızlıq edin. Ona zülm etdin". Sonra qadının taptalanmış haqqı miqdarında kişinin yaxşı əməllərindən alıb, arvadın yaxşı əməlləri üzərinə qoyarlar. Əgər kişinin əməlləri arvadının haqqını ödəməyə yetməzsə, əhdü-peymanına vəfasızlıq etdiyi üçün onu oda atarlar. Əhdü-peyman böyük məsuliyyət tələb edir".(۱)

۴. İmam Rza (ə) ataları vasitəsi ilə Peyğəmbərdən (s) belə nəql edir: "Allah-taala üç günahdan başqa bütün günahları bağışlayar. O üç günah bunlardır: qadının mehriyyəsini ödəməkdən imtina etmək, fəhlənin muzdunu verməmək və azad insanı satmaq ".(۲)

### MEHRİYYƏNİN DƏYƏRİ SADƏ OLMALI

۱. Allahın Peyğəmbəri (s): "Ən yaxşı mehriyyə, ən yüngülüdür."(۳)

۲. Allahın rəsulu (s) buyurur: "Mehriyyələri ağırlaşdırmayın. Eşq-məhəbbəti yaradan məhz mehriban Allahdır. Pul, sərvət və var-dövlət eşq, məhəbbət yaratmır".(۴)



---

۱- [۱]. Biharül-ənvar, c. ۱۰۰, səh-۳۴۹.

۲- [۲]. Həmin mənbə, səh. ۳۵۰-۳۵۱.

۳- [۳]. Kəzül-ümmal, hədis ۴۴۷۰۷.

۴- [۴]. Məcazatün-nəbəviyyə, ۱۸۲.

۳. Allahın rəsulu (s) buyurur: "Qadının gətirdiyi bədbəxtlik mehriyyəsinin çox olması..."(۱)

۴. Allahın rəsulu (s) buyurur: Mehriyyənin miqdarını yüngül edin, çünki kişi qadının mehriyyəsini ödəsə də, (buna görə) qəlbində ona kin saxlayar.(۲)

۵. İmam Əli (ə) buyurur: Mehriyyələrin miqdarını çoxaltmayın. Çünki bu, düşmənçiliyə səbəb olar.(۳)

۶. Həzrət Əli (ə) buyurur: "Mehriyyələrin miqdarını çoxaltmayın. Çünki bu, düşmənçiliyə səbəb olar".(۴)

۷. İmam Rza (ə) buyurur: "Hər hansı bir mömin başqa mömin qardaşının evinə elçi getsə və mehriyyə olaraq beş yüz dirhəm təklif etdikdə, "bu miqdar mehriyyə azdır"-deyə rədd cavabı eşitsə, zülmə məruz qalıb . Belələri (rədd cavabı verənlər) Allah tərəfindən Hüril-eyndən məhrum olunmağa layiqdirlər."(۵)

۸. İmam Baqir (ə) buyurmuşdur: "Bir qadın Həzrət Peyğəmbərin(s) yanına gəlib, dedi: "Məni ərə verin". Allahın rəsulu (s) üzünü camaata tutub, buyurdu: "Kim bu qadını qəbul etməyə hazırdır?" Bir kişi ayağa qalxıb dedi: "Mən". Həzrət (s) buyurdu: "Mehriyyə olaraq nə verəcəksən?" Kişi "Heç bir şeyim yoxdur"-deyə cavab verdi. Həzrət Peyğəmbər(s) buyurdu: "Mehriyyə olmasa olmaz". Həzrət yenə (üzünü



---

۱- [۱]. Müstədrəki-Hakim, «Nikah» kitabı, ۶-۷-ci bölümlər.
۲- [۲]. əl-Müsənnəf, c. ۶, səh. ۱۷۴; ən-Nihayə, c.۱, səh. ۳۸۶.
۳- [۳]. Məkarimül-əxlaq, c. ۱, səh. ۵۰۶, Biharül-ənvar, c. ۱۰۳, səh. ۳۵۱.
۴- [۴]. Müstədrəki-Hakim, «Nikah» kitabı, ۶-۷-ci bölümlər.
۵- [۵]. Biharül-ənvar, c. ۱۰۳, səh. ۳۴۸.

cammata tutub) kimin qadınla evlənməyə hazır olduğunu soruşdu. Lakin yenə o kişidən başqa heç kim cavab vermədi. Allahın rəsulu (s) üçüncü dəfə də soruşdu. (Heç kimdən cavab almadıqda) həmin kişiyə buyurdu: "Qurandan bir şey bilirsənmi?" O, "Bəli"-deyə cavab verdi. Həzrət (s) buyurdu: "Bu qadını - Qurandan bildiyin qədər ona (öyrətməyinin müqabilində - sənə ərə verirəm".(١)

## QADININ MEHRİYYƏSİNİ BAĞIŞLAMASI

İslam Peyğəmbəri (s) buyurur: "Qadın nikah zamanı, əri ilə bir yastığa baş qoymamışdan öncə, (güzəştə gedərək) öz mehriyyəsini ona bağışlayarsa, qadının əməl dəftərinə bu mehriyyəninn hər bir dinarının əvəzində, bir qul azad etməyin savabı qeyd olunar". Soruşdular: "Ey Allahın rəsulu! Bu bəxşiş, toydan sonra baş versə, onda necə?" Allahın elçisi (s) buyurdu: "Toy mərasimindən sonra güzəştə gedilən (mehriyyə, məhəbbət və ünsiyyətin nəticəsidir".(٢)

## QADINLAR AXİRÜZ-ZAMANDA

Əli (ə) buyurur: "Axirüz-zamanda zamanda, qiyamət gününə yaxın vaxtda, ən bəd .١ dövrdə olduqca pis qadınlar peyda olacaqdır. Onlar aşağıdakı əlamətlərə malikdir: (Allah tərəfindən) tələb olunmuş geyimdən uzaq, öz bər-bəzəklər ilə



---

.Biharül-ənvar, c. ١٠٣, səh. ٣۴٨ . [١]-١

.Biharül-ənvar, c.١٠٠, səh. ٣۵١ . [٢]-٢

açıq və çılpaq şəkildə gəzən, dindən-imandan çıxmış, fitnə-fəsad dalınca olan, şəhvətpərəst, dayanmadan qadağan olunmuş ləzzətlərə sarı can atan və Allah-taalanın haram buyurduqlarını halal sayan qadınlar. Belə xüsusiyyətlərə sahib olan qadınlar sonsuza qədər cəhənnəm əhlidirlər".(۱)

۲. İmam Əli (ə): Axirüz-zamanda və qiyamətin yaxınlaşdığı bir vaxtda (ən pis zamanda), qadınlar açıq və çılpaq şəkildə gəzəcəklər. Onlar dindən uzaqlaşacaqlar və fitnə-fəsadla məşğul olacaqlar. Şəhvətə meyl göstərəcək, daim çalçağırla gün keçirmək və başqa ləzzətlərdən istifadə etmək üçün həvəs göstərəcəklər. (Qadağan olunmuş) haramları halal kimi sayılacaqlar. Onlar əbədi olaraq cəhənnəmdə qalacaqlar.(۲)



---

۱- [۱]. Vəsailüş-şiə, c. ۱۴, səh. ۱۹, Kitabü-mən-layəhzərühül-fəqih: c.۳, səh. ۳۹۰, hədis ۴۳۷۴.

۲- [۲]. Kitabü-mən-layəhzərühül-fəqih, c. ۳, səh. ۳۹۰, hədis ۴۳۷۴.

## ONUNCU HİKMƏT.ANANIN MƏQAMI

### ANANIN DƏYƏRİ

۱. Qurani- Kərim: "Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşkün çağına yetərsə, onlara: "Uf!" belə demə, (üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış!".(۱)

۲. Allahın rəsulu (s) buyurur: "Anansının ayağını öpən şəxs sanki Kəbənin astanasını (öpmüşdür."(۲)

۳. (Allahın rəsulu (s) buyurur: "Anasının alnından öpən şəxsə cəhənnəm odu dəyməz."(۳)

۴. İmam Səccad (ə) buyurur: "Bir kişi Allahın rəsulunun (s) yanına gəlib dedi: Mən hər günaha əl atmışam. İndi tövbə edə bilərəmmi? Həzrət (s) buyurdu: Valideynlərin həyatdadırmı? Dedi: Yalnız



---

۱- [۱]. İsra, ۲۳.
۲- [۲]. Gəncineyi-cəvahir, səh. ۱۱۷.
۳- [۳]. Nəhcül-fəsahə, səh. ۵۹۷.

atam sağdır. Buyurdu: Atana hörmət və xeyirxahlıq göstər, Allah günahlarını bağışlayar. O kişi gedəndən sonra Həzrət (s) buyurdu: Ey kaş, anası sağ olaydı."(۱)

۵. Allahın rəsulu (s) buyurur: "Qadın doğuş zamanı vəfat etsə, Allah ona şəhid savabı verər. Uşağının qeydinə qalaraq bir gecə oyaq qalmağın savabı isə Allah yolunda yetmiş qul azad edəyin savabına malikdir."(۲)

## ANANIN HAQQI

۱. Allahın rəsulu (s) buyurur: "Qadının üzərində ən böyük haqq əridir, kişinin üzərində ən böyük haqq isə onun anasıdır."(۳)

۲. Məhəmməd Peyğəmbər (s) buyurur: "Müstəhəb namaza məşğul olduğun zaman atan səni çağırsa, namazını kəsmə. Ancaq anan səni səsləsə, namazını kəs. Çünki cənnət anaların ayağı altındadır."(۴)

۳. Bir nəfər cavan, anası ilə İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alehi və səlləm) hüzuruna gəlir və anasının cəbhəyə getməyə icazə verməməsini ərz edir. Peyğəmbər (səlləllahu əleyhi və alehi və səlləm) buyurur: "Ananın xidmətində ol! Cəbhəyə getməkdən savabı az deyildir!"(۵)

۴. İmam Səccad (əleyhissalam) buyurur: "Ananın



---

۱- [۱]. Biharül-ənvar, c. ۷۱, səh. ۸۲.

۲- [۲]. Nəhçül-fəsahə, səh. ۱۰۶.

۳- [۳]. Kənzül-ümmal, hədis ۴۴۷۷۱.

۴- [۴]. Kəbirə günahlar, c. ۱, səh. ۱۲۷.

۵- [۵]. Mizanul Hikmət cil ۱۰ səh ۷۱۳.

sənin boynunda olan haqqı budur ki, o, səni bir müddət həml etmiş, halbuki, heç kəs digərini həml etməz. (doqquz ay hamiləlik dövründəki zəhmətlərə işarədir). Öz canının şirəsindən sənə yemək verib, halbuki, heç kəs başqası üçün belə etməz. Ana, həmişə bütün vaxtını bütün vücudu ilə, göz, qulaqı, əl, ayaq, tük, dəri və nəhayət, bütün əzalarını sənə sərf etmişdir. Halbuki, bu işə görə çox sevinir. Rəbbinin qüdrət əli ilə onu səndən ayırıb torpağa tapşırana kimi ana, həmişə sənin zəhmətlərinə, narahatçılığına və ağırlığına dözür. Sənin tox, özünün isə ac olmasına razı olur. (Aclığa dözür ki, sən doyasan) Özünə yarıçılpaq olmaqı rəva bilir ki, təki sən geyinəsən. Özü susuz qalır ki, .sən sirab olasan. Özü günəşin istisinə dözür ki, təki sən kölgədə qalasan

O, narahatlıq içində olarkən, sən ne`mət və xoşluqla yaşayırdın. Yuxusuz və gecəni oyaq qalmaqla, səndən ötrü yuxu ləzzətini özünə haram edir. Ananın qarnı sənin vücudunun boy atma yeri, evi isə səni saxlamaq məkanı olub. Sinəsi, sənin süd içmək .üçün çeşmən, şirin canı isə səni qoruyub saxlamaq vasitəsi olub

Ana, ruzigarın isti və soyuğuna dözüb ki, sən yaşayasan. Bəs, bütün bu zəhmətlər və xidmətlər müqabilində ondan təşəkkür et. Lakin, Allahdan kömək istəməsən heç vaxt ananın təşəkkürünü yerinə yetirə bilməzsən. Bu yolda Allah sənə tofiq və

(fürsət verməlidir ki, ananın xidmət və zəhmətlərinin əvəzini çıxasan!"(١)

## ANANIN ÖVLADIN TƏRBİYƏSİNDƏKİ ROLU

١. Allahın rəsulu (s) buyurur: "Övladın dünya və axirət səadətini qazanmağında məhz analarin verdiyi tərbiyə böyük rol oynayır."(٢)

٢. İmam Hüseyn (ə) Hürr ibn Yəzidin azad iradəli insan olmasının səbəbini, kəramət və izzət sahibi olan anasının onu bu ruhda tərbiyə etdiyinə əsaslandırır. Necəki, Əli (ə) da Malik Əştərin yenilməz əzəmətinin məhz anasının ilahi paklığından qaynaqlandığını söyləyir.(٣)

## ANAYA QULLUQ

Bir gün Həzrət Musa (ə) minacat zamanı Allah-taalaya dedi: İlahi! Behiştəki həmsöhbətlərimdən birini mənə göstər.

Allah-təla bir qəssabı ona göstərdi. Bu günə qədər nə Musa qəssabı və nə də ki, qəssab Musanı tanımırdı.

Musa peyğəmbər (s) sevinərək qəssabın yanına gedib, onunla söhbət etməyə başladı. O, öz-özünə deyirdi: Yaxşı oldu. İndi qəssabın hərəkətlərini yaxından izləyərəm. Görəsən onun behiştə



---

١- [١] . İmam Səccadın (ə), hüquq risaləsi, ananın haqqı bölümü. (Az-nəşrindən istifadə olunmuşdur).

٢- [٢] . Vəsailüş-şiə, c. ١۵.

٣- [٣] . Kənzül-ümmal, hədis ۴۴٧٨۶.

?getməyinə hansı əməlləri səbəb olub

Musa (ə) gecəyə qədər qəssabı izlədi, amma onun yalnız ət satmaqla məşğul olduğunu gördü. Qəssab işini qurtarıb evə getmək istədikdə Musa (ə) onunla gəlməyə .icazə istədi. Qəssab onu evinə qonaq apardı

Evə çatdıqda, qəssab evin tavanından asılmış geniş bir taxta qutunu aşağı endirdi. Orada qoca bir qarı var idi. Qəssab onu yuyub, üst-başını dıyişdirdi. Sonra da, süfrə .aşaraq öz əlləri ilə qoca qadını yedirməyə başladı

Qadın dodaqları arasında bir sözlər zümzümə edirdi. Qəssab ona qulluq göstərdikdən sonra qadını yatırıb, yenidən qutuya qoyaraq tavana asdı. Ardınca Musa (ə) ilə birlikdə .çölə çıxdı

?Musa (ə) soruşdu: Bu qadın kimdir

.Dedi: Anam

?Soruşdu: Nə üçün onu taxta qutuya qoyub, yavana asmısan

Dedi: Anam gördüyün kimi çox qocadır və hərəkət edə bilmir. Onun məndən başqa heç bir yaxını yoxdur. Mən evin ehtiyaclarını ödəmək üçün qəssablıqla məşğulam. Oğruların və ya yırtıcı heyvanların ona zərər verməməsi üçün anamı Taxta qutuya .qoyub, tavana asmışam

?Musa (ə) soruşdu: Ananın dodaqları arasında zümzümə etdiyi kəlimələr nə idi

Qəssab dedi: Anam həmişə mənə belə dua edir: İlahi! Oğlumu behiştdə Musa (ə) ilə .həmsöhbət et

səh:۱۴۵

Musa (ə) dedi: Sənə bir müjdə verim. Mən Musayam. Bu gün Allah-taala mənə behiştə səninlə birlikdə olacağımı söylədi. Mən çox istəyirdim ki, sənin nə üçün belə məqama layiq görüldüyünü öyrənim. İndi bildim ki, anana göstərdiyin bu qayğı və xidmətə görə, (qiyamət günü Allah-taala səni behişt əhli və mənimlə həmsöhbət edəcək.(۱)

**DÖZÜMLÜ ANA**

Ərəb səhrasında bir qadın yaşayırdı. Bir gün onun yanına iki qonaq gəldi. O zaman qadının oğlu Əqil səhrada, dəvələri qoruyurdu. Qonaqlar evdə olduğu vaxt, qadını çölə çağırıb, dəvələr hürkərkən oğlunun onların ayağı altda qalaraq öldüyünü xəbər verdilər. Əqilin anası ona xəbər gətirən şəxsdən qonaqları yola salmaq üçün kömək istədi və ona bir qoyun verdi ki, qonaqlar üçün kəsib, ətini doğrasın. Əqilin anası bu ətdən qonaqlara ləzzətli yemək bişirdi. Qonaqlar yeməkdən sonra hadisədən xəbərdar oldular. Onlar ananın dözümü və möhkəm iradəsi qarşısında heyran qaldılar. Qonaqlar gedəndən sonra Əqilin anası bir neçə müsəlmanın yanına gəlib, dedi: "?"Aranızda Qur`an bilən bir şəxs varmı mənə Allah kəlamı ilə təsəlli versin

Bir nəfər bu ayələri oxudu: "Səbir edən şəxslərə müjdə ver! O kəslər ki, başlarına bir müsibət



---

.Kəşkuli-Behtaş, səh. ۵۹۰ .[۱]-۱

gəldiyi zaman "Biz Allah tərəfindən gəlmişik və Ona tərəf qayıdacağıq"-deyirlər. Onları (Rəbbi tərəfindən bağışlanmaq və rəhmət gözləyir. Onlar doğru yolda olanlardır".(١)

Ayələri eşidən ana, dəstəmaz alıb namaz qıldı. Sonra əlini Tanrı dərgahına açaraq, dedi: "İlahi! Səbir barəsində verdiyin göstərişə əməl etdim. Vəd etdiyin mükafatı mənə ."nəsib et

Bəzən "Oğlum sağ olsaydı, mənə kömək edərdi" –deyə fikirləşəndə, tez deyirdi: "Allah (Məhəmmədi (s) ümmətinə əbədi olaraq nemət göndərmişdir."(٢)

### KAFİRİN ANASI

Bir kişi İmam Sadiq (ə) ilə o qədər yaxın dost idi ki, hamı onun barəsində söhbət açıldıqda, onu adı ilə deyil, "İmam Sadiqin (ə) dostu" deyə tanıtdırırdılar. Bir gün o, İmam Sadiqlə(ə) birlikdə pinəçilər bazarına daxil oldu. Onun nökəri də onların ardınca gəlirdi. Birdən kişi arxaya çevrildikdə nökərini görmədi. Yol boyu hərəkət edərkən üç dəfə arxaya çevrilib baxdı, amma yenə onu görə bilmədi. Dördüncü dəfə baxdıqda, ?nökəri gördü. Qəzəbli halda onun valideynini söyüb, dedi: Harada idin

:İmam Sadiq(ə) bu cümləni eşitdikdə, əli ilə öz alnına möhkəm bir şillə vurub, buyurdu



---

.Bəqərə surəsi, ayə ١۵۶ . [١]-١

.Səfinətul-bihar, ٢-ci cild, səh.٧ . [٢]-٢

Sübhənəllah! Anasını söydün? Onu təhqir edib, nalayiq əməllər sahibi olduğunu" dedin? Mən elə bilirdim ki, sən təqvalı və pərhizkar insansan. Amma bununla da, sənin ".təqvasızlığın və Allahdan qorxmamağın məlum oldu

Kişi dedi: Ey Peyğəmbər övladı! Bu nökər "sindi" məzhəblidir. Anası da "sindi" .məzhəbinə etiqad bəsləyir. Özün yaxşı bilirsən ki, onlar müsəlman deyil

İmam (ə) buyurdu: "Anası kafir olanda nə olar? Hər bir tayfanın (dinin və məzhəbin) özünəməxsus nikah qayda-qanunları var. Bu qayda-qanunlara riayət edib evləndikdə, zinakar (qeyri-qanuni cinsi əlaqə) sayılmırlar. Övladları da zinadan dünyaya gəlmiş sayılmır." İmam (ə) sonra ona buyurdu: "Bundan sonra məndən uzaq dur!" Bir də, (onları heç kim birlikdə görmədi.(۱

səh:۱۴۸

---

.Mürtəza Mütəhhəri, Dastani-rastan, c. ۱, səh. ۱۵۸-۱۶۰ .[۱]-۱

## ON BİRİNCİ HİKMƏT .KƏRBƏLA QADINLARI

### A: KƏRBƏLADA QADINLARIN OLMASI

Bəzən sual verirlər ki, İmam Hüseyn (ə) tutduğu yolda şəhid olacağını, ailəsinin, qadın və uşaqlarının düşmən qoşununa əsir düşəcəyini və yüzlərlə əzablara qatlanacağını ?bilirdisə, bəs nəyə görə onları özü ilə apardı

:Bu sualın cavabını belə bəyan edirik

İmam Hüseyn (ə) Yezidin cinayətkar və qəddar olduğunu bildiyi üçün öz ailəsini . ١ Mədinədə başsız qoymağa qorxdu. Ona görə ki, bu despot hökumət qadın və uşaqları girov götürüb İmamı (ə) öz hədəfindən saxlaya bilərdi. Yezidin isə qarşısına qoyduğu məqsəd Hüseyn ibn Əlidən (ə) hər bir yolla olursa-olsun beyət almaq idi. Hətta əgər bu .iş İmamın (ə) arvad-uşağını girov götürüb zindana salmaqla belə mümkün olsaydı

O zaman Mədinənin hakimi Vəlid ibn Utbə idi. Vəlid özü azacıq mülayim insan olsa da onun ətrafında olan Mərvan kimi canavarlar onu hər bir çirkinliyə vadar edirdilər. Elə İmamın (ə) qiyamı ərəfələrində Əhli-beytə (ə) düşmənçilikdə məşhur olan Əmr ibn Səid Mədinə şəhərinə hakim təyin olundu. O İmam Hüseynin (ə) şəhadət xəbərini eşitdikdə sevincindən bayram etdi. Və xalqa İmam Hüseynə (ə) əzadarlıq saxladıqlarına görə belə müraciət etdi: «Siz gərək yalnız Osman üçün ağlayıb ona əza saxlayasınız. Hüseyn ibn Əliyə yas tutmaq əbəs bir işdir».(١) Hətta O, İmamın şəhadətindən sonra göstəriş verdi ki, Bəni-Haşimə aid olan evləri xarabalığa çevirsinlər.(٢)

Təbiidir ki, İmam Hüseyn (ə) belə bir şəxsin hakim olduğu şəhərdə ailəsini başsız qoyub hökumətin əleyhinə qiyam etmək üçün oranı tərk edə bilməzdi. Elə bunun üçün də İmam (ə) məcbur qalıb ona yaxın olan bütün qadın və uşaqları özü ilə apardı.

٢. İmam Hüseynin (ə) ailəsini özü ilə aparmasının və onları Peyğəmbər (s) şəhəri sayılan Mədinədə qoymamasının mə`nası budur ki, Hüseyn ibn Əli (ə) bu hökumətin namuslu olmasına inanmır və Yezid kimi ləyaqətsiz

səh:١٥٠

---

١-[١]. Müqərrəm, Məqtəlül-Hüseyn (ə), səh. ٣٣۴.

٢-[٢]. Həmin mənbə, səh. ٣٣۵.

.adamın hakimiyyət etdiyi dövlətdən hər bir iyrənc iş gözləyir

İmamın (ə) bu hərəkəti siyasi və ictimai baxımdan Yezidin dövlətinə böyük zərbə sayılırdı. Ona görə ki, İmamın bu işi ilə hamının zehninə belə bir sual gələcəkdi ki, nəyə görə Hüseyn ibn Əli (ə) belə bir ağır səfərə qadın və uşaqlarını da özü ilə apardı? ?Məgər Peyğəmbər balası bu dövlətə öz qadın və uşaqlarını belə etibar edə bilmir

Bəzi rəvayətlərə görə İmamın (ə) ailəsini özü ilə aparması Tanrı istəyi ilə həyata .۳ keçdi. Uca Allah, o Həzrətin zalım hökumətə qarşı mübarizəyə qalxıb bu müqəddəs yolda şəhid olmasını və bu yolda ən əzizlərinin, bacısının, həyat yoldaşının, oğul-qızlarının və başqa sevdiklərinin onun kənarında bütün müsibətlərə qatlanmalarını istəmişdir. İmam Hüseyn (ə) Tanrının hər bir istəyinə əməl etdiyi kimi bu istəyinə də yüksək səviyyədə əməl edib bütün Əhli-beytini hətta yeni dünyaya gəlmiş körpəsini də .özü ilə mübarizə yoluna apardı

Hər bir qiyamın iki əsas ünsürə ehtiyacı vardır ki, o ünsürlər bu qiyamın yaranması .۴ və əbədi yaşamasında böyük rol oynayırlar. O ünsürlərin biri fədakarlıq, şəhadət, digəri isə təbliğat və qiyamın fəlsəfəsini cəmiyyətə çatdırmaqdır. Birinci ünsür qiyamın vücuda

gəlməsi üçün nə qədər əhəmiyyət daşıyırsa, digər ünsür də bu qiyamın tarixdə yazılıb .bəşəriyyətə necə çatdırılmasında o qədər əhəmiyyət daşıyır

Kərbəla hadisəsindən sonra əsir düşmüş qadınlar, xüsusi ilə də Həzrət Zeynəb bu qiyamın fəlsəfəsini, Bəni-Üməyyənin törətdikləri cinayətləri, Kufə əhlinin İmamı (ə) tək qoymalarını və bu kimi mühüm hadisələri insanlara çatdırdılar. Əgər onlar bu hadisəni təbliğ edib başqalarına çatdırmasaydılar, şübhəsiz hakimiyyətdə oturanlar İmam Hüseyni (ə) üsyankar tanıtdırmaqla onun bütün hədəflərini aradan aparacaqdılar. Və bu da qadınların Kərbəla hadisəsinin yaşamasında nə qədər böyük rol oynadıqlarını .bildirir

Deməli İmam Hüseynin (ə) qadınları özü ilə aparmasında olan əsas məntiqlərindən biri də, şəhadətindən sonra bu hadisənin fəlsəfəsini onlar tərəfindən xalqa çatdırmaq .olmuşdur

Xatırladaq ki, qeyd etdiyimiz bütün cavablar söylənilən sualın düzgün cavabı sayılır. Yəni, İmam Hüseynin ailəsini özü ilə aparmaqdan məqsədi onların hökumət tərəfindən girov götürülməməsi, bu hökumətin qeyrətsiz olmasını sübut etmək, Tanrı istəyini yerinə yetirmək və Kərbəla hadisəsindən sonra onun fəlsəfəsinin xalqa olduğu .kimi çatdırılmasını təzmin etmək olmuşdur

## B: QADINLARIN RÖVZƏSİ

İmam Hüseynin (ə) şəhadətindən sonra o Həzrətin mübarək bədəni üstə at çapmağa başladılar. İmamın (ə) öz atı xeymələrə tərəf yollandı. Xeymələrdə yas tutan xanımlar atın kişnəmə səsinə çölə çıxdılar. Sahibsiz atın İmam Hüseynə (ə) məxsus olduğunu görən xanımlar o Həzrətin şəhid olmasını başa düşdülər. Bu zaman düşmən «!əsgərlərindən biri fəryad edərək dedi: «Hüseyn öldürüldü

Qadınlar bu sözü eşitdikdə hönkürtü ilə ağlamağa başladılar. Onların nalə səsi göylərə ucaldı. Ömər Sədin vicdansız qoşunu isə yaxınlarını itirmiş xanımların yas tutduqları xeymələrə hücum etdilər.(۱) Onlar qadınlara şallaq vuraraq qulaq və boyunlarında olan qızıl əşyaları vəhşiliklə qırıb, qarət etdilər. İş o yerə yetişdi ki, Peyğəmbərin (s) nəvələrinin başındakı çadıraları da götürdülər! Sonra onları döyə-döyə, ayaqyalın Yezidin hökumət mərkəzi yerləşən Şama tərəf apardılar. Nizələrdə şəhidlərin kəsilmiş (başlarını görən xanımlar isə yol boyu ağlaya-ağlaya rövzə oxudular.(۲

## C: QADINLARIN ŞÜCAƏTİ

### İŞARƏ

Məhəmməd peyğəmbərin(s) gəlişi ilə cəmiyyətdə

səh:۱۵۳

---

.Həzrət İmam Hüseynin (ə) yaşayışı, səh. ۲۲۱ . [۱]-۱

.Şeyx Müfid, İrşad, səh. ۲۲۴ . [۲]-۲

tam insani hüquqlu şəxsiyyətə çevrilən qadınlar, daim İslam dininin inkişafı və müdafiəsi yolunda özünəməxsus əhəmiyyətli rol oynayaraq, böyük nüfuz qüvvəsinə malik olmuşlar. Biz İslam tarixini diqqətlə izlədikdə, bu dinin yarandığı gündən e`tibarən Həzrət Xədicə (ə) kimi namuslu, cəsur qadınların tərəfindən maddi və mə`nəvi cəhətdən mühafizə olunaraq, dəstəkləndiyinin şahidi oluruq. O, bütün var-dövlətini İslam dininin qorunması və inkişafı yolunda xərcləməklə yanaşı sevimli Peyğəmbərimizi (s) ən böhranlı vaxtlarda belə tərk etmədi. Böyük mal-mülkə sahib, zəngin bir xanım olan Xədicənin (ə) bütün sərvətini İslam yolunda sərf edərək, sonda isə müşriklərin yaratdığı iqtisadi blokadanın nəticəsində aclıq ucbatından dünyasını dəyişməsi də, möhtəşəm qadın fədakarlığının möhtəşəm nümunəsidir.(۱)

Həmçinin Həzrət Fatimə (s) kimi dəyərli xanımların atasının və yaxınlarının qürbətinə, ayrılığına dözməklə bərabər, İslam yolunda öz vətənindən belə köçüb, yad şəhərlərə hicrət etməsi, onun simasında müsəlman qadınının əzmindən xəbər verir.(۲)

Təsadüfi deyildir ki, Əmmar Yasirin (ə) anası Süməyyə düşmənlərin ən ağır işgəncələrinə dözərək əqidəsindən, inamından dönməmiş elə buna görə də,



---

۱-[۱]. Sirəti-ibn Hişam, c. ۱, səh. ۲۷۴; Kənzül-ümmal, c. ۱۳, səh. ۲۷۵.
۲-[۲]. Məsumların həyatı, səh. ۴۱.

müşriklər tərəfindən amansızlıqla qətlə yetirilmişdi. Belə ki, O, İslam dünyasının ilk şəhidi sayılır.(۱)

Peyğəmbərin (s) dövründə müharibələrdə döyüşçülərə qulluq edən, onların qayğısına qalan müsəlman qadınlar bundan əlavə hətta ən çətin anlarda da, döyüş meydanına atılaraq qəhrəmancasına vuruşmuşlar. Ümmü Amir ləqəbli Nəsibənin Ühüd döyüşündə, Həmzənin bacısı Səfiyyənin Xəndək müharibəsində düşmənə qarşı vuruşaraq göstərdiyi rəşadətlər üçün Peyğəmbərimizin (s) onlara behişt və`d etməsi də, buna misal ola bilər.(۲)

Müsəlman xanımlar öz atalarını, ərlərini, qardaşlarını və övladlarını Peyğəmbərin (s) düşmənlərilə mübarizəyə həvəsləndirməklə birgə, onların şəhid olduğunu eşitdikdə də, daim qürur hissi ilə yüksək səbir və dözüm nümayiş etdirmişlər. Ühüd döyüşündə qardaşının, dayısının və ərinin şəhid olduğunu eşidən HİmnƏ binti Cəhişin vüqarla «hamımız Allah tərəfindən yaranmışıq və hamımız Ona doğru geri dönəcəyik». deyə, söyləməsi, müsəlman qadının hər şeyə qadir olduğuna bir örnək sayıla bilər.(۳)



---

۱- [۱] . Kənzül-ümmal, c. ۱۳, səh. ۶۳۰.

۲- [۲] . Sirəti-İbn Hişam, c. ۳, səh. ۴۵ və ۱۷۹; İbn Əbil Hədid, Nəhcül-bəlağənin şərhi, c. ۳, səh.

۳- [۳] . Tarixi-Təbəri, c. ۲, səh. ۷۴; İbn Əbil Hədid, Nəhcül-bəlağənin şərhi, c. ۳, səh. ۳۸۸ və ۳۹۵.

Kərbəla qiyamının inkişaf tarixini və hadisələrin məntiqi ardıcıllıqla gedişini izlədikdə, onun hər ləhzəsində ləyaqətli müsəlman xanımının da öz rolu olduğunu anlayarıq. Belə ki, biz, İslam tarixi boyunca seyr etdiyimiz nümunəvi qadına xas olan xislətləri Kərbəla .qiyamında adı səslənən hər bir qadında kamil şəkildə görürük

Qiyamın əvvəlindən e`tibarən bir çox müsəlman qadınlar İmam Hüseynə (ə) kömək etmək üçün öz səylərini göstərmişlər. Bu səylər müxtəlif formalarda ifadə olunaraq, (özünəməxsus tə`sir gücünə malik olmuşdur:(١)

### ELÇİLƏRƏ HİMAYƏKARLIQ ETDİLƏR .١

Bə`zi qadınlar ağır şəraitdə, düşmən nəzarətinin ən güclü və təhlükəli olduğu mühitdə İmam Hüseynə (ə), onun tərəfdarlarına öz himayələrini əsirgəməmiş, böyük rəşadətlə onları müdafiə etmişdir. Kərbəla qiyamında, Tuə, kimi xanımın İmamın (ə) Kufəyə göndərdiyi elçisi Müslim ibn Əqilə öz evində pənah verdiyini, düşmənlərdən gizləyərək, qoruduğunun şahidi oluruq.(٢) Bir halda ki, Həzrət Hüseyni (ə) on



---

Elə buna görədə hazırki bəhsimizdə qadınların Kərbəla qiyamındakı . [١] -١ fəaliyyətlərini təhlil edərkən Əhli-beyt (ə) xanımlarının həll edici rolunu müstəqil .şəkildə, ayrı bir sual ətrafında araşdıracayıq

Zəbihullah Məhəllati, Rəyahinüş-şəriə, c. ۴, səh. ٣٧۴; Biharül-ənvar, c. ۴۴, səh. . [٢] -٢ ٣۵٠-٣۵٨; Şeyx Müfid, İrşad, səh. ۴٠١-۴٠۴; Əbi Muxnəf, Məlhuf əla qətlil-tafuf, səh. ١١٢- .١١٩

səkkiz min məktubla Kufəyə dəvət edən kufəlilər Müslim ibn Əqili şəhər küçələrində, İbn Ziyadın qoşununun təqibi altında yalnız buraxaraq, onu tənha və köməksiz qoymuşdu. Qorxaq Kufə əhli hətta evlərinin qapısını da bağlamışdılar. Amma Tuə adlı bir müsəlman xanım, Müslim ibn Əqili tanıyaraq, onu öz evində gizlətdi. İmanın .qorxuya üstün olduğunu sübut etdi

### DƏYƏRLİ MƏSLƏHƏTLƏR VERDİLƏR .۲

Bir çox qadınlar Həzrət Hüseynin (ə) də`vətini qəbul etmək üçün tərəddüd edən ərlərini İmama (ə) qoşulmağa meylləndirir, bu barədə onlara dəyərli məsləhətlər .verirdilər

Kərbəlada qəhrəmanlıqla şəhid olan Züheyr ibn Tin məhz həyat yoldaşı Dilhəm binti Əmrin məsləhəti sayəsində haqqın yolunu taparaq, İmam Hüseynə (ə) qoşuldu.(۱) Züheyr ibn Tin İmamın (ə) tərəfdarı kimi tanınmırdı. O, hətta Həzrət Hüseynin (ə) onu də`vət etmək üçün göndərdiyi elçisinə də, rədd cavabı verdi. Amma, belə olduqda arvadı Dilhəm, Züheyrə: «Sübhənəllah! Sən peyğəmbər övladının də`vətini qəbul etmirsən? Utanmırsanmı? Heç olmazsa get, səninlə nə işi olduğunu öyrən!»- dedi. Həyat yoldaşının məntiqli sözləri qarşısında xəcalət çəkən Züheyr ibn Tin İmamın (ə) yanına gedib, onunla görüşdü. Sonra isə Dilhəmin yanına



---

۱- [۱] . Əyanüş-şiə, c. ۶, səh. ۴۲۷; Tarixi-Təbəri, c. ۳, səh. ۳۰۲; Biharül-ənvar, c. ۴۴, səh. ۳۷۲-۳۷۳; Rəyahinüş-şəriə, c. ۳, səh. ۳۰۷.

qayıdaraq, Hüseynə (ə) qoşulduğunu, onunla birgə düşmənə qarşı mübarizə aparacağını söylədi. Lakin o, Dilhəmin razı olmayacağını zənn etdiyi üçün qorxurdu. Dilhəm isə öz növbəsində ərinə dedi: «Züheyr get! Allah sənə kömək olsun. Əgər şəhid olsan, Allahın izni ilə qiyamət günü Peyğəmbərin (s) və Hüseynin (ə) kənarında mənə şəfaət tələb edərsən». Belə olduqda Züheyr İmamın (ə) yanına qayıtdı. Və Aşura günü igidlik nümayiş etdirdikdən sonra, şəhid oldu.

Həbib ibn Məzahir də, İmam Hüseynin (ə) çağırış məktubunu alarkən, xanımı ona dedi: «Həbib, səni and verirəm Allaha ki, ağamız Hüseynə (ə) kömək etmək üçün səhlənkarlıq etmə!»(١)

Həbib ibn Məzahir isə onu sınamaq məqsədilə belə söylədi: «Mən necə Kərbəlaya gedim ki, qorxuram övladlarım yetim qala?» Amma Həbibin həyat yoldaşı cavabında dedi: «Sən Allahın rəsulu Məhəmmədin (s) Hüseyn ibn Əli (ə) barəsində buyurdu: «Həsən (ə) və Hüseyn (ə) behişt cavanlarının sərvəridir». Kəlamını eşitməmisənmi? İndi isə nə üçün Peyğəmbər övladının köməyinə tələsmirsən? Ey Həbib, get və İmam Hüseyni (ə) görsən, mənim əvəzimdə də, onun əllərini, ayaqlarını öpərsən. Salamımı ona yetirərsən».



---

١- [١] . Mürtəza Kermani, Qəhrəman qadınlar, səh. ٧۴; K. Firişler, İmam Hüseyn (ə) və İran, səh. ٣-۵.

## MƏNƏVİ DAYAQ OLDULAR .۳

Cəsur müsəlman qadınları Kərbəlada öz ərlərini döyüşə atılmağa həvəsləndirir, onlara .mənəvi dayaq olurdular

Müslim ibn Ovsəcənin(۱) Ümm Xələf adlı(۲) arvadı ərinin şəhid olduğunu öz gözlərilə seyr etdikdən sonra, oğlu Xələfi döyüş meydanına göndərdi. Amma İmam Hüseyn (ə) Xələfin anasının kimsəsiz qalmaması üçün dedi: «Ey cavan! Atan igidliklə şəhid oldu. Əgər sən də şəhid olsan, anan Ümm Xələf köməksiz qalar və bu azğın səhrada kimə pənah aparar?» İmamın (ə) söylədiklərini diqqətlə dinləyən Xələf ibn Müslim azca tərəddüd edərək, geriyə anasının yanına qayıtdı. Lakin rəşadətli, cəsur qadın olan Ümm Xələf oğluna belə əmr etdi: «Oğlum, döyüşə getməsən, Peyğəmbərin övladı Hüseynə (ə) kömək edərək, düşmənlərinə qarşı vuruşmasan həyatım boyu səndən «!razı olmayacağam

.Xələf anasının əmrilə ruhlanaraq döyüşə atıldı və şəhid oldu

Əmr ibn Cünadənin anası Bəhriyyə xanım(۳) da, əri Cünadə ibn Kəab Ənsarinin düşmən tərəfindən qətlə yetirildiyini gördükdən sonra on bir yaşlı oğlunu



---

[۱] -۱ Məhəmməd Füzuli, Hədiqətüs-süəda adlı əsərində Müslim ibn Ovsəcəni . .milliyyətcə azəri türkü olduğunu iddia edir

[۲] -۲ Cavad Mühəddisi, Aşura şüarları, səh. ۲۴۷; Əli Qaimi, Aşura tarixində qadınların . .rolu, səh. ۶۲

[۳] -۳ Seyid Ətaullah Muhacirani, Aşura elçiləri, səh. ۴۴; Doktor Əli Qaimi, Aşura . .tarixində qadınların rolu, səh. ۷۲-۷۳

vuruşmaq üçün göndərdi. İmam Hüseynin (ə) gözləri Əmr ibn Cünadəyə sataşdıqda, ona buyurdu: «Bu cavanın atası indicə şəhid oldu. Onun da, vuruşub şəhid olması anası üçün ağır bir dərd olar». Amma Əmr ibn Cünadə İmama belə dedi: «Ey Peyğəmbərin övladı anam özü mənə döyüşməyə əmr etdi». Belə olduqda Həzrət Hüseyn (ə) Əmrə .döyüşmək üçün icazə verdi və o, qəhrəmanlıqla şəhid oldu

### SƏBİR VƏ DÖZÜM DƏRSİ VERDİLƏR .۴

Kərbəlada müsəlman qadınları yüksək əzm və dözüm nümayiş etdirərək bütün .azadələrə ibrət dərsi oldular

Vəhəb ibn Abdullah Xəbab Kəlbinin anası(۱) ərinin ardınca oğlunun da şəhid olduğunu izlədiyi zaman, daşürəkli düşmən qoşunu oğlunun kəsilmiş başını anasına doğru tulladı. Cəsarətli qadın isə oğlunun başını götürüb, vüqarla düşmənə doğru irəlilədi və onu zülmkar dəstəyə sarı atıb dedi: «Biz Allah yolunda verdiyimiz qurbanları geri «!almırıq

### ƏHLİ –BEYTİ (ə) HİMAYƏ ETDİLƏR .۵

Vəfalı mö`min qadınlar, ən ağır, acınacaqlı hallarda belə İmam Hüseynin (ə) ailəsini tənha qoymayaraq, onları tərk etmədilər. Özlərinin sığınmağa pənahgahı olduqları halda da, Əhli-beytlə (ə) birlikdə əsirliyə



---

.Tarixi-Təbəri, c. ۳, səh. ۳۲۲; Xarəzmi, Məqtəl, c. ۲, səh. ۱۲-۱۳ . [۱] -۱

.qatlanaraq, çoxlu əzab-əziyyətə dözdülər

Şəhidlərin ağası Həzrət Hüseyn (ə) döyüş gecəsi öz tərəfdarlarını bir yerə toplayaraq, şəhid olacaqlarını, arvad-uşaqlarının əsir düşəcəyini xəbər verdi. Elə buna görə də, əshabına öz ailələrini yaxınlıqda məskunlaşan Bəni-Əsəd qəbiləsinə apararaq, onlara tapşırmalarını təklif etdi. Əli ibn Məzahir(۱) Bunu eşitdikdə ayağa qalxıb xeyməsinə, öz ailəsinin yanına getdi və İmamın təklifini ona söylədi. Amma bunu eşidən həyat yoldaşı elə həyəcanlandı ki, başını xeymənin dirəyinə vuraraq dedi: «Sən necə rəva bilirsən ki, Peyğəmbərin (s) övladlarını göz yaşları içərisində, əsir tutaraq əzab verə-verə aparsınlar, amma sənin ailən Bəni-Əsəd qəbiləsinin pənahında rahat yaşasın? Sən necə qıyırsan ki, Peyğəmbərin (s) ailəsini qarət etsinlər amma mən onları tənha qoyaraq Bəni-Əsəd qəbiləsinin xeyməsində vicdanımın mühakiməsindən qaçaraq, asudə ömür sürüm? Necə ola bilər ki, sən İmam Hüseynə (ə) kömək edib, qiyamət günü Peyğəmbərin (s) hüzurunda üzü ağ olasan, lakin mən yalnız özümü düşünərək, onun ailəsini bu dəhşətli günlərdə tənha qoyub, Həzrət Fatimənin (ə) yanında üzüqara olum? Allaha and olsun ki, mən Əhli-beyt (ə) xanımlarını köməksiz qoymayacağam! .»Mən heç bir yerə getməyəcəyəm



---

۱- [۱] .Musuətu kəlimatil-İmamil- Hüseyn (ə), səh. ۴۱۱-۴۱۲; Zəhra Fəxr Ruhani, Qadınların Hüseyn (ə) qiyamında rolu, səh.۱۹.

## ۶. CİHAD ETDİLƏR

Aşura günü qadınlar özləri də, böyük cəsarətlə əlinə silah alıb döyüşə qatıldılar. Ümm Vəhəb(۱) (Vəhəb ibn Abdullah Xəbab Kəlbinin anası) xeymənin dirəyini yerindən çıxardaraq, düşmən qoşununa hücum etdi. İki nəfəri öldürdükdən sonra, İmam Hüseynin (ə) əmrilə geriyə döndü. Əzra (Adı çəkilən Vəhəbin həyat yoldaşı), Bəhriyyə binti Məsud Xəzrəci (Əmr ibn Cünadənin anası) və Abdullah ibn Umeyrin anası da,(۲) xeymələrin dirəklərini əllərinə alıb vuruşa başladı. Ancaq İmam Hüseynin (ə) yenidən xeymələrə qayıtma əmri verməsilə geri döndülər.

## ۷. CİNAYƏTKARLARA ETİRAZ ETDİLƏR

Kərbəla cinayətkarlarından bə`zilərinin arvadları öz ərlərinin insaniyyətdən uzaq mənfur əməllərinə qarşı e`tiraz edərək, onları kəskin çıxışları ilə tənqid etdilər. Bu bir halda baş verirdi ki, Hüseynin (ə) qatilləri dırnaqarası qələbəsini təntənə ilə qeyd edirdi. Hər an onların qəzəblənərək, e`tiraz edən şəxsləri öldürmək qorxusu var idi. Yezid ibn Müaviyənin arvadı Hind binti Abdullah ibn Amir onun cinayətlərinə e`tiraz edərək dedi: «Ey Yezid,



---

۱- [۱]. Mustafa Əsrar, Aşura qiyamçıları, səh. ۱۴۳; Tarixi-Təbəri, c. ۳, səh. ۳۲۲; Xarəzmi, Məqtəl, c. ۲, səh. ۱۲-۱۴.

۲- [۲]. Səmhi, Əbsarül-eyn, səh. ۲۰۶; Müqərrəm, Məqtəlül- Hüseyn (ə) səh. ۳۱۶, Aşura qiyamçıları, səh. ۱۳۴; Nuhuddin Ziya, Vəhəb xanidanı, səh. ۲۳; Kermani, Tarixdə qadın rolu, səh. ۱۸۱-۱۸۶.

Allah sənə lə`nət etsin. Sən artıq mənim ərim deyilsən. Vay olsun sənə! Qiyamət günü nə üzlə Allahın və Peyğəmbərin (s) qarşısında dayanacaqsan?»(۱)

Xuli ibn Yəzid Əsbəhinin (İmamın (ə) kəsilmiş başını İbn Ziyada aparan şəxsin) arvadları Əyyuf və Nivar da ona e`tiraz edərək, arxa çevirdilər. Və bir daha heç vaxt onunla danışmadılar.(۲)

Aşura günü Bəkr ibn Vail qəbiləsindən olan bir qadın, Ömər ibn Sədin qoşununun namərd əməllərini gördükdə qeyrəti cuşa gəldi. O, qılıncını çəkərək Şümrün qoşununda yer alan qəbilə kişilərinə dedi: «Ey Bəkr ibn Vail qəbiləsi! Nə üçün sakitcə durub, Peyğəmbərin (s) ailəsinin xeymələrinin qarət edilib, yandırılmasına tamaşa edirsiniz? Kişiliyiniz və qeyrətiniz yoxdurmu?" Amma onun qəbiləsinin üzvləri qəzəblənib qadını zorla sürüyərək özləri ilə apardılar.(۳)

### ۸. KƏRBƏLA ŞƏHİDLƏRİNİ DƏFN ETDİLƏR

Aşura vaqiəsindən sonra Bəni-Əsəd qəbiləsinin qadınları Əhli-beyt xanımlarına mənəvi dayaq olmaq üçün Kərbəlaya gəldilər. Onlar şəhid olmuş şəxslərin bədənlərinin dəfn olunmadığını görüb, qəzəbli halda



---

۱- [۱] . M. İştihardi, Ali-Məhəmməd (s) müsibətindən, səh. ۴۸۴; Məqtəlül- Hüseyn (ə) , səh. ۱۸۷-۱۸۹.

۲- [۲] . Müqərrəm, Məqtəlül-Hüseyn (ə) , səh. ۳۷۵; Məalis-sibteyn, c. ۲, səh. ۹۳.

۳- [۳] . Şeyx Abbas Qumi, Müntəhəl-əmal, c. ۲, səh. ۲۸۹; Nəfsül-məhfum, səh. ۱۷۴.

ərlərinin yanına qayıdaraq belə söylədilər: «Siz Hüseynə (ə) kömək etmədiyinizə görə Allah-taalanın hüzurunda nə bəhanə gətirəcəksiniz?! Ey bədbəxtlər, heç olmasa qalxın, şəhidlərin doğranmış bədənlərini dəfn edin».

Bunu eşidən Bəni-Əsəd qəbiləsinin kişiləri xəcalət çəkərək, utandılar. Və Kərbəla şəhidlərini dəfn etmək üçün oraya yola düşdülər.(۱)

Bəli, əziz oxucu, müsəlman qadınlar bütün bu hərəkətlərilə qadın əzəmətinin və iqtidarının müqəddəsliyini sübut etməklə yanaşı, haqla batilin savaşı sayılan Kərbəla qiyamına hər kəsin məsuliyyətlə yanaşmalı olduğunun vacibliyini anlatdılar.

## ۹. ŞƏHİD OLDULAR

Kərbəlada qeyrətli müsəlman xanımlar haqq yolunda savaşan ərlərinə, qardaşlarına və övladlarına döyüşün ən böhranlı, dəhşətli anlarında belə yaxından dəstək olurdular. Hətta onların bə`zisi bu yolda şəhadət mərtəbəsinə də, yüksəldilər.

Ümm Vəhəb (Abdullah ibn Umeyr Kəlbinin həyat yoldaşı) ərinin yaralı bədəninin cansız şəkildə savaş meydanına düşdüyünü gördükdə, yanına gedərək, onu ağuşuna aldı. O, göz yaşları içində deyirdi: «Behişt sənə halal olsun! Mən Allahdan sənin məqamını ən ali dərəcədə ucaltmasını və məni də, sənə qovuşdurmasını diləyirəm». Elə bu zaman



---

۱- [۱]. Məhəmməd İştihardi, Ali-Məhəmməd (s) müsibətində, səh. ۴۰۵.

Şümrün əmrilə şərəfsiz bir şəxs qılıncını çəkərək onu qətlə yetirdi. O Kərbəlada şəhid olan ilk qadındır.(١)

Həmçinin Haniyə və Müslim ibn Əqilin qızı Atikə də düşmən tərəfindən Aşura günü amansızcasına öldürüldü.(٢)

### Ç: ƏHLİ–BEYT (ə) XANIMLARININ ROLU

#### İŞARƏ

Doğrudan da əgər qadınlar Kərbəlada olmasaydı , İmam Hüseyn (ə) və onun tərəfdarlarının çəkdiyi bütün zəhmətlər, Kərbəlada tökülmüş şəhid qanları hədər gedəcəkdi. Bununla da tarix boyu şahidi olduğumuz möhtəşəm nəticəni əldə etmək mümkün olmayacaqdı. Təbii ki, bu ağır məsuliyyətli vəzifə Kərbəlada sağ qalmış İmam Səccadla yanaşı Əhli-beyt (ə) xanımlarının öhdəsinə düşürdü. Deməli Kərbəla qiyamında qadınların rolu olduqca mühüm sayılmalı və necə də vacib əhəmiyyət daşıdığı diqqətdən kənarda qalmamalıdır. Bu qiyamla Əhli-beyt (ə) xanımlarının rolu aşağıdakılardan ibarət olmuşdur:

#### ١. AŞURA QİYAMININ TƏBLİĞİ

Düşmənin əsir tutduğu qadınların iradəsini qırmaq üçün bütün səylərini səfərbər etməsinə baxmayaraq, Əhli-beyt (ə) xanımları izzət və iftixarla dolu şəhadətin acı, məğlubiyyət deyil, şirin bir qələbə



---

١-[١]. Səmhi, Əbsarül-eyn, səh. ١٨٠ və ٢٠٩; Musuətu kəlimatil-İmamil- Hüseyn (ə) səh. ۴٣٣.

٢-[٢]. Məhəmməd İştihardi, Ali-Məhəmməd (s) müsibətindən, səh. ٢١٢.

zəfər olduğunu sübut etdilər. Onlar öz xütbələri, çıxışları ilə xalqı Kərbəla inqilabının məqsəd və şüarları haqqında maarifləndirərək, onun əhəmiyyəti barəsində gərəkli təbliğat işləri apardılar. Həmçinin Əhli-beyt (ə) qadınları müsəlmanlara atəşin xütbələrilə müraciət edərək, İmam Hüseynə (ə) kömək etmədikləri üçün böyük günaha batdıqlarını söyləyib onlara zülmün qarşısında haqqa yardımçı olmadıqları .üçün öz mənliklərini, şəxsiyyətlərini alçaltmış olduqlarını anlatdılar

Əsir halda Kufəyə gətirilən Əhli-beyt (ə) xanımları, Həzrət Hüseyni (ə) Kufəyə də`vət edib sonra isə öz əhdinə vəfasız çıxan qorxaq, əzgin ruhlu kufəliləri gördükdə, əhalinin yatmış qeyrətini oyatmaq üçün, onları məzəmmət etməyə başladılar. Əvvəlcə Həzrət :Zeynəb (ə) belə buyurdu

Ey Kufə camaatı! Ey hiyləgər və namərd insanlar! Sizi görüm heç vaxt gözünüzdən yaş » əskik olmasın! Siz bir qadına bənzəyirsiniz ki, əlində olan bütün sapları toxuyur, sonra da bütün toxuduqlarını sökərək, korlayır. Sizin nə əhdinizin, nə də andınızın heç bir dəyəri və e`tibarı yoxdur! Sizin lovğalanmaq, kəniz tək yaltaqlıq etmək və boşboğazlıq etməkdən başqa nəyiniz var? Siz peyinlikdə bitən nəbatata və qəbir üzərindəki bəzək əşyalarına oxşayırsınız. Axirtət dünyanız üçün ən pis azuqəni: Allahın qəzəbini və (sonsuz) cəhənnəm işgəncəsini hazırladınız. Ağlayırsınızmı? Elədir, ağlayın. And

olsun Allaha ki, ağlamağa layiq insanlarsınız. Çox ağlayın, az gülün! Belə bir namərdlik və dönüklük edib, (cox iyrənc) ləkə daşıdığınız halda nə üçün ağlamayasınız? Elə bir şərəfsizliyə əl atdıniz ki, onu heç bir su ilə yuyub, təmizləmək olmaz. Peyğəmbər övladını və cənnət cavanlarının rəhbərini qətlə yetirməkdən də böyük rəzillik (və ləkə) ola bilərmi? Elə bir şəxs ki, sizi haqqa doğru yönəldən yola işıq və cətin zamanlarınızda pənahgahınız idi. (Utancınızdan) Ölün! Xəcalətli üzlərinizi gizlədin. Keçmişdəki zəhmətlərinizi bütünlüklə bir dəfəyə hədər etdiniz. Gələcəyiniz üçün isə, heç nə əldə etmədiniz. Bundan sonra əskiklik içində ömür sürəcəksiniz. Çünki Allah-taalanın hiddətinə tuş gəldniz. Elə bir əmələ əl atdınız ki, az qaldı (qəzəbindən) göy sökülüb, (yerə tökülsün, yer yarılıb parçalansın və dağlar parça-parça olsun...». (١)

Zeynəbin təsirli sözlərindən sonra daha da peşmançılıq hissi keçirdən, öz pis əməllərinin dəhşətini anlayan kütlənin gözlərində artıq inqilab qığılcımlarını görmək çətin deyildi. Onlar qorxaqlıqları və nankorluqları üçün dərin təəssüf hissi keçirdir, hər .bir vəziyyətdə olursa-olsun səhvlərini yumaq, təmizləmək barəsində fikirləşirdilər

İmam Hüseynin (ə) qızı Fatimə və bacısı Ümm

səh:١۶٧

---

.Mehdi Pişvayi, Məsum imamların həyatı, səh. ١٣٣-١٣۴; Bəlağətün-nisa, səh. ٢۴ . [١] -١

Gülsüm də kufəlilər qarşısında çıxış edərək, onları daha da təsirləndirdi. Fatimə dedi: «Ey Kufə əhli! Ey hiylə və fırıldaq sahibləri! Bizi kafir sayıb, bunun üçünmü, qanımızı axıtdınız? Qılınclarınızda bizim qanımız damcı-damcı tökülür, buna görəmi sevinirsiniz? Tezliklə Allahın qəzəbi, çirkin əməllərinizə görə sizə nazil olacaq. Vay halınıza! Bizə necə qıydınız? Hansı iyrənc hissiniz sizə bizi öldürməyə vadar etdi? Ayaqlarınız necə bu yolda qədəm tutdu? Qəlbləriniz kirlənmiş və ürəkləriniz daşlaşmışdırmı? Gözləriniz həqiqəti görmür və qulaqlarınız onu eşitməyə acizdir. Şeytan iyrənc əməllərinizi sizə «gözəldir» deyə, zinətləndirmişdir...

Ey Kufə əhli! Heç bilirsinizmi Peyğəmbər (s) sizdən bu tökülən qanları cavablandırmanızı istəyəcək?».(١)

### ٢. TƏHRİFLƏ MÜBARİZƏ

İslam düşmənləri Kərbəla müsibətindən sonra onu cürbəcür yollarla təhrif etməyə çalışdılar. Çünki xalqın Aşura qiyamının əsl mahiyyətini anladıqda əks-əməl göstərəcəyini və bunun onlar üçün ağır nəticələri olacağını başa düşürdülər. Bu qiyamı və Kərbəladakı müsibəti müsəlmanların dərk etməsi, o zamanın zalım hökumətinin məhvi demək idi. Elə buna görə də, din düşmənləri həm İmam Hüseynin (ə) inqilabının həqiqətini gizlətmək və həm də



---

١-[١]. Xiyabani, Vəqayeül-əyyam, səh. ٢۵٣.

özlərinin insanlıqdan uzaq cinayətlərini ört-basdır etmək üçün müxtəlif yollarla onu təhrif etməyə başladılar. İbni Ziyad Kufədə İmam Hüseynin (ə) qiyamının yanlış olması barəsində şübhələr yaratmağa çalışdı. O, (guya) bu işin məcburi "qəzavü-qədər" (alın yazısı) olduğunu, Hüseyni (ə) Allahın öldürdüyünü Yezid və tərəfdarlarının bu işdə heç bir günahı olmadığını sübuta yetirməyə çalışırdı. Amma Əhli-beyt (ə) xanımlarının (və İmam Səccadın (ə) ) bacarığı, mübarizəsi sayəsində düşmən öz çirkin hədəfinə (çatmağa nail ola bilmədi.(١)

Ubeydullah ibn Ziyad camaatı Kufənin came məscidinə (mərkəzi məscidinə) toplayaraq öz çirkin əməllərinə dini don geydirməyə başladı: «Həmd olsun o Allaha ki, haqqa zəfər əta etdi və «mömünlərin ağasına» (Yezidə), onun dostlarına yardım etdi. (Və yalançı oğlu yalançını ((nəuzubillah) İmam Hüseyni (ə)) öldürdü».(٢)

Elə bu zaman Həzrət Zeynəb (ə) digər qadınlarla birgə əsir şəklində olmasına baxmayaraq vüqarla məscidə daxil oldu. Ubeydullah ondan kim olduğunu soruşduqda, cavab vermədi. Kənizlərdən biri: «O, Allah RIsulunun (s) qızı Fatimənin əziz övladı Zeynəbdir»-dedi. Ubeydullah ibn Ziyad, qardaşları, övladları və digər yaxınları şəhid ,olmuş



---

Mürtəza Mütəhhəri, Hüseyn (ə) inqilabı, c. ٣, səh. ٢۵٢; Aşura tarixində araşdırma, . [١] -١ .səh. ١٣٨

.Məsum imamların həyatı, səh. ١٣٠ . [٢] -٢

başı çox müsibətlər çəkmiş və indi isə əsir kimi qarşısında dayanan Zeynəbin (ə) qürurunu sındırmağın asan olduğunu zənn etdi. Ona elə gəldi ki, azacıq çığır-bağır salsa belə, Zeynəb (ə) ağlayacaq, yalvaracaq və ibn Ziyaddan aman diləyəcək. Camaat da, zalımların haqlı olduğunu düşünəcəkdir. Ona görə də lovğalıqla dedi: «Həmd olsun o Allaha ki, sizin ailənizi rüsvay edib yer üzündən sildi və sözlərinizin yalan olduğunu sübuta yetirdi».

Xanım Zeynəb cavab verdi: «Həmd olsun o Allaha ki, bizə (ailəmizə babamız) Peyğəmbəri (s) əta etməklə əzəmət bağışladı və çirkinliklərdən pak saxladı.(1) Yalnız fasiqlər rusvay olar. Yalnız pis adamlar yalan danışar. Allaha həmd və səna olsun ki, pis adam biz deyil, başqa şəxslərdir. (Yəni, pis insanlar sən və tərəfdarlarındır.)»(2)

İbn Ziyad dedi: «Gördün Allah sizin başınıza nə müsibətlər gətirdi».

Xanım Zeynəb (ə) cavab verdi: «Mən gözəllikdən başqa bir şey görmədim. Allah onların şəhid olacağını öncədən bilirdi. Onlar da öz vəzifələrini yerinə yetirərək, axirət mənzillərinə yollandılar. Tezliklə (qiyamət günü) Allah səni və onları görüşdürəcək, (o zaman da,) onlar Allaha səndən giley edib, ədalət tələb edəcəklər. İndi düşün ki,



---

1- [1]. Məqsəd Əhli-beyt (ə) haqqında nazil olan Əhzab surəsinin, 33-cü ayəsidir.

2- [2]. Şeyx Müfid, İrşad, səh. 244.

Qiyamət günü kim zəfər çalacaq? Anan sənin matəmində otursun, ey Mərcanənin oğlu!»(۱)

Zeynəbin bacısı Ümmü Gülsüm də, İbni Ziyada xitabən dedi: "Ey İbn Ziyad! Sən Allahın rəsulu Məhəmmədə (s) qiyamət günü nə cavab verəcəksən? Bilirsənmi cəzanı Peyğəmbər verəcək?»(۲)

Yezidin hakimiyyət etdiyi Şam şəhərində isə vəziyyət tam başqa şəkildə idi şamlılar Əhli-beytin (ə) kim olduğunu lazımınca bilmirdilər. Dinin həqiqi hökmlərindən və köklü e`tiqadlarından xəbərsiz idilər.

Şamlıların İslamın həqiqətlərindən xəbərsiz olmasına təkcə bunu dəlil gətirmək kifayətdir ki, onlar Həzrət Əlinin (ə) Kufə məscidində namaz qılarkən şəhid edildiyini eşitdikdə təəccübləndilər və dedilər: «Məgər Əli (ə) namaz qılırdı?»(۳) Bəli Əhli-beytin (ə) düşmənləri onlara necə tərbiyə etmişdisə, dini onlara necə (ürəyi istədiyi formada) anlatmışdısa, eləcə də qəbul etmişdilər. Elə bunun üçün də Şam şəhərində İmam Hüseynin (ə) qiyamını dindən xaric olmuş şəxslərin üsyanı və ya xilafətlə mübarizə aparan Bizans döyüşçülərinin mübarizəsi kimi tanıtdırmışdılar.(۴) Buna görə də əsirlər Şam şəhərinə gətirildikdə, əhali Yezidin



---

۱- [۱] . Məsum imamların həyatı, səh. ۱۳۱.

۲- [۲] . K. Firişler, İmam Hüseyn (ə) və İran, səh. ۴۷۶; Əyanüş-şiə c. ۳, səh. ۴۸۵ və c. ۷, səh. ۱۳۶.

۳- [۳] . Məsudi, Murucüz zəhəb, c. ۳, səh. ۳۱-۳۲.

۴- [۴] . Ş. A. Qumi, İmam Hüseynin (ə) həyatı, səh. ۳۴۹.

qələbəsini bayram edirdi. Hamı sevinc içində Hüseynin (ə) şəhid olduğu üçün şadlıq edir və əsirlərə əllərindəki daş-kəsək, zibil qırıntıları atırdılar. Amma sonralar Əhli-beytin (ə) maarifləndirici çıxışları nəticəsində hər şey dəyişdi.

Belə ki, Yezidin sarayı təmtəraqlı şəkildə bəzədilmiş saray adamları və xarici səfirlər dəvət olunmuş, ənamlarla dolu bayram süfrəsi açılmışdı. Yezid Həzrət Hüseynin (ə) kəsilmiş başını bir məcməyə qoyaraq, əlindəki çubuqla onun dişlərinə vurur və bu şeri oxuyurdu: «Kaş indi mənim Bədr döyüşündə vuruşub Xəzrəc qəbiləsinin əzabını çəkməli olmuş babalarım burada olub, sevinərək deyərdilər ki, «Yezid çox sağ ol! Əli (ə) övladlarına Bədr döyüşünün acısını dadızdırdın və intiqamımızı ondan aldın!»(١)

Elə bu vaxt əsir kimi məclisə gətirilən Zeynəb (ə) bunu görüb, fəryad edərək buyurdu: «Allah və Onun Peyğəmbəri(s) doğru söyləmişlər ki, pis əməl sahiblərinin sonu odur ki, Allahın ayətlərini uydurma sayıb onlara istehza edərlər.

Yezid, elə xəyal edirsən ki, yeri-göyü bizə təngləşdirməklə, əsir şəklində bir şəhərdən başqa şəhərə daşımaqla rüsvay edib, özünə hörmət qazanacaqsan? Elə sanırsan ki, bu əməlinlə əzəmət qazanıb, insanlara lovğalana bilərsən? Hakimiyyətini nizam-intizamlı görüb, o qədər sevinirsən ki, sanki öz



---

١-[١] . Balağətün-nisa, səh. ٢٠; Məsum imamların həyatı, səh. ١٣۵.

dərinə sığışmırsan. Anlamırsan ki, sənə verilən bu fürsətin səbəbi, doğrusu, iç üzünü açıb xalqa göstərmən üçündür? Sən, Allah-taalanın «Küfr edən şəxslər onlara verdiyimiz möhləti heç xeyir bilməsinlər! Bu möhlət yalnız onların günahlarını daha da çoxaltmaları üçündür. Onlar zillətli bir əzaba düçar olacaqlar»-deyə buyurduğunu ?unutmusanmı

Ey azad edilmiş şəxslərin oğlu! Bu ədalətli hökmdürmü ki, sənin qadın, qız və kənizlərin pərdə arxasında, naməhrəmlərin baxışlarından uzaq otursun, amma sən Allah rəsulunun (s) qızlarını əsir edərək, pərdəsini kənara atıb, hörmətsizlik edəsən, onların səslərini boğazlarında boğub, naməhrəm kişilər vasitəsilə onları dəvələrə mindirib, bir şəhərdən başqa bir şəhərə yollayasan? Bu necə ədalətdir ki, heç kim onlara yer verməsin və heç bir mühafizləri olmasın və onlara məhrən olan kişilərdən kimsə ?yanlarında olmasın

Əlbəttə, qəlbi bizə qarşı ədavət və küdurətlə dolu olan kəsdən bundan artıq nə gözləmək olar? Deyirsən, kaş ki, Bədr savaşında (Peygəmbər(s) və Həzrət Əli tərəfindən) qətlə yetirilən əcdadın indi burada olaydı və bu sözləri dilinə gətirərək, Peyğəmbər övladının dişlərinə (çubuqla) vurursan? Nə üçün axı belə etməyəsən? Bil ki, sən yer üzünün ulduzları sayılan Peyğəmbər övladlarının və Əbdul-Müttəlib ailəsinin qanını axıtmaqla iki tayfa arasında olan keçmiş ədavəti yenidən qurdun. Boş yerə

fərəhlənmə! Tezliklə Tanrı hüzurunda peşman olacaqsan və orada arzu edəcəksən ki, kaş kor, lal olaydın və bu günü görməyəydin, kaş «indi babalarım burada olsaydı, o qədər şad olardılar ki, öz dərilərinə belə sığmazdılar» ibarəsini dilinə gətirməyəydin. Ey !Allah, bizə zülm edən kəsdən özün intiqamımızı al

And olsun Allaha ki, Peyğəmbər (s), onun Əhli-beyti (ə) və dostları Tanrının lütf və mərhəməti sayəsində olacaqları gün (qiyamət günü) sən Yaradannın hüzurunda öz ətini-dərini didib-dağıdacaqsan. Allah öz və`dəsini yerinə yrtirəcəyi zaman kənarda qalmış bu məzlumları bir yerə toplayacaq. Allah buyurur ki, «Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə! Əsla, onlar öz rəbbinin yanında diridirlər və ruzi (cənnət ruzisi) yeyirlər». Lakin səni zorla müsəlmanların rəhbərliyinə təyin edən, haqq-ədalətin, ilahi məhkəməsinin, Məhəmməd peygəmbərin (s) və sənin öz bədən üzvlərinin, etdiyin cinayətlərin əleyhinə şahidlik edəcəyi o gün, anlayacaq ki, kim .hansınız daha da bədbəxtdir

Yezid, ey Allahın düşməni və Allah düşməninin oğlu, Allaha and olsun ki, sən mənim gözümdə elə bir dəyərə malik deyilsən ki, mən səni danlayam. (yəni; sən o qədər alçaq və dəyərsizsən ki, heç danlanmağa da layiq deyilsən). Sən təhqir olunmağa

belə ayiq deyilsən. Amma nə edə bilərəm? Gözlərim yaşla dolub, dərd- kədərim sinəmdə fəryad edir. Hüseyn (ə) qətlə yetirildikdən sonra, şeytanın qoşunu Peyğəmbərin əhli-beytinə hörmətsizlik edərək, müsəlmanların beytül-malından (Yezidin əlilə) mükafatlanmaq xatirinə, bizi Kufədən «səfehlər diyarına» gətirdi və bu cəlladların əlləri bizim qanımıza doydu. Və vəhşi-ac canavarlar şəhidlərin pakizə cənazələri üstündə at çapdıqdan sonra səni məzəmmət etmək, tə`nə vurmaq hansı dərdə dərman olar ki? Sən bizi öldürmək və ya əsir tutmaqla coxlu mənfəətlərə sahib olduğunu xəyal edirsənsə, tezliklə anlayacaqsan ki, zərərdan başqa bir şey ələ gətirməmisən. Qiyamət günü bu əməllərinin aqibətindən başqa heç bir şey qazanmayacaqsan. O zaman İbn Ziyadı öz köməyinə səsləyəcək, o isə öz növbəsində səndən mədəd umacaq. Amma sən və sənin davamçıların o gün Tanrının ədalət məhkəməsinə toplanacaq və biləcəksiniz, sənin axirətinə yadigar qoyulmuş ən yaxşı azuqə Peyğəmbər balalarını qətlə yetirrməyin olmuşdur. Allaha and olsun ki, mən Ondan qerisindən qorxmur və Ondan başqa heç kimə gileylənmirəm! Hər nəyi bacarırsan, onu da elə! Bütün hiylələrini işə sal! Ədavətini bütün gücüylə göstər! Allaha and olsun, bu ləkə sənin adina elə həkk olub ki bir daha silinməyəcəkdir. Allaha şükürlər olsun ki, behişt

gənclərinin rəhbərinin (İmam Hüseynin (ə)) sonunu əbədi səadətlə nəticələndirdi və cənnəti onlara labüd etdi. Allahdan arzum budur ki, onların məqamını daha da yüksəltsin və öz mərhəmətini onlara nisbət daha da artırsın. Necə ki, Allah ən qüdrətli hami və ən gözəl havadardır».(۱)

Zeynəbin (ə) xütbəsi o qədər təsirli oldu ki, məclisdə iştirak edən məsul şəxslər, hətta Yezidin öz yaxınları da ona etiraz edərək qəzəbləndilər. Hətta orada olan hərəmxana qadınları da, Yeziddən üz çevirərək göz yaşları içində məclisi tərk etdilər. Onlar Hüseynə (ə) mərsiyələr söyləyirdilər.(۲)

### ۳. ƏZADARLIQ VƏ KƏDƏRLƏNDİRİCİ ÇIXIŞLAR

Əhli-beyt (ə) qadınları kədərli çıxışları və əzadarlıq mərasimlərilə insanların vicdanlarını ayıldaraq təsirləndirirdilər. İmam Hüseynin (ə) məzlumiyyətini xalqa açıqlayır, bu yolla müsəlmanları kövrəldərək onlara insani, hümanist duyğular aşılayırdılar. Elə bunun nəticəsində camaatın yatan fitrətində zalıma nifrət, məzluma rəhmət hissi oyandı. Və həmçinin belə matəm mərasimlərində Əhli-beyt (ə) qadınlarının söylədiyi ürək yandırıcı, eyni zamanda düşündürücü sözlər hamını İmam Hüseynin (ə



---

۱-[۱]. Məsum imamların həyatı, səh. ۱۳۶-۱۳۷.
۲-[۲]. Tarixi-Təbəri, c. ۴, səh. ۳۵۶; Kamil, c. ۳, səh. ۲۹۸.

.qiyamı barəsində fikirləşməyə vadar edirdi

Bu, həm də özlərini dindar kimi göstərən Bəni-Ümyyə hakimiyyətinin rüsvay olması və .süqutunun təzmini demək idi

Necə ki, İmam Hüseynin (ə) həyat yoldaşı Rübab Kufə şəhərinə daxil olarkən, ağlayaraq fəryad etdi: «İmam Hüseyn (ə) bir nur idi ki, hər kəs işığını ondan alırdı. İndi isə Kərbəlada şəhid edildi və mübarək bədəni torpaq üstündə yalqız buraxıldı. Ey Peyğəmbərin övladı Hüseyn, Allah səni ən gözəl şəkildə mükafatlandırsın. Sən mərhəmətli və möhkəm bir dağa bənzəyirdin, bizimlə gözəl davranırdın. Səndən sonra kim yetimlərə və çarəsiz insanlara pənah olacaq? Kim əli hər yerdən üzülmüşlərə sahib çıxacaq. Səndən sonra mən torpaqların məni örtdüyü zamanadək tənha (yaşayacağam!»(۱

Rübab, İbni Ziyadın məclisində göz yaşı tökərək diqqətləri Hüseynin (ə) məzlumiyyətinə cəlb etdi: «Ah, mənim Hüseynim (ə)! Mən düşmənlərin ox və nizə yağışına tutduqları Hüseyni (ə) unutmayacağam. Namərdlər onu Kərbəlada hiylə ilə öldürdülər. Əvvəlcə köməyə çağırdılar sonra isə amansızlıqla, susuz şəhid etdilər. Allah (Hüseynin (ə) düşmənlərini qiyamət günü susuz cəzalandırsın!»(۲



---

Məhəmməd əl-Həsun Məşkur, Əlamün-nisa, səh. ۳۴۵; Əbülfərəc, əl-əğani, c. ۱۶, . [۱] -۱
.səh. ۱۴۲
.Kamil,c. ۳, səh. ۳۰۰; Biharül-ənvarül-ənvar, c. ۱۰, səh. ۲۳۵ . [۲] -۲

Həzrət Zeynəb (ə) Yezidin sarayında qardaşının kəsilmiş başını gördükdə dedi: «Ya Hüseyn! Ey Allah rəsulunun (s) sevimlisi, ey Məkkə və Minanın övladı, ey Fatimeyi Zəhranın (s) oğlu!»(۱)

Bu sözlər hamını kövrəltdi. Ümm Gülsüm və Fatimə də, buna bənzər növhələr oxudular.(۲) Onlar daim Hüseynin (ə) məzlumiyyətini xalqa aşılayırdılar.

### ۴. İFFƏT KEŞİYİDƏ

Əhli-beyt (ə) qadınları düşmən qoşununun ərlərini, qardaşlarını, yaxınlarını amansızlıqla öldürdüyünü, vəhşicəsinə xeymələrə basqın edib qarətə məşğul olduğunu və onları əsir tutub əzab-əziyyət verə-verə ac-susuz şəkildə şəhərləri dolandırdıqlarını gördülər. Amma bütün bunlardan sarsılmayaraq, öz iffət və namuslarını şərəflə qorudular. Kufə şəhərinə daxil olduqda əsir düşmüş Əhli-beyt (ə) xanımlarına şəhərin evlərinin damından baxan qadınlar örpək payladılar.(۳)

Kufənin cümə məscidinin yanındakı evdə həbs olunduqda isə Zeynəb qəzəblə dedi: «Baxın, bizim yanımıza kənizlərdən başqa heç kim gəlməsin!»(۴)

Əsirlər Şam şəhərinə yetişdikdə isə Ümmü Gülsüm və Rübab Şimrə dedi: «Bizi şəhərin başqa



---

۱- [۱]. Ş. A. Qumi, İmam Hüseynin (ə) həyatı, səh. ۳۴۱-۳۴۲.
۲- [۲]. Həmin mənbə, səh. ۲۹۰-۲۹۳.
۳- [۳]. İmam Hüseynin (ə) həyatı, səh. ۲۹۱-۲۹۲.
۴- [۴]. Cavad Mühəddisi, Aşura şüarları, səh. ۲۴۸.

qapısından xəlvət küçələrlə apar və şəhidlərin nizəyə keçirilmuş başlarını, bizdən uzağa apar ki, yad insanların gözü onları seyr edərkən bizə sataşmasın». Amma Şimr bunu etmədi. Belə olduqda Ümmü Gülsüm fəryad edərək, etirazını bildirdi: «Vay olsun sənə ey məlun! Allah zalımlara lənət etsin. Allah sənə lənət etsin! Bu iyrənc əməlinlə fəxr edirsən? Peyğəmbərin ailəsini yad baxışların önünə çıxarmaqlamı (öyünürsən?!...».(١)

Peyğəmbərin səhabəsi Səhl İbn Səd deyir ki, mən təsadüfən Əhli-beyt (ə) əsirlərinin Şama gətirildiyi gün orada idim. Şəhidlər ağası Hüseynin (ə) qızı Səkinəni gördüm ondan nə istəyi olduğunu soruşdum,: O, Atamın başını nizəyə vuran bu bədbəxtə de ki, bizim aramızdan uzaqlaşsın. Belə olduqda kütlə ona baxar və diqqətlər bizim .«üzərimizdə cəmləşməz

(Mən başı aparan nizəçiyə ۴۰۰ dinar verdim ki, onu əsirlərin içindən kənara aparsın.(٢)

Başqa bir nümunə: «Yezidin sarayında Şamlı bir kişi Həzrət Hüseynin (ə) qızı Fatiməni özünə kəniz etmək üçün, Yeziddən xahiş etdi. Yezid onun istəyini qəbul etdi. Amma Fatimə və Zeynəb (ə) etiraz səslərini ucaldaraq, Yezidin bu çirkin əməlinə mane oldular. Onların cəsarətli etirazından təəccüblənən



---

.Rəbbani Xalxali, Hüseynin parlaq siması, səh. ۵۲۰-۵۲۱ . [۱]-١

.Rəyahinüş-şəriə, c. ٣, səh. ٣١۶ . [٢]-٢

kişi, əsirlərin kim olduğunu soruşdu. Bu qadınların Əhli-beyt (ə) əsirləri olmasını öyrəndikdə isə o, Yezidi lənətləyərək təhdid etdi və Yezidin əmri ilə şəhid edildi».(١)

### İDARƏÇİLLİK VƏ MÜHAFİZƏ .۵

Mə`lum olduğu kimi Kərbəla faciəsi zamanı Həzrət İmam Səccad (ə) İlahi məsləhəti ilə xəstə idi. Belə olan halda təbii ki, əsirlərin mühafizəsi və şəraiti idarə etmək kimi ağır bir məsuliyyət Həzrət Zeynəbin üzərinə düşürdü. Bu cəsarətli qadın öz uzaqgörənliyi ilə od-alovun içərisində İmam Səccadın (ə), qadın və uşaqlarını xilas edə bildi. Əsirlər hər bir halda ona sığınır, ondan kömək umurdular. Alman yazıçısı Kurt Frişler «İmam Hüseyn və İran» adlı kitabında yazır «Zeynəb (ə) İmam Hüseyn (ə) şəhid edildikdən sonra şəraitin olduqca ağır və dəhşətli həddə pis olmasına baxmayaraq, əsirlərin idarəçilik və mühafizə işlərini öhdəsinə aldı. O, hətta hər dəfə xütbə və çıxışlarına başlamazdan əvvəl, əsirləri sayır heç kimin itkin düşməməsinə çalışırdı. Buna əmin olduqdan sonra isə sözə başlayırdı. Əlində az miqdarda olan çörəyi digər əsir qadın və uşaqların arasında bölür, çox vaxt özü ac qalırdı».(٢)

səh:١٨٠

---

١- [١] . Şeyx Müfid, İrşad, səh. ۴٧٩; Tarixi-Təbəri, c. ٣, səh. ٣٣٩; Məqatilüt-Talibin, səh. ١٢٠.

٢- [٢] . K. Frişler, İmam Hüseyn, səh. ۴٧٧.

Xanım Zeynəb (ə) əzəmətli elmi(١) və bacarığı ilə vəziyyəti lazımı formada idarə edirdi. Keçən bəhslərimizdə işarə etdiyimiz kimi Fatimənin Yezid kimi zalımın sarayında iffətinin qorunması, İmam Səccadın (ə) İbni Ziyadın iqamətgahında ölümdən qurtulması da bir başa Zeynəbin (ə) cəsarəti və hünəri nəticəsində mümkün oldu.



---

١-[١]. Səfinətül-Bihar, c. ١, səh. ٥٥٨.

## QAYNAQLAR


.Qurani-Kərim .۱

.Ali-Məhəmməd (s) matəmində», Məhəmməd İştihardi» .۲

.Aşura dərsləri», Cavad Mühəddisi, Dəftər təbliğati-islami, ۱۳۸۰ h. Ş» .۳

.Aşura şuarları», Cavad Mühəddisi, Dəftər təbliğati-islami, ۱۳۷۸ h. Ş» .۴

.Aşura tarixində qadınların rolu», Əli Qaimi, İntişarati-elmi-fərhəngi, ۱۳۸۲» .۵

.Aşura qiyamçıları», Müstəfa Əsrari, İntişatati- Ələvi, ۱۳۸۳» .۶

.,Aşura elçiləri», Ətaullah Mühacirani» .۷

Biharül-ənvaril-cameə lidürəril-əxbaril-əimmətil-əxbar», Məhəmməd Baqir ibn» .۸ Məhəmməd (Əllamə Məclisi), (vəfat: ۱۱۱۱), Beyrut, Müəssisətül-vəfa, ۱۴۰۳ h. q. Çap .növbəsi-۲

Bəsairüd-dərəcat», Məhəmməd ibn Həsən Səffar Qummi (İbn Fərrux), (vəfat: ۲۹۰ h.» .۹ .q.) Qum, Məktəbətül-mərəşi, ۱۴۰۴ h. q. Çap növbəsi-۱

.,Bəlağətün-nisa», Əhməd ibn Əbu Tahir» .۱۰

Vəsailüş-şiə», Məhəmməd ibn Həsən Hürr Amoli, (vəfat: ۱۱۰۴), tədqiq: Müəssisətü Alil-» beyt (ə), Qum, Müəssisətü


səh:۱۸۳

.Alil-beyt (ə), ۱۴۰۹ h. q. Çap növbəsi-۱ .۱

.Vəqayeül-əyyam», Xiyabani, Tehran, ۱۳۷۵ h.ş» .۲

Qürərül-hikəm və dürərül-kiləm», Əbdülvahid Amidi Təmimi, (۵۵۰ h. q.), tədqiq: Seyid» .۳
.Cəlalüddin Mühəddəs Ürməvi, Cameətü Tehran, Ət-təbətüs-salisə, ۱۳۶۰ h. ş

.Qisarül-cüməl», Tehran, İntişarati-islami» .۴

.Qamusur-rical», Beyrut, Darül-kutubil-elmiyyə, ۱۴۱۴ h.q» .۵

Qadınarın İmam Hüseyn (ə) qiyamında rolu», Zəhra Fəxr Ruhani, İntişarati-islami,» .۶
.۱۳۷۳ h. ş

.Qəhrəman Qadınlar», Mürtəza Kermani, İntişarati-hakim, ۱۳۷۸ h.ş» .۷

Dəaimül-islam və zikril-həlal vəl-həram vəl-qəzaya vəl-əhkam», Noman ibn» .۸
.Məhəmməd Təmimi, tədqiq: Asəf ibn Əliəsğər, Misir, Darül-maarif, ۱۳۸۹ h. q

Ehyau ülumüd-din», Məhəmməd ibn Məhəmməd Qəzzali (vəfat: ۵۰۵ h. q.), Beyrut:» .۹
.Darül-hadi, ۱۴۱۲ h. q. Çap növbəsi-۱

Əlamüd-din fi sifatil-möminin», Həsən ibn Məhəmməd Deyləmi (vəfat: ۷۱۱ h. q.),» .۱۰
.(tədqiq: Müəssisətü Alil-beyt(ə), Qum, Müəssisətü Alil-beyt(ə

əl-İxtisas», (nisbət verildiyi şəxs:) Məhəmməd ibn Məhəmməd Noman Ükbəri» .۱۱
Bəğdadi (Şeyx Müfid) (vəfat: ۴۱۳ h. q.), tədqiq: Əli Əkbər qəffari, Qum, Müəssisətün-
.nəşril-islami, ۱۴۱۴ h. q

əl-Əmali», Məhəmməd ibn Həsən Tusi (Şeyx Tusi), (vəfat: ۴۶۰ h. q.) tədqiq: » .۱۲
.Müəssisətül-Besə, Qum, Darüs-seqafə, ۱۴۱۴ h. q. Çap növbəsi-۱

əl-Əmali», Məhəmməd ibn Əli hbn Babəveyh Qummi (Şeyx Səduq), (vəfat: ۳۸۱ h. q.),» .۱۳
.tədqiq: Müəssisətül-besə, Qum, Müəssisətül-Besə, ۱۴۰۷ h. q. Çap növbəsi-۱

əl-Əmali», Məhəmməd ibn Məhəmməd Noman Ükbəri Bəğdadi (Şeyx Müfid) (vəfat: ۴۱۳»
,h. q.), tədqiq: Hüseyn Ustad Vəli və Əli Əkbər qəffari, Qum

.müəssisətün-nəşril-islami, ۱۴۰۴ h. q .۱

əl-Bidayə vən-nəhayə», İsmail ibn Ömər Dəmeşqi (ibn Kəsir), (vəfat: ۷۷۴ h. q.) tədqiq:» .۲
.Məktəbül-maarif, Beyrut, Məktəbül-maarif

əl-Əəyanü vət-təbyin», Əmr ibn Bəhr Kənani Cahiz, (vəfat: ۲۵۵ h. q.) tədqiq:» .۳
.Əbdüssəlam Məhəmməd Harun, Qahirə, Məktəbətül-Xanəci, ۱۴۰۵ h. q

ət-Təzkirətül-Həmədniyyə», Məhəmməd ibn Həsən Bağdadi (İbn Həmədun), (۴۹۵ -» .۴
.۵۶۲ h. q.), tədqiq: Ehsan Abas və Bəkr Abas, Beyrut, Darüs-sadir, ۱۹۹۶ m

əl-Helm», Abdullah ibn Məhəmməd Qürəşi, (İbn Əbid-Dünya), (vəfat: ۲۸۱ h. q.)» .۵
tədqiq: Məhəmməd Əbdül-Qadir Əta, Beyrut, Müəssisətül-kotobüs-seqafiyyə, ۱۴۱۳ h.
.q

əd-Dürrül-mənsur fit-təfsiril-məsur», Cəlalüddin Əbdür-Rəhman Süyuti, Beyrut,» .۶
.Darül-fikr, ۱۴۱۴ h. q

əd-Dua», Süleyman ibn Əhməd Təbərani (vəfat: ۳۶۰ h. q.), Müstəfa Əbdülqadir Əta,» .۷
.Beyrut, Darül-kotobül-elmiyyə, ۱۴۱۳ h. q

əl-Firdəvsi bi-məsuril-xitab», Şiruyə ibn Şəhrdar Deyləmi, (vəfat: ۵۰۹ h. q.)» .۸
.Məhəmməd səid besyuni Zoğlul, Beyrut, Darül-kotobül-elmiyyə, ۱۴۰۶ h. q. Çap-۱

əl-Kafi», Məhəmməd ibnYəqub Kuleyni Razi, (vəfat: ۳۲۹ h. q.), tədqiq: Əli Əkbər» .۹
.qəffari, Beyrut, Darüs-səb və Darüt-təarüf, ۱۴۰۱ h. q. Çap-۴

əl-Məhəccətül-bəyza fi təhzibil-ehya», Məhəmməd Möhsin ibn şah Mürtəza Feyz» .۱۰
.Kaşani, (۱۰۹۱ h. q.), təshih: Əliəkbər Qəffari, Qum, Cəmaətül-müdərrisin, ۱۳۸۳ h. q

əl-müsnəd», Əhməd ibn Məhəmməd Şeybani (İbn Hənbəl), (vəfat: ۲۴۱ h. q.), tədqiq:» .۱۱
.Abdullah Məhəmməd Dərviş, Beyrut, Darül-fikr, ۱۴۱۴ h. q. Çap-۲

.əl-Əğani», Əbdülfərəc İsfəhani (Əli ibn Hüseyn), İntişatarati-Əmir Kəbir, Tehran» .۱۲

.Əbsarül-eyn», Səmavi (Məhəmməd ibn Tahir), Beyrut, ۱۳۷۷» .۱

.Əlamün-nisa», Məhəmmədhəsun Məşkur, Qum, ۱۳۷۹ h. ş» .۲

əl-Mizan», Məhəmmədheseyn Təba-təbai, Dəftəri-intişarati-islami, Qum, çap» .۳
.növbəsi ۵, ۱۴۱۷ h.q

əl-Məhasinü vəl-Əzdad», Əmr ibn Bəhr Kənani Cahiz, (vəfat: ۲۵۵ h. q.) Qahirə, əl-» .۴
.məktəbətüt-ticariyyətül-kübra, ۱۳۵۰ h. q

əl-İrşad», Müfid (Məhəmməd ibn Məhəmməd Noman), Beyrut, Müəssisəyül-ələmi» .۵
.lil-mətbuat, çap növbəsi ۳, ۱۳۹۹ h.q

.əl-Lühuf» digər adı «əl-Məlhuf əla qətlit-təfuf», İbn Tavus (Seyyid Rəziuddin), Qum» .۶

əl-Məvaziül-ədədiyyə», Əli Meşkini Ərdəbili, (Müasir), tədqiq: Əli Əhmə Miyaneci,» .۷
.Qum, əl-hadi, ۱۴۰۶ h. q. Çap-۴

əl-Möcəmül-kəbir», Süleyman ibn Əhməd Ləxmi Təbərani, (vəfat: ۳۶۰ h. q.), tədqiq:» .۸
.Həmdi Əbdül-məcid Sələfi, Beyrut, Darü-ehyaüt-türasil-ərəbi, ۱۳۹۹ h. q. Çap-۲

Əyanüş-şiə», Seyid Möhsin Əmin Amoli, (vəfat: ۱۳۷۱ h. q.), tədqiq: Seyid Həsən Əmin,» .۹
.Beyrut, Darüt-təarüf, ۱۴۰۳ h. q. Çap növbəsi-۵

əl-Hikmətül-xalidə» (Cavidane xerəd), Əhməd ibn Məhəmməd Razi, (vəfat: ۴۲۱ h.» .۱۰
.q.), Fars dilinə tərcümə: Təqiüddin Məhəmməd Şuştəri, Tehran, Fərhənge kavoş, ۱۳۷۴

əl-Xisal», Məhəmməd ibn Əli ibn Babəveyh Qummi (Şeyx Səduq), (vəfat: ۳۸۱ h. q.),» .۱۱
.Qum, Müəssisətün-nəşril-islami, ۱۴۱۴ h. q. Çap-۴

İrşadül-qülub», Həsən ibn Məhəmməd Deyləmi(vəfat: ۷۱۱ h. q.), Beyrut:» .۱۲
.Müəssisətül-Ələmi, ۱۳۹۸ h. q. Çap növbəsi-۴

səh:۱۸۶

Kitabü mən la yəhzüruhül-fəqih», Məhəmməd ibn Əli ibn Babəveyh Qummi (Şeyx« .۱
Səduq), (vəfat: ۳۸۱ h. q.), tədqiq: Əli Əkbər Qəffari, Qum, Müəssisətün-nəşril-islami,
.Çap-۲

Kəşfül-əsrar və üddətül-əbrar», Rəşidüddin Əhməd ibn Məhəmməd Miybodiy,« .۲
.təshih: Əliəsğər Hikmət, Tehran, İbn Sina, ۱۳۸۰ h. q

Kəşfül-bəyan» (Təfsiri-Sələbi), Əbu ishaq Əhməd ibn Məhəmməd Sələbi,(vəfat: ۴۲۷« .۳
.h. q.), tədqiq: Əbu Məhəmməd ibn Aşur, Beyrut, Darü ehyaut-türasil-ərəbi, ۱۴۲۲h.q

Kənzül-ümmal fi sünənənil-əqvali vəl-əhval», Əli Müttəqi ibn Hisamüddin Hindi,« .۴
(vəfat: ۹۷۵ h. q.), təshih: Səfvətüs-səqqa, Beyrut, Məktəbətüt-türasil-islami, ۱۳۹۷ h. q.
.Çap-۱

Kamilüz-ziyarat», Cəfər ibn Məhəmməd ibn Qulviyə (İbn Qulviyə), tədqiq: Cavad« .۵
.Qəyyumi, Qum, Nəşril-Qifahə, ۱۴۱۷ hicri-qəməri, birinci çap

.Ləalil-əxbar», Beyrut, ۱۴۱۳ h.q« .۶

Məalis-sibteyn», Mazəndərani, Tehran, Məktəbətü nəşris-seqafətil-islamiyyə, ۱۴۰۸« .۷
.h. q. Çap-۲

.Murucüz-zəhəb», Məsudi (Əli ibn Hüseyn), Darül-kutubül-elmiyyə, Beyrut« .۸

.Məqtəl», Müqərrəm (Seyyid Əbdürrəzzaq Musəvi), Beyrut, çap növbəsi ۳« .۹

Məqtəl», Xarəzmi, (Məhəmməd ibn Mahmud), tədqiq: Məhəmməd əs-Səmavi,« .۱۰
.Qum, Məktəbətül-Müfid

.Məsum İmamların (ə) həyatı», Mehdi Pişvayi, Qum, çap növbəsi ۲« .۱۱

Müsnədi ibn Hənbəl», Əhməd ibn Məhəmməd Şeybani (İbn Hənbəl), tədqiq:« .۱۲
.Abdullah Məhəmməd Dərviş, Beyrut, Darül-fikr, ۱۴۱۴ hicri-qəməri, ikinci çap

Miyzanül-hikmə», Məhəmməd Məhəmmədi«

.Reyşəhri, mütərcim: Həmid Rza Şeyxi, Qum, Darül-hədis, ۱۳۷۷, h. ş, birinci çap .۱

Məcməül-bəyan fi təfsiril-Quran», Fəzl ibn Həsən Təbrisi (Əminül-islam), (vəfat: ۵۸۴» .۲ h. q.), Seyid Haşim Rəsuli Məhəllati və Seyid Fəzlülah Yəzdi Təbatəbayi, Beyrut, Darül-.mərifə, ۱۴۰۸ h. q. Çap-۲

Müstədrəkül-vəsail və müstənbətül-məsail», Mirza Hüseyn Nəvəri Təbərsi, (vəfat:» .۳ .۱۳۲۰ h. q.), Müəssisətü Alil-beyt (ə), ۱۴۰۷ h. q. Çap-۱

Müsnədi-İbn Coud», Əli ibn Coud Covhəri, (vəfat: ۲۳۰ h. q.), Beyrut, Müəssisətü-» .۴ .navər, ۱۴۱۰ h. q

Məcməül-bəhrəyn», Fəfrüddin Türəyhi, (vəfat: ۱۰۸۵ h. q.), tədqiq: Seyid Əhməd» .۵ .Hüseyni, Tehran, Məktəbətü nəşris-seqafətil-islamiyyə, ۱۴۰۸ h. q. Çap-۲

Məhbubül-qülub», Qütbüddin Məhəmməd ibn Əli Deyləmi, təshih: İbrahim Dibaci və» .۶ .Hamid Sidqi, Tehran, Dəftəre-nəşre mirase-məktub, ۱۳۷۸

Mişkatül-ənvar fi qüəril-əxbar», Əli ibn Həsən Təbrisi, tədqiq: Məhdi Huşmənd, Qum,» .۷ .Darül-hədis, ۱۴۱۸ h. q. Çap-۱

Məanil-əxbar», Məhəmməd ibn Əli hbn Babəveyh Qummi (Şeyx Səduq), (vəfat: ۳۸۱ h.» .۸ .q.), tədqiq: Əli Əkbər Qəffari, Qum, Müəssisətün-nəşril-islami, ۱۳۶۱ h. ş. Çap-۱

Məkarimül-əxlaq və məaliha», Əbubəkr Məhəmməd ibn Cəfər Xərrati, (vəfat: ۳۲۷ h.» .۹ .q.), Qahirə, Darül-afaqil-ərəbiyyə, ۱۴۱۹ h. q

Məcazatün-nəbəviyyə», Məhəmməd ibn Hüseyn əl-Musəvi (Şərif Rəzi), tədqiq:» .۱۰ .Taha Məhəmməd Zeyni, Qum, Məktəbəti-Bəsirəti

Nəhcül-bəlağə», Məhəmməd ibn Hüseyn Musəvi (Şərif Rəzi), təshih və tərcümə:» .۱۱ .Seyyid Əli Nəqi Feyzül-islam, Tehran, Cavidan, ۱۳۶۰ h. ş

.Nəhcül-fəsahə», Qum, Ənsariyan, ۱۳۷۵ h. ş» .۱۲

səh:۱۸۸

.Nəsayih», Qum, İntişarati-elmi-fərhəngi, ۱۳۷۶ h.ş» .۱

.Nurus-səqəleyn», Huveyzi, Əbdül-əla ibni Cümə əl-Ərusi, Müəssisətü-İsmaili, Qum» .۲

Rəbiül-əbrar və nüsusül-əxbar», Məhmub ibn Ömər Zəməxşəri, tədqiq: Səlim ən-» .۳
.Nəimi, Qum, çap növbəsi ۱, Mənşurati-Şərif Rəzi, ۱۴۱۰ h. Q. ۵۵

Rəyahinüş-şəriə», Zəbihullah Məhəllati, Məşhəd, əl-Mötəbərül-aləmi lil-İmamir-Rza » .۴
.(əleyhis-səlam), ۱۴۰۹ h. q, birinci çap. ۳۰

Rövzətül-üqəla və nəzhətül-füzəla», Məhəmməd ibn Həyyan Bosti, (vəfat: ۳۵۴ h. q.),» .۵
.tədqiq: İbrahim ibn Abdullah Hazəmi, Riyaz, Darüş-şərif, ۱۴۱۳ h. q

Sobolül-hüdə vər-rəşad», Məhəmməd ibn Yusif Salehi Şami, (vəfat: ۹۴۲ h. q.) tədqiq:» .۶
.Adil Əbdülmocud, Darül-kotobül-elmiyyə, ۱۴۱۴ h. q

.Səfinətül-bihar», Beyrut, ۱۴۱۴ h.q» .۷

Siyrətün-nəbəviyyə», İbn Hişam (Əbdülmülk), Beyrut, Darül-cil, çap növbəsi ۱, ۱۴۱۱» .۸
.h.q

Səvabül-əəmal və iqabül-əmal», Məhəmməd ibn Əli ibn Babəveyh Qumi (Şeyx» .۹
.Səduq), tədqiq: Şeyx Əli əl-Ğəffari, Tehran, Məktəbətüs-Səduq. ۵۵

Sünəni-Əbi David», Sülüyman ibn Əşəs Səcistani əl-Əzdi, tədqiq: Məhəmməd» .۱۰
.Mühyiddin Əbdül-həmid, Beyrut, Daru-ehyaüs-sünnətin-nəbəviyyə

Sünəni-ibn Macə», Məhəmməd ibn Yezid əl-Qəzvini (İbn Macə), tədqiq: Məhəmməd» .۱۱
.Fuad Əbdül-baqi, Beyrut, Daru-ehyait-turasil-ərəbi, ۱۳۹۵ h. q, birinci çap

Səhihi-Buxari», Məhəmməd ibn İsmayıl Buxari, tədqiq: Mustafa Dib əl-Bəğa,» .۱۲
.Beyrut, Dari-ibn Kəsir, ۱۴۱۰ h. q, dördünçü çap

Səhihi-Müslim», Müslim ibn Həccac əl-Qəşiri Nişaburi, tədqiq: Məhəmməd Fuad» .۱۳
.Əbdül-baqi, Qahirə, Darül-hədis, ۱۴۱۲ h. q, birinci çap

.Tarixi-Təbəri», Təbəri (Məhəmməd ibn Cərir), Dəmeşq, ١۴١١ h.q» .١

Tarixdə qadın rolu», Mürtəza Fəhim Kermani, Tehran, İntişarati Fərhəngi-islami, « .٢
.١٣۶٩ h.ş

Tacül-ərus min cəvahiril-qamus», Seyid Məhəmməd Mürtəza ibn Məhəmməd « .٣
.Hüseyni Zübeydi, (١٢٠۵ h. q.), tədqiq: Əli Şiri, Beyrut, Darül-fikr, ١۴١۴ h. q

Təfsiri-İbn Kəsir», (Təfsiri-Quranil-Əzim), İsmail ibn Ömər Bosrəvi Dəmeşqi (İbn« .۴
Kəsir), (vəfat: ٧٧۴ h. q.), tədqiq: Əbdüləziz Qəim və Məhəmməd Əhməd Aşur və
.Məhəmməd İbrahim Bənna, Qahirə, Darüş-şoəb

Təfsiril-Əyyaşi-Təfsiris-Soləmi», Məhəmməd ibn Məsud Soləmi Səmərqəndi,« .۵
(Əyyaşi), (vəfat: ٣٢٠ h. q.), tədqiq: Haşim Rəsuli Məhəllati, Tehran, əl-məktəbətül-
.elmiyyə, ١٣٨٠ h. q. Çap növbəsi-١

Tənbihül-xəvatir və nəzhətün-nəvazir» (Məcmuətü Vərram),Vəram ibn Əbi Fəras« .۶
.Həmədan, (vəfat: ۶٠۵ h. q.), Beyrut, Darüt-təarüf və Darüs-səb

Təhzibül-əhkam fi şərhil-müqniə», Məhəmməd ibn Həsən Tusi (Şeyx Tusi), (vəfat: « .٧
.۴۶٠ h. q.), .), Beyrut, Darüt-təarüf, ١۴٠١ h. q. Çap növbəsi-١

Təhzibül-əsmai vəl-lüğat», Yəhya ibn Şərəf Nəvəvi, (vəfat: ۶٧١ h. q.), Beyrut, Darül-« .٨
.fikr, ١۴١۶ h. q

Üyunil-əxbar», Abdullah ibn Müslim Dəynəvəri (İbn Qüteybə), (vəfat: ٢۶٧ h. q.),« .٩
.Qahirə, Darül-kotobül-misriyyə, ١٣۴٣ h. q

Hüsnüz-zənni billah», Abdullah ibn Məhəmməd Qürəşi, (İbn Əbid-Dünya), (vəfat:« .١٠
.٢٨١ h. q.) tədqiq: Məhəmməd Seyid İbrahim, Qahirə, Məktəbətül-Quran

Hilyətül-övliya və təbəqatül-əsfiya», Əhməd ibn Abdullah İsfəhani, (Əbu Nəim),« .١١
.(vəfat: ۴٣٠ h. q.), Beyrut, Darül-ketabil-ərəbi١٣٨٧ h. q. Çap növbəsi-٢

.Hüseyn (ə) inqilabı», Mürtəza Mütəhhəri« .١٢

.Camiüs-səadət», Beyrut, ۱۴۱۳ h.q» .۱

Cameül-əxbar əv məarecil-yəqin fi üsulid-din», Məhəmməd ibn Məhəmməd» .۲
.(Səbzvari, tədqiq: Müəssisətü Alil-beyt(ə), Qum, Müəssisətü Alil-beyt(ə

Cameül-bəyan ən təvili ayil-Quran» (Təfsiri-Təbəri), Məhəmməd ibn Cərir Təbəri» .۳
.(vəfat: ۳۱۰ h. q.), Beyrut, Darül-fikr, ۱۴۱۴ h. q

Cameü bəyanil-elmi və fəzlih», Yusif ibn Əbdülbirr Nəmiri Qortubi, (vəfat: ۴۶۳ h. q.)» .۴
.Beyrut, Darül-kotobül-elmiyyə

Şərhi-Nəhcül-bəlağə», Əbdülhəmid ibn Məhəmməd Mötəzili (İbn Əbil-Hədid), (vəfat:» .۵
.۶۵۶ h. q.) tədqiq: Məhəmməd Əbülfəzl İbrahim, Beyrut, Darü ehyaut-türas, ۱۳۸۷ h. q


səh:۱۹۱

## Haqqında mərkəzi

Allahın adı ilə

Rəhman və Rəhimli olan Allahın adı ilə.Və bütün həmdlər aləmlərin rəbbi olan Allaha .məxsusdur

.Varlıq aləminin Kövsəri olan Həzrəti Fatiməyi Zəhraya (a) təqdim olunur

(Bilən kimsələrlə (alimlər) bilməyənlər (cahillər) eynidirlərmi? (Zümər sürəsi, ayə ٩

:Ön söz

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi ٢٠٠۶-cı ildən Mərhum Ayətullah Seyyid Həsən Fəqih İmaminin nəzarəti altında,elmi mərkəzlərdə tanınan görkəmli tələbələrin vasitəsi ilə məzhəb,mədəniyyət və elmi sahələrdə öz fəaliyyətinə .başlamışdır

:Məramnamə

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi təhqiqatçıların dini biliklərə rahət və tez bir zamanda yiyələnmələri üçün hər bir xidməti onların ixtiyarında qərar vermişdir.Və bu sahədə təəssübkeşlikdən,ictimai,siyasi,fərdi cəryanlardan uzaq duraraq yalnız və yalnız elmi sahədə ixlasla öz xidmətini həyata keçirməkdədir.Bu səbəbdən adı çəkilən müəssisə layihəsini həyata keçirmiş.Və tədqiqat üçün nəzərdə tutulmuş kitabları,məqalələri mütəxəssislər və müxtəlif təbəqələrdən olan insanlar üçün,bir neçə dillərdə və formalarda hazırlayaraq,heç bir məbləğ tələb etmədən sosial .medyada istifadəçilərin ixtiyarında qoymuşdur

:Hədəflər

Quran və Əhli beyt mədəniyyətini və maarifini yaymaq.١

İnsanları,xüsusən gəncləri tam dəqiq şəkildə dini məsələləri araşdırmağa.٢ sövqləndirmək

Telefon,tablet və kompüterlərdə olan faydasız,yararsız mövzuların yerini .٣ faydalı,mənəviyyatlı mövzularla doldurmaq

.Təhqiqatla məşğul olan tələbələrə xidmət etmək.۴

.Kitab və elmi əsərlər oxumaq mədəniyyətini yaymaq.۵

.Müəlliflərin öz elmi əsərlərini digital formada yaymaq üçün onlara şərait yaratmaq.۶

:İcraçılıq

.Qanunla icazəli olan lisenziyaya malik əsərlərin yayımı.١

.Bu mərkəz kimi xidmət göstərən oxşar mərkəzlərlə əlaqə.۲

.(Paralel xidmətlərdən çəkinmək (başqalarının etdiklərini təkrarlamamaq.۳

.Yalnız və yalnız elmi məsələləri yaymaq.۴

.Nəşriyyatın mənbələrini qeyd etmək.۵

.Qeyd:Kitabda olanlara görə məsüliyyət o kitabı yazan müəllifin öhdəsindədir

:Müəssisənin fəaliyyəti

.Kitabların çapı və nəşri.۱

.Kitab oxumaq müsabiqələrinin təşkili.۲

.Məcazi sərgilərin istehsalı.۳

.Kompüter oyunlarının istehsalı.۴

Qaimiyyə internet saytının yaradılması:www.ghaemiyeh.com.۵

.Sərgi məhsullarının və moizələrin istehsalı.۶

.Şər'i,əxlaqi və etiqadi suallara cavab.۷

.Mühasibat,mətbuat yaratmaq və sms... sistemlərinin layihəsi.۸

.Təlim kurslarının həyata keçirilməsi.۹

Tərbiyəçi şəxslər hazırlamaq üçün təlim kurslarının təşkili.۱۰

Kompüterdə,tabletdə və telefonlarda icrası mümkün olan minlərlə proqramların.۱۱ dünyada məşhur olan səkkiz formada istehsalı

JAVA.۱

ANDROID.۲

EPUB.۳

CHM.۴

PDF.۵

HTML.۶

CHM.۷

GHB.۸

.v.Qaimiyyə kitab bazarı adına dörd market

ANDROID.۱

IOS.۲

WINDOWS PHONE.۳

WINDOWS.۴

deyilənlər müəssisənin veb saytında Fars,Ərəb,İngilis və Azərbaycan dillərində pulsuz

.istifadəyə verilmişdir

:Sonunda

Mərcəi təqlid müctəhidlərin dəftərxanalarından (ofis),müəssisələrdən,nəşriyyatçılardan,müəlliflərdən və əməyi olan bütün şəxsiyyətlərdən bizlərə hədəfə çatmaqdan ötrü yardım etdikləri üçün səmimi qəlbdən .təşəkkür edirik


:Mərkəzin ünvanı

İsfahan-Əbdurrəzzaq küçəsi-Hacı Muhəmməd Cəfər adına bazar-Şəhid Muhəmməd Həsən Təvəkküli küçəsi-blok۱۲۹/۳۴-birinci mərtəbə

veb sayt:www.ghbook.ir

mail:Info@ghbook.ir

mərkəzin ofis telefonu: ۰۰۹۸۳۱۳۴۴۹۰۱۲۵

Tehran ofisi: ۰۰۹۸۲۱۸۸۳۱۸۷۲۲

Biznes və alqı satqı: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹

Mərkəzdə çalışan insanlarla əlaqə yaratmaq üçün nəzərdə tutulan nömrə: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹



İsfəhan Qaimiyyə kompüter araşdırmalar mərkəzi
Qaimiyyə
www
Başqa kitabxanaya sahiblənmək üçün gördüyünüz sayt mərkəzinə müraciət etmənіz lazımdı:
www.Ghaemiyeh.com
www.Ghaemiyeh.net
www.Ghaemiyeh.org
www.Ghaemiyeh.ir
Və sifariş üçün bizimlə əlaqə saxlayın:
(0098) 0913 2000 109